# MÜNDƏRİCAT




3 | ƏLİ HƏSƏNOV:
AZƏRBAYCAN DÜNYADA MÜHÜM NƏQLİYYAT-LOGİSTİKA MƏRKƏZLƏRİNDƏN BİRİNƏ ÇEVRİLMİŞDİR





6 | İBRAHİM ƏLİYEV:
AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI VƏ İNKİŞAFI DÖVRÜNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ

10 | ANAR EMİNOV: SOSİAL İNVESTİSİYALARIN QİYMƏTLƏNDİRMƏ MEYARLARI VƏ METODLARI

14 | ŞƏFA ƏLİYEV: HEYDƏR ƏLİYEV DÜHASI VƏ ƏSRİN MÜQAVİLƏSİ

19 | XALİD NİYAZOV: İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN HÜQUQİ ƏSASLARI: KOMPORATİV YANAŞMA

24 | AYDAN RAHIMLI: IMMIGRATION RIGHTS BEFORE AND DURING OBAMA ERA IN UNITED STATES OF AMERICA

28 | VÜSAL BAĞIROV: SANAT EĞİTİMİNDE TÜRK GRAFİK SANATININ ÖNEMİ





33 | AKİF MARİFLİ: BEYNƏLXALQ TƏŞKİLATLARIN FÖVQƏLADƏ HALLAR FƏALİYYƏTİ VƏ ANTİTERROR SİYASƏTİ

37 | ŞƏHLA GÜLMƏMMƏDOVA: BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

43 | ÜLVİYYƏ QULİYEVA: MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ: YENİ İSTİQAMƏTLƏR VƏ PERSPEKTİVLƏR

47 | BƏXTİYAR NƏBİYEV: AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ GEOSİYASİ VASİTƏLƏRİN DƏYƏRLƏNDİRİLMƏSİ BAXIMINDAN GÜRCÜSTAN AZƏRBAYCANLILARI AMİLİ

ictimai - siyasi, elmi - populyar jurnal



51 | LEYLA ƏLİZADƏ: ŞƏXSİYYƏTLƏRARASI ÜNSİYYƏTİN PSİXOLİNQVİSTİK MƏSƏLƏLƏRİ

55 | LAMİYYƏ NAMAZOVA: 1960-1970-CI İLLƏRDƏ ROCER SEYVORİNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN TARİXİNİN TƏDQİQİNƏ DAİR

63 | TALEH ƏHMƏDOV: MULTİKULTURALİZM VƏ ETİKA ƏLAQƏSİNİN BƏZİ CƏHƏTLƏRİ

67 | ƏDALƏT MUSTAFAYEV: ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ "HALQA" ƏMƏLİYYATININ ROLU VƏ MAHİYYƏTİ

71 | СЕВИНДЖ МАМЕДЛИ: ЭТАПЫ ТРАНСФОРМАЦИИ ПОЛИТИЧЕСКОЙ ЭЛИТЫ ТУРЦИИ



74 | ЭЛЬВИН РАШИДОВ: ВОСПРИЯТИЕ ОБРАЗА ГОСТИНИЦЫ



59 | İLAHƏ ƏLİYEVA: AZƏRBAYCANDA TURİZM KADR EHTİYYATININ ARTIRILMASINDA TƏHSİL VƏ SƏNAYE ƏMƏKDAŞLIĞININ TƏŞKİLİ

*"GEOSTRATEGİYA"* jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasının dissertasiyaların

***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***

üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.

GEO STRATEGİYA

Təsisçi:
"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi

Baş redaktor:
Əli Həsənov
Redaktor:
İbrahim Əliyev
Redaktor müavini:
İsmayıl Qasımov

Korrektor:
Leyla Binyatova

Dizayner:
İman Hüseynov

Redaksiya heyəti:

Əli Həsənov
Mübariz Qurbanlı
Səlahəddin Xəlilov
Rüstəm Məmmədov
Rasim Musabəyov
Çingiz İsmayılov
Musa Qasımlı
İbrahim Əliyev
Ərəstun Mehdiyev
Cəfər Cəfərov
Elman Nəsirov
Hikmət Məmmədov
Elçin Əhmədov

Ünvan:
Mətbuat pr. 23M. Beynəlxalq Mətbuat Mərkəzinin 4-cü mərtəbəsi.
Tel: (+994 12) 537 16 05
Faks: (+994 12) 537 16 05
E-poçt:
geostrategiya.az@mail.ru
strategiya.az@mail.ru

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap olunmuşdur.

Sifariş № 3336

Redaksiyanın icazəsi olmadan dərgidəki materiallardan istifadə etmək qadağandır.



# Geosiyasət

ƏLİ HƏSƏNOV
Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, tarix elmləri doktoru, professor

## AZƏRBAYCAN DÜNYADA MÜHÜM NƏQLİYYAT-LOGİSTİKA MƏRKƏZLƏRİNDƏN BİRİNƏ ÇEVRİLMİŞDİR




Oktyabrın 30-da Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun açılışı həm Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatında, həm də qlobal miqyasda mühüm tarixi hadisəyə çevrildi. Əksər ekspertlərin rəyinə əsasən, BTQ Avropa və Asiya dövlətləri arasında ticarət-iqtisadi əlaqələrin möhkəmlənməsi, region ölkələrinin iqtisadi inkişafı və onların dünyada geosiyasi nüfuzunun artmasına güclü təkan verməklə yanaşı, həm də və ilk növbədə Azərbaycanın geoiqtisadi maraqlarının təmin olunması baxımından xüsusi əhəmiyyət daşıyır.

Məhz Prezident İlham Əliyevin Azərbaycanın zəngin təbii resursları, əlverişli coğrafi mövqeyi, Qərblə Şərqi birləşdirən nəqliyyat-kommunikasiya imkanları və digər geosiyasi üstünlüklərinin milli maraqlara uyğun şəkildə istifadəsi istiqamətində apardığı məqsədyönlü siyasət ölkəmizin beynəlxalq aləmdə yerini və rolunu əsaslı şəkildə möhkəmləndirdi.

BTQ Avrasiya məkanında ticarət əlaqələri, yük daşımaları sahəsində yeni və iqtisadi cəhətdən daha əlverişli nəqliyyat marşrutunun yaradılması zərurətindən ərsəyə gəlmişdir. Məlumdur ki, hazırda Avrasiya regionunda Avropa Birliyi və Çin əsas iqtisadi güc mərkəzləri kimi çıxış edirlər. Onların arasında yükdaşımaları şimaldan Transsibir dəmir yolu ilə Rusiya ərazisindən, cənubdan isə Hind okeanı-Süveyş kanalı vasitəsilə həyata keçirilir. Lakin fərqli geosiyasi maraqları baxımından Avropa Birliyinin və Çinin bu nəqliyyat marşrutlarına münasibətləri müxtəlifdir. Avropa Birliyi ölkələri hesab edir ki, Şimal dəmir yolu marşrutunun Rusiya ərazisindən keçməsi yüksək siyasi risklər doğurur. Digər yanaşmaya görə, Cənub dəniz yolu marşrutu üzrə daşınmalar isə xeyli vaxt itkisinə səbəb olur ki, bu da iqtisadi səmərəlilik baxımından əlverişsizdir. Ona görə də BTQ yeni marşrut kimi şimal və cənub istiqamətləri üzrə tranzit daşımalarının potensialını kifayət qədər artıran və geoiqtisadi baxımdan ciddi səmərəlilik vəd edən layihə kimi dünyanın diqqətini özünə cəlb etməyi bacarmışdır.





Qeyd edək ki, Avrasiyanın nəqliyyat xəritəsinin mühüm tərkib hissəsi olan BTQ dəmir yolu layihəsinin hazırlanması və reallaşması müxtəlif çətinliklərdən keçmişdir. Bəzi xarici siyasi dairələr bu tarixi layihəni gözdən salmaq üçün məqsədli şəkildə təbliğat apararaq onun iqtisadi baxımdan səmərəsiz olduğunu iddia edirdi. Lakin ilk növbədə Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi, həmçinin Azərbaycan, Gürcüstan və Türkiyə liderlərinin prinsipial mövqeyi, qarşılıqlı dəstəyi və etimadı bütün çətinlikləri dəf etməyə və növbəti tarixi layihəni reallığa çevirməyə imkan yaratdı.

Xüsusi olaraq qeyd etməliyik ki, Azərbaycanla yanaşı, Türkiyə və Gürcüstan keçən əsrin 90-cı illərindən başlayaraq Qərb ölkələri ilə birlikdə Xəzər hövzəsinin enerji resurslarının birgə istismarı və alternativ transmilli layihələr vasitəsilə Avropa bazarlarına ixracı sahəsində fəal siyasət aparmışdır. Cənubi Qafqazın geosiyasi münasibətlər sistemində Azərbaycan, Türkiyə və Gürcüstanın milli maraqları üst-üstə düşərək bir-birini tamamlayır. Bu üç ölkənin birgə geoiqtisadi maraqlarının və təhlükəsizliyinin təmin edilməsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu mühüm rol oynayır. 2007-ci ildə BTQ dəmir yolunun tikintisinə dair sazişin imzalanması nəqliyyat-kommunikasiya sahəsində Azərbaycan, Gürcüstan və Türkiyə arasındakı strateji tərəfdaşlıq əlaqələrini daha da dərinləşdirmişdir.

Son bir neçə ildə Azərbaycan həm daxili, həm də regional və beynəlxalq yol-nəqliyyat infrastrukturlarını, o cümlədən Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri çərçivəsində çoxsaylı tranzit sistemlərini müasir tələblərə uyğun yenidən qurmaqla dünyanın nəqliyyat-kommunikasiya əlaqələrində həlledici vasiləyə çevrilmişdir. Ölkəmizin transmilli enerji, nəqliyyat-kommunikasiya və yükdaşıma layihələrində (Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəməri, Avropa-Qafqaz-Asiya nəqliyyat-kommunikasiya dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu və s.) iştirak etməsi onun regiondakı geoiqtisadi əhəmiyyətini, beynəlxalq enerji-nəqliyyat təhlükəsizliyinin təmin olunmasında rolunu artırmışdır. Azərbaycan BTQ dəmir yolu layihəsinin təşəbbüskarı, hərəkətverici qüvvəsi və əsas təminatçısı kimi artıq dünyada mühüm nəqliyyat-logistika mərkəzlərindən birinə çevrilmişdir.

BTQ-nin Avrasiya regionunda təhlükəsizliyin, sabitliyin və davamlı iqtisadi inkişafın təmin olunmasında mühüm əhəmiyyət daşıyacağı şübhə doğurmur. Dəmir yolu Avropanı Asiya ilə birləşdirən ən qısa, eyni zamanda iqtisadi baxımdan əlverişli marşrut xəttidir

və onun vasitəsilə birinci mərhələdə 5 milyon ton, sonrakı dövrdə isə 17 milyon ton və daha artıq həcmdə yüklərin daşınması proqnozlaşdırılır. Həmçinin yeni dəmir yolu yük və sərnişinlərin Avropaya və Asiyaya çatdırılması, ixrac mallarının Azərbaycan ərazisindən tranzitinin kəskin artması, eyni zamanda Xəzər hövzəsi regionunun Avropa ilə bilavasitə nəqliyyat əlaqələrinin zənginləşməsi, ölkəmizlə bölgə dövlətləri arasında xarici iqtisadi münasibətlərin inkişafı baxımından böyük perspektivlər vəd edir.

Azərbaycan ixracatçılarının dünya bazarlarına səmərəli və ucuz xərclərlə çıxmasına, marşrut üzərindəki dövlətlər arasında xarici ticarət dövriyyəsinin həcminin artmasına BTQ dəmir yolu mühüm təsir göstərəcəkdir. Bu nəqliyyat marşrutunun digər geoiqtisadi əhəmiyyəti Azərbaycanın Türkiyə ilə Gürcüstan ərazisindən keçməklə Avropa ilə birbaşa dəmir yolu əlaqəsi qurmasından ibarətdir.

Cənubi Qafqazda transmilli nəqliyyat-kommunikasiya layihələrinin reallaşması yalnız Azərbaycanın deyil, həm də regionda sülhün və sabitliyin qorunub saxlanılmasında maraqlı olan dünya dövlətlərinin strateji maraqlarına cavab verir. Avropa Birliyinin enerji-nəqliyyat təhlükəsizliyi siyasətində Azərbaycana həm tranzit ölkə, həm də neft və qaz təchizatçısı kimi böyük əhəmiyyət verilməsi ölkəmizin geosiyasi dəyərini artıran mühüm amillərdən biridir. Eləcə də bu amil dünya iqtisadiyyatının mərkəzlərindən biri olan Çinin Azərbaycanın apardığı transmilli nəqliyyat siyasətini dəstəkləməsində özünü göstərir. Rəsmi Pekin Şərq-Qərb nəqliyyat dəhlizinin Avrasiyadan Çinə qədər olan hissəsinə aid layihələrə xüsusi diqqət yetirir. Çin hətta BTQ dəmiryolu layihəsinə böyük maraq göstərmiş və onun maliyyələşdirilməsində iştirak etməyə hazır olduğunu bildirmişdir. Hazırda Azərbaycanın Şərq-Qərb nəqliyyat-kommunikasiya sistemində mövqeyi getdikcə güclənir və onun tranzit imkanları artdıqca iqtisadi güc mərkəzləri (Avropa Birliyi, ABŞ, Yaponiya, Çin, Cənub-Şərqi Asiya ölkələri və s.) ilə strateji tərəfdaşlığı daha da möhkəmlənir.

Bütün bunlar bir daha göstərir ki, BTQ dəmir yolunun istifadəyə verilməsi ölkələrarası nəqliyyat əlaqələrini daha da gücləndirəcək, beynəlxalq bazarlara daha əlverişli çıxışın təmin olunması üçün geniş geoiqtisadi imkanlar yaranacaqdır. Şübhəsiz, bu transmilli nəqliyyat marşrutu müasir dövrdə regional və beynəlxalq təhlükəsizliyin təmin olunmasında özünəməxsus yer tutacaqdır.



# Tarix



İBRAHİM ƏLİYEV
Tarix üzrə fəlsəfə doktoru

## AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MÜSTƏQİLLİYİNİN BƏRPASI VƏ İNKİŞAFI DÖVRÜNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ



Azərbaycan Türkiyə münasibətləri qədim və zəngin tarixə malikdir. Bu münasibətlər özünəməxsus xüsusiyyətləri və coxşaxəli istiqamətləri ilə həmişə fərqlənmiş, müstəsna əlamətlərə malik olmuşdur. Dərin tarixi kökləri ilə bağlı olan bu ölkələri hər şeydən əlavə etnik doğmalıq birləşdirir. Buna görə də bu dövlətin tarixini, ictimai-siyasi və mədəni həyatını bir-birindən ayrı təsəvvür etmək mümkün deyildir.

Azərbaycan-Türkiyə münasibətləri tarixin müxtəlif mərhələlərində həyatın ağır sınaqlarından keçmiş, özünün qırılmazlığını praktikada təsdiq etmişdir. Bu münasibətlər barəsində kifayət qədər geniş tədqiqatlar aparılmış, onun müxtəlif dövrləri haqqında xeyli elmi tədqiqat əsərləri yazılmışdır. Hazırkı məqalədə isə diqqəti Azərbaycanın öz müstəqilliyini bərpa etməsindən sonra Azərbaycan – Tütkiyə münasibətlərinin müxtəlif cəhətlərinə yönəltmək istərdik.

Bu iki dövlət arasında münasibətdən danışarkən hər şeydən öncə onu qeyd etmək istərdik ki, onların hər ikisi böyük Türk dünyasının tərkib hissələri olmaqla bu sistemdə özünəməxsus yerə və rola malikdir. Bu münasibətlər ictimai həyatın bütün sahələrini əhatə edir və strateji əhəmiyyət daşıyır.

Türkiyə dövlətinin Qafqaz regionuna olan maraqları, onun bu regionda dayaqlarını yaratmaq istəyi son yüzillikdə yeni bir mərhələyə daxil olmuşdu. Hələ Osmanlı dövləti özünün qüdrətli dövrlərində regionda nüfuz dairəsi uğrunda digər qonşu dövlətlərlə rəqabət aparmışdı. Lakin son yüzilliklər ərzində onun zəifləyərək müxtəlif regionlarda mülklərini və nüfuz dairəsini itirməsi Qafqaza da aid idi. Buna baxmayaraq Türk dövlətinin qlobal maraqları azalmamış, onlar həmişə bu regionda təsirlərini bərpa etməyə çalışmışdılar. Xüsusən Birinci dünya müharibəsi dövründə Osmanlı imperiyasının regionda başlıca rəqibi olan Rusiya imperiyasının inqilablar nəticəsində iflasa uğraması onun qarşısında yeni imkanlar yaradır.

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Türkiyə dövlətinin rəğbətli münasibətini öz üzərində hiss etmişdi. O, 1918-ci il 4 iyulda Azərbaycan Xalq Cümhuriyyətini tanıyaraq ona siyasi və hərbi dəstək verir. Məhz həmin dövrdə türk ordusunun Qafqazda fəallaşması, müstəqillik astanasında dayanmış Azərbaycana dəstək verməsi, ona qarşı yönəlmiş soyqırımı dalğasının qarşısının alınmasında öz töhfəsini verməsi türk-azərbaycan birliyinin parlaq səhifələrindən birini təşkil edir. 1918-ci ilin martında Nuru paşanın rəhbərliyi altında türk ordusunun Azərbaycana uğurlu gəlişi onun taleyində dərin iz qoymuşdur. Lakin Birinci dünya müharibəsində Osmanlı Türkiyəsinin daxil olduğu blokun məğlubiyyəti onların xila-

sedici missiyasını dayandırmasına səbəb oldu. Bununla belə türklər imkanları daxilində Azərbaycana dəstəklərini hər vasitə ilə davam etdirirdi. 23 aylıq mövcudluqdan sonra Azərbaycan Cümhuriyyəti tarixi inkişafının obyektiv nəticəsi olaraq öz müstəqilliyini itirdi. Burada bolşeviklərin hakimiyyətə gətirilməsi ilə Türkiyənin strateji gedişləri arxa plana keçmiş, özünün yeni məqamını gözləmişdir. Lakin yeni şəraitdə də Türkiyənin dəstəyi ən həlledici məqamlarda zaman-zaman özünü büruzə vermiş, bir sıra prinsipial problemlərin həllində öz təsirini göstərmişdir. Buna müsal olaraq Azərbaycanın sovet hakimiyyəti dövründə onun formal müstəqilliyinin qorunub saxlanmasında və xeyli ərazilərinin mühafizə edilməsində müstəsna əhəmiyyətə malik olan Türkiyə ilə Rusiya arasında imzalanmış Moskva müqaviləsi və Cənubi Qafqaz respublikaları ilə bağlanmış Qars müqaviləsini qeyd etmək istərdik.

Azərbaycanın SSRİ tərkibində olduğu dövrdə Türkiyə dövlətinin buraya əli çatmasa da, Azərbaycana olan isti münasibəti daim hiss olunmuşdur. Sovet rəhbərliyi Azərbaycanı Türkiyə təsirindən uzaq saxlamağa, onların yaxınlığına imkan verməməyə çalışırdı. Bütün bunlara baxmayaraq, bu doğma münasibətləri zəiflətmək mümkün olmamışdır.

Türkiyə-Azərbaycan münasibətlərinin yeni mərhələsi XX əsrin axırlarında başlandı. 1990-cı illərdə SSRİ-nin dağlması nəticəsində yeni türk dövlətlərinin öz müstəqilliklərini bərpa etməsi ilə türk dünyasının genişlənməsi və möhkəmlənməsi üçün əlverişli şərait yarandı. Belə bir məqamda Türkiyənin həmin dövlətlərlə hərtərəfli əlaqələrinin güclənməsi, qarşılıqlı təmasların intensivləşməsi, onların bütün məsələlərdə vahid mövqedən çıxış etməsi məsələsi aktuallaşır. Bu münasibətlər sistemində Azərbaycan-Türkiyə münasibətləri xüsusi əhəmiyyətə malik idi.

SSRİ parçalanana qədər Türkiyə Respublikası türk dünyasının dünya dövlətləri sırasında yeganə təmsilçisi idi. Sovet imperiyasının iflası türk dövlətləri sırasının genişlənməsinə gətirib çıxardı və bu, türk dünyasının güclənməsi yolunda böyük imkanlar açdı.

Azərbaycan, Qazağıstan, Özbəkistan, Qırğızıstan və Türkmənistanın simasında tarix səhnəsinə çıxmış yeni türk-müsəlman dövlətləri dünyanın, xüsusən də Qafqaz-Mərkəzi Asiya regionunun yeni durumunda ciddi dəyişikliklərə gətirib çıxarmış, onun siyasi mənzərəsinə yeni qeosiyasi reallıq gətirmişdir. Belə bir məqamda Türkiyə Respublikasının qarşısında yeni perspektivər açılması ilə yanaşı, yeni qlobal vəzifələr ortaya çıxırdı. Tarixi inkişafın öz gedişi ilə açılan bu imkanlar Tütk dövlətinin məsuliyyətlərini də artırdı. Yeni şəraitdə Türkiyə Respublikasının müstəqilliyini bərpa etmiş türk-müsəlman dövlətləri, o cümlədən Azərbaycan Respublikası ilə münasibətləri regionun taleyində və onun inkişaf perspektivində böyük təsirə malikdir.

Azərbaycan öz coğrafi mövqeyinə görə türk dünyası üçün son dərəcə vacib bir ərazidə yerləşir, Türkiyənin bu dünyaya çıxışının bağlanğıcını təşkil edirdi. Digər tərəfdən, sosial-iqtisadi, siyasi, mədəni durum, müasir inkişaf səviyyəsi, ictimai həyatın bütün sahələrində malik olduğu səviyyə Azərbaycanın unikal mövqeyini və ictimai-siyasi mahiyyətini qabarıq şəkildə



*Bakını almış Qafqaz İslam Ordusunun şəhərdə fəxri keçidi*

ifadə edir, onun tarixi missiyasını və rolunu şərtləndirirdi. Bu mənada Azərbaycan təkcə müstəqilliyini bərpa etmiş yeni dövlət olaraq dəstəyə ehtiyacı olan bir dövlət deyildi. Onun malik olduğu təbii ehtiyatlar, iqtisadi potensialı, mədəni intellektual səviyyəsi ilə Türkiyənin özünün müasir inkişafında əsaslı dönüş yarada biləcək imkanın daşıyıcısı idi. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra problemlərini həll etdikcə və müstəqil iqtisadiyyatını yaratdıqca onun regionda və bütöv dünyada təsiri artır. Bu mənada Azərbaycan regionda bütün qonşuları ilə münasibətdə müstəqil aktor kimi nüfuzunu və təsirini günbəgün gücləndirir. Bu mənada hazırkı dövrdə Azərbaycan-Türkiyə münasibətlərindən danışılarkən hər kəs tərəfindən bu münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi etiraf edilir. Bu məqamda tarix bir daha sübut edir ki, dövətin təsir gücü ərazisinin böyüklüyü, əhalisinin sayı ilə ölçülmür. Düzgün aparılan daxili və xarici siyasət, resurslardan düzgün istifadə edilməsi, ölkənin maraqlarından çıxış edən balanslasdırılmış xəttin yeridilməsi dövlətin uğurunun təminatında əhəmiyyətli rol oyanayır.

Əlbəttə, bu məqamda Türkiyə və Azərbaycanın qarşılıqlı münasibətlərinin strateji əməkdaşlıq səviyyəsində qurulması hər iki dövlətin müasir dünyadakı durumunda özünü qabarıq şəkildə göstərir. Həyatın bütün sahələrində tərəfdaşlıq münasibətləri yuksək səviyyədə qurulur. Bu da onları öz güclərini birləşdirərək vahid mövqedən çıxış etməyə, həyata keçirilən transmilli layihələrin reallaşdırılması sayəsində daha da yaxınlaşmağa imkan verir.

Azərbaycanın Türkiyə ilə siyasi əlaqələri müstəqilliyin bərpası anından başlamışdır. Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət Türkiyə olmuşdur. 1991-ci il oktyabrın 18-də Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra noyabrın 9-da Türkiyə Azərbaycanın müstəqilliyini tanıdı. 1992-ci il 14 yanvar tarixində isə Azərbaycan-Türkiyə diplomatik əlaqələri yarandı, Bakı şəhərində Türkiyənin səfirliyi fəaliyyətə başladı, Bir qədər sonra – Türkiyədə Azərbaycan Respublikasının səfirliyi açıldı. Diplomtik münasibətlər qurulduqdan sonra bu iki dövlət arasında əlaqələr daha intensiv xarakter aldı. Müstəqilliyin ilk illərində Azərbaycanda mürəkkəb icitmai-siyasi proseslər zamanında Türkiyə dövləti Azərbaycan xalqının yanında olmuş, onun problemlərinin həllinə dəstək vermişdir. Xüsusən Azərbaycana edilən erməni təcavüzü şəraitində onun



köməyi bütün məsələlərdə hiss olunurdu. Konkret olaraq, ermənilər Qarabağla yanaşı Naxçıvana da həmlələr edir, onu işğal etməyə çalışırdı. Naxğıvanın erməni təcavüzündən qorunmasında Türkiyənin hərtərəfli dəstəyinin, o cümlədən diplomatik səylərinin əhəmiyyəti böyükdür.

Azərbaycanın müstəqillik dövrünə bütöv nəzər saldıqda onun Türkiyə ilə münasibətlərinin daim yüksələn xətlə inkişaf etdiyini müşahidə ettmək olar. Bu münasibətlər ilbəil genişlənərək ictimai həyatın bütün sahələrini əhatə etmişdir. Azərbaycan - Türkiyə münasibətlərinin inkşafında hər iki tərəfin maraqları üst-üstə düşür. Hər şeydən öncə Azərbaycan üçün Türkiyə dünyada ən yaxın müttəfiq və dayaqdır. Azərbaycanın güclü dövlət olması isə Türkiyənin regionda və dünyada gücünün və rolunun artırmasına təkan verir. Başlanğıcını Azərbaycandan götürən enerji və nəqliyyat layihələrinin Türkiyə istiqamələnməsi bu ölkənin iqtisadi və siyasi durumunda yeni bir dövrün başlanmasını şərtləndirmişdir. Hətta Azərbaycandan keçməyən tranzit layihələrdə də Türkiyənin yerinin möhkəmlənməsində də bu iki ölkənin birgə fəaliyyətində qazanılan uğurun təsiri şübhəsizdir.

Türkiyə Azərbaycan əməkdaşlığının mühüm istiqamətlərindən biri türk dünyasının birliyinə nail olmaq, onları həyatın bütün sahələrində təsir imkanına malik vahid mövqe ətrafında birləşdirmək olmuşdur. Hələ müstəqilliyin ilk illərindən başlayaraq belə bir birliyin yaradılmasına və əməkdaşlığın genişləndirilməsinə ehtiyac hiss olunmuş, vacib vəzifə kimi ortaya çıxmışdır. Qeyd etmək lazımdır ki, bu məsələdə Türk dünyası dövlətlərinin üzərinə fərqli vəzifələr düşdüyü kimi, onların hər biri bu prosesdə fərqli mövqe nümayiş etdirmiş, hər bir dövlət özünəməxsus rola və təsirə malik olmuşdur. Azərbaycanın və Türkiyənin üzərinə düşən vəzifə oxşarlığı ilə seçilirdi. Bu iki dövlət bir növ həmin birliyin generatoru, öndəgedəni rolunu oynamış, bu ideyanın reallaşmasına daha şox töhfələr vermişlər. Müstəqilliyin ilk illərindən türkdilli dövlətlərin zirvə toplantılarının əsası qoyulur və vaxtaşırı keçirilir. Bu zirvə toplantıları ilk vaxtlar obyektiv səbəblər üzündən müəyyən çətinliklərlə üzləşsə də bu birliyin formalaşmasında irəliləyiş göz qabağında idi. Onların gedişində daha ciddi məsələlər qoyulur və daimi fəaliyyət göstərən strukturların yaranmasına nail olunur. Bundan sonra isə 2006-cı ildə liderlər TÜRK Parlament Assambleyası adı altında Türk dövlətlərinin parlamentlərinin birliyini hədəfləyən Asssambleyanın yaradılması yolunda fəaliyyət göstərmişlər. 2009-cu ildə Naxçıvan zirvə toplantısında Türkdilli dövlətlərin əməkdaşlıq Şurasının yaradıldı.

Son illərdə keçirilən zirvə toplantılarında türk dünyasının hər bir dövləti üçün önəmli olan məsələlər qoyulur, və həll olunurdu. Artıq Naxçıvan sammitində iqtisadi əməkdaşlıq məsələlərindən tutmuş təhlükəsizlik, beynəlxalq aləmdə birgə fəaliyyət məsələlərinə qədər problemlər müzakirə edilərək vacib qərarlar qəbul edilmişdir.

Azərbaycan Respublikası yarandığı gündən Türkiyə Respublikasının hərtərəfli dəstəyini öz üzərində hiss edirdi. Həmin dövrdə Azərbaycanın güvəndiyi xalqlar və dövlətlərin sırasında Türkiyə birinci yerdə dayanırdı. Lakin Azərbaycanda 1991-93-cü illərdə gedən siyasi proseslərdə ümumilikdə vəziyyət ağır idi və bu iki dövlətin münasibətlərində də özünü göstərirdi. Azərbaycanda yaranmış qarışıqlıqdan istifadə edən xarici və daxili qüvvələr vəziyyəti daha da ağırlaşdırır, ölkəni yaranmış böhrandan çıxmağa imkan vermirdi. 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev ölkədə hərc-mərcliyin qarşısının alınmasına, xarici təcavüzün dayandırılmasına nail olması ilə ölkə daxilində normal quruculuq işləri başlanır. Bu vaxt xarici dövlətlərlə münasibətlərin düzgün məcraya gətirilməsi qonşularla konstruktiv münasibətlər qurmağa şərait yaratdı. Hər bir qonşu dövlətin əsl siyasətinə qiymət verildi, onların hər biri ilə özünün mövqeyinə müvafiq xətt müəyyənləşdi və yeridildi. Elə həmin vaxtdan etibarən Türkiyənin də yeri və rolu düzgün qiymətini aldı. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni Əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində qeyd etdiyi kimi: “Azərbaycan-Türkiyə münasibətləri iki qardaş xalqın mənafelərinə xidmət etməklə yanaşı, dünyada və bölgədə sülhün və əmin-amanlığın bərqərar olması işinə də öz töhfəsini verir.”

Hakimiyyətdə olduğu müddətdə Heydər Əliyev Türkiyə ilə əlaqələrini gücləndirir. Onun atdığı hər bir addımda Türkiyənin maraqları nəzərə alınır. Onun 1994-cü il fevralında Türkiyəyə ilk rəsmi səfəri zamanı Türkiyə Böyük Millət Məclisində çıxış edərək iki ölkənin əlaqələri və bu əlaqələrin genişlənməsi üçün Azərbaycan tərəfinin düşüncələri haqqında məlumat verib. Səfər çərçivəsində Türkiyə ilə əməkdaşlıq və qarşılıqlı yardım

haqqında mühüm sənədlər imzalandı. 1997-ci və 2001-ci illərdəki növbəti rəsmi səfərlərində Türkiyə ilə bütün sahələrdə əməkdaşlığın gücləndirilməsi istiqamətində yeni-yeni sazişlər imzalanmış, real addımlar üçün zəmin yaradılmışdır.

2003-cü ildən Azərbaycana rəhbərlik edən İlham Əliyev Azərbaycanın Türkiyə ilə münasibətində götürülmüş kursu davam etdirmiş, bu münasibətlərin yeni bir səviyyəyə qaldırılmasına nail olmuşdur. Azərbaycanın Türkiyə dövləti ilə əməkdaşlıq əlaqələri ictimai həyatın bütün sahələrində ən yüksək səviyyəyə qaldırılmışdır.

Türkiyə-Azərbaycan iqtisadi münasibətləri iki dövlət arasında əməkdaşlığın mühüm tərəflərindən birini təşkil edir. Müstəqilliyin ilk illərində Türkiyənin humanitar yardımları ilə başlayan bu əməkdaşlıq zaman keçdikcə genişlənərək dərinləşmiş, strateji xarakter almışdır. 1994-cü ildə Türkiyənin "Əsrin müqaviləsinin" tərəfdaşlarından biri kimi çıxış etməsi artıq ciddi planların başlanğıcı idi. Ümumiyyətlə, Azərbaycanın neft-qaz sektoru ilə bağlı 5 müqavilədə Türkiyənin payı vardır.

Xüsusən, neftin və qazın dünya bazarına çıxarılması üçün tikilən boru kəmərlərinin, nəqliyyat dəhlizlərinin planlaşdırılması zamanı Türkiyənin bu layihələrdə iştirakı həmişə diqqət mərkəzində olmuş, hər iki ölkənin səyi sayəsində reallaşmışdır. 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycanın və Türkiyənin birgə səyi sayəsində ərsəyə gəlmişdir. Hazırda isə tikilməkdə olan nəhəng TANAP, TAP kəmərləri də bu tərəfadaşlığın uğurlu nəticələrindəndir. Hazırda bu sahədə aparılan işlər və reallaşdırılan layihələr bu əməkdaşlığın dərinləşməsindən və genişlənməsindən xəbər verir. Qeyd etmək lazımdır ki, yaradılan nəqliyyat dəhlizləri region dövlətlərinin bu sahədə əməkdaşlığının nəticəsi olaraq təkcə bu dövlətlər üçün deyil, daha qlobal problemlərin həllinə təkan verir. Avropanın və dünyanın enerji təhlükəsizliyinin həllinə, yük daşımalarının optimallaşdırılmasına xidmət etməklə yanaşı ölkələrin bir birinə yaxınlaşmasına, səmərəli əməkdaşlığın güclənməsinə öz töhfəsini verir. Bununla yanaşı ölkələrimizin dünya iqtisadi-siyasi, mədəni durumunda rolunu gücləndirir.

İqtisadiyyata yönəldilən xarici investisiyalar sahəsində Türkiyə Azərbaycanın əsas tərəfdaşlarından biridir. Türkiyənin iş adamları və şirkətləri 2002 - 2010 illər ərzində Azərbaycanın neft və qeyri-neft sektoruna 1,653 mlrd. AZN  həcmində investisiya yönəltmişlər, bu da həmin dövr ərzində ölkəyə yatırılan sərmayələrin 7%-ini təşkil etmişdir. Türkiyə Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir. Hazırda iki dövlət arasında ticarət dövriyyəsi 10 mlrd. dollar təşkil edir. 2020-ci ilə bu rəqəmin 20 mlrd. dollara çatdırılması planlaşdırılır.

Qarabağ münaqişəsi başladığı gündən Türkiyə Azərbaycanın ən yaxın müttəfiqi kimi çıxış etmişdir. Onun Sovet dövləti ilə bağladığı müqavilələr də bu məsələdə öz müsbət rolunu oynamışdır. Türkiyə ATƏT-in Qarabağ probleminin həlli üzrə yaradılmış Minsk qrupunun həmsədrləri sırasına düşməsə də, bu qrupun üzvüdür və orada Azərbaycanın güvəndiyi dövlətlərdən birincisidir.

Türkiyənin hərbi-təhlükəsizlik məsələlərində Azərbaycana dəstək olması, son dərəcə böyük əhəmiyyətə və təsirə malikdir. Türkiyənin Azərbaycanla vahid mövqedən çıxış etməsi ən təsirli amillərdən biridir. Bu yaxınlıq təkcə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə deyil, bütövlükdə regionda gedən bütün təhlükəli proseslərə, terrora və provakasiyalara münasibətdə də öz rolunu oynayır.

Xüsusən son illərdə hər iki ölkə üçün həlledici məqamlarda onların bir-birinə münasibətdə tutduğu mövqe və nümayiş etdirdikləri konkret hərəkətlər həmin reallığın ifadəsidir. Son illərdə regionda gedən mürəkkəb proseslər şəraitində onların addımları bir-birini tamamlamış, təkcə iki dövlətin deyil, bütövlükdə regionun problemlərinin həllində mühüm rol oynamışdır. Azərbaycanla Türkiyə arasındakı hərbi əməkdaşlığın inkişafı Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasında da müzakirə olunub. Prezident İlham Əliyev bildirib ki, Ankara ilə hərbi əməkdaşlıq Azərbaycanın marağındadır. Qeyd edək ki, Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı iclasından sonra imzalanan sənədlərdən biri "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında Saziş"dir.

Azərbaycan və Türkiyə arasında günbəgün artan və möhkəmlənən əməkdaşlığın strateji səviyyəyə yüksəlməsi özünü bir daha 2011-ci ildə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulmasında ifadə etdi. Bu Şuranın çərçivəsində hər il keçirilən görüşlərdə hər iki dövlət üçün vacib olan ən mühüm məsələlər müzakirə edilir, birgə fəaliyyət istiqamətləri müəyyənləşdirilirdi. 2017-ci ilin oktyabrında bu şuranın altıncı iclasında da strateji əlaqələrin müxtəlif aspektləri müzakirə edilib. Diqqət mərkəzində duran məsələlərin sırasında hərbi əməkdaşlığın bir sıra məsələləri müzakirə edilmiş, "Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq haqqında Saziş" imzalanmışdır. Azərbaycanla Türkiyə arasındakı hərbi əməkdaşlığın inkişafı müzakirə olunarkən Prezident İlham Əliyev bildirib ki, Ankara ilə hərbi əməkdaşlıq Azərbaycanın marağındadır. Rəcəb Tayyib Ərdoğan öz çıxışında qeyd etmişdi: "Biz hər məsələdə olduğu kimi, bu məsələdə də Azərbaycanın bu haqq işində onun yanında olmağa davam edəcəyik". https://azertag.az/xeber/1107046

Azərbaycan və Türkiyə dövlətləri arasında strateji əməkdaşlıq səviyyəsinə yüksəlmiş münasibətləri regionda formalaşmaqda olan yeni münasibətlər sisteminə öz təsirini göstərir. Belə bir ziddiyyətli zamanda bu münasibətlərin qorunub saxlanması, inkişaf etdirilməsi təkcə regionun deyil, bütün dünyanın maraqlarına xidmət edir. Dünyada qarşıdurmaların, terrorizmin, etnik və dini zəmində alovlandırılan münaqişələrin genişləndiyi şəraitdə Azərbaycan-Türkiyə dostluq və qarşılıqlı faydalı əməkdaşlıq modelinin dünyaya təlqin edilməsi bəşəriyyətə bir humanist çağırışdır.

# SOSİAL İNVESTİSİYALARIN QİYMƏTLƏNDİRMƏ MEYARLARI VƏ METODLARI

ANAR EMİNOV
İqtisadiyyat üzrə fəlsəfə doktoru



**Sosial investisiyaların qiymətləndirilməsi yanaşmaları**

Sosial investisiyalar - əhalinin həyat keyfiyyətini yaxşılaşdırmaq və cəmiyyətin insan kapitalını artırmaq üçün müsbət əməkdaşlıq effektivliyinin əldə edilməsi məqsədilə biznes və fərdlərə dövlət tərəfindən qoyulan investisiyalardır. Elmi ədəbiyyatda sosial investisiyaların müxtəlif təsnifatları var. Bir çox inkişaf etmiş modellərdən ibarət olan investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsinə dair ən uğurlu 6 yanaşmaya diqqət yetirmək vacibdir:

1. Alfred Marşalın bir şirkətin sahibinə olan qalıq gəlir üsulu;
2. Stern Stewart & Co (ABŞ) konsaltinq şirkətinin iqtisadi dəyəri əlavə olunmuşdur (EVA);
3. McKinsey'in Market Value Added (MVA);
4. İnvestisiya üzrə maliyyə vəsaitlərinin hərəkəti gəlirləri - CFROI HOLT dəyərli iştirakçılar;
5. Boston Consulting Group-un pul köçürmələri (CVA);
6. Ümumi səhmdar gəliri (TSR)

Qalıq gəlir metodunun əsas üstünlüyü hesabatın sadəliyi və bazar məlumatlarından istifadəni istisna etməməyidir. Alfred Marşalın üsulunda əhəmiyyətli bir çatışmamazlıq mövcud idi. Sərmayə xərcləri bazarda alınan mənfəəti bazar dəyərinə əsasən nəzərə alır və xalis mənfəət uçotun göstəricisidir və balans dəyərinə əsasən hesablanır. Zamanla firmanın bazar dəyəri ilə mühasibat dəyəri arasındakı uyğunsuzluq əhəmiyyətli dərəcədə fərqlənməyə başladı və bu səbəbdən bu metodu dəyişdirmək lazım gəldi. İqtisadi əlavə dəyər investisiya və ya investisiya portfelinin yaratdığı əlavə dəyərin ölçüsüdür. EVA metodu ilkin məlumatların üç elementinə əsaslanır: investisiyalardan əldə edilən kapitalın gəlirləri; bu investisiyalar üçün kapitalın artırılması; investisiyalı kapital. İqtisadi əlavə dəyər bu investisiyalara qoyulan investisiyalardan və kapitaldan çox gəlir əldə edən məhsul kimi qiymətləndirilir.

İnvestisiya üzrə Nağd pul axını – CFROI. Bu göstərici ən çox investisiya menecerləri və korporasiyalar tərəfindən istifadə olunur.Bu proqnoz şirkətin əməliyyatları nəticəsində yaranan proqnozlaşdırılan pul vəsaitlərinin hərəkətinə əsaslanaraq, biznesin iqtisadi gəlir dərəcəsinin daha dəqiq qiymətləndirilməsini təmin edir [1,s.24]. Nəticədə CFROI-nin CVA modelinin tətbiqi yalnız EVA-nın göstəricisinə daxil olmayan işin keyfiyyətini qiymətləndirmə prosesində şirkətin gələcək mövqeyinə dair faktiki vəziyyəti deyil, gözləntiləri də əhatə etməyə imkan verir. Hesablama formulu:

$$\mathrm{CFROI} = \frac{\text{cari qiymətlərlə tənzimlənmiş pul vəsaitlərinin daxilolmaları}}{\text{cari qiymətlərlə tənzimlənən pul köçürmələri}}$$

31

**İnvestisiya layihələrinin qiymətləndirilməsinin əsas metodları**

Maliyyə kapitalını investisiya etmək, ən yaxşı alternativ seçmək üçün hər bir layihənin effektivliyini qiymətləndirmək lazımdır. İnvestisiya layihələrinin effektivliyini qiymətləndirmək investisiya layihələrinin həyata keçirilməsinin xərclərini və nəticələrini əlaqələndirmək məqsədilə həyata keçirilir.

Layihənin səmərəliliyi bir iştirakçı tərəfindən öz investisiyaları ilə həyata keçirilən layihənin effektivliyi kimi başa düşülür. Buna əsasən, fəaliyyət göstəriciləri yalnız investisiya və əməliyyat fəaliyyətindən maliyyə vəsaitlərinin hərəkəti əsasında müəyyən edilir. Bu nəzəriyyənin bir çox izləyicisi, problemin bu formulunu "açıq sahədə" qiymətləndirərək, maliyyələşdirmə mənbələri və maliyyə alətləri haqqında məlumatın olmaması və layihənin icraçısını investisiya layihəsinin investisiya öncəsi mərhələsində qeyd ediləcəyi ilə qiymətləndirir. Potensial xarici investorlar və layihə kreditorları ilə iş təcrübəsi onların biznes planında əks olunmuş layihə qiymətləndirmə məsələsinin dəqiqləşdirilməsinə maraq göstərir.

Birbaşa investisiya layihəsinin həyata keçirilməsinin effektivliyini qiymətləndirməyə başlamazdan əvvəl, hər hansı bir layihənin effektivliyinin təhlili aşağıdakı əsas prinsiplərdən irəli gəlir ki, nəzərə alınmalıdır:

- zamanın maliyyə dəyərinə təsiri;
- Alternativ xərclərin hesablanması;
- Layihə parametrlərində mümkün dəyişikliklərin hesablanması;
- Mühasibat rəqəmlərini deyil, real pul vəsaitlərinin hərəkəti əsasında hesablaşmaların edilməsi;
- Inflyasiyanın əks olunması və uçotu;
- Layihənin həyata keçirilməsi ilə bağlı risklərin uçotu.

İnvestisiya layihələrinin effektivliyini qiymətləndirmək üçün istifadə olunan əsas və ya standart üsullar iki kateqoriyaya bölünür:

1. Statistik və ya ənənəvi üsullar;
2. Dinamik üsullar.

Bu kateqoriyalar arasındakı fərq dinamik metodların pul vəsaitlərinin hərəkəti diskontlaşdırma konsepsiyasını əsas kimi istifadə edərkən, statik metodlar bu konsepsiyanın tətbiqindən əvvəl də Azərbaycanda və xarici təcrübədə geniş şəkildə istifadə edilmişdir. Xatırladaq ki, 20-ci əsrin ortalarında investisiya layihələri əsasən statistik metodlardan istifadə edilərsə, 20 il ərzində investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsinə dair yanaşmaların modernləşdirilməsi ilə bir çox müəssisələr dinamik metodlardan istifadə edərək hesablamalar aparmışlar. Beləliklə, qeyd etmək lazımdır ki, diskontlaşdırmaya əsaslanan investisiya layihələrinin səmərəliliyinin qiymətləndirilməsinə dair yanaşmalar investisiya layihəsinin effektivliyini təhlil etmək üçün daha müasir və təkmilləşdirilmiş üsullardır və buna görə də daha vacibdir.

İnvestisiya layihələrinin səmərəliliyinin indikatorları diskontlaşdırmaya əsaslanmır, layihələrin həyata keçirilməsi nəticəsində xərclər və nəticələr üzrə faktiki, planlaşdırılmış və layihə məlumatları əsasında hesablanır. Belə üsullardan istifadə etməklə, bir sıra hallarda, investisiya layihəsinin fəaliyyəti müddətində xərclər və nəticələr üzrə orta illik məlumatları hesablamaq üçün bir üsul istifadə olunur. Yuxarıda təsvir edilən metod, investisiya layihəsinin icrası dövründə xərclər və nəticələr qeyri-bərabər paylandığı halda istifadə edilir. Bu metodik texnikanın nəticəsi olaraq, maliyyə dəyərinin zaman baxımından, eləcə də inflyasiya ilə əlaqəli amillər və investisiya layihəsinin həyata keçirilməsi riski nəzərə alınmır. Bundan əlavə, investisiya layihəsinin icrası üçün layihə və faktiki məlumatların müqayisəli təhlili aparılması prosesi daha da çətinləşir. statistik metodu köməyi ilə investisiya layihəsinin səmərəliliyini qiymətləndirilir. Beləliklə, bu cür üsulların çatışmazlığı qısamüddətli əhatə dairəsini əhatə edir, maliyyə dəyərinin vaxtı və investisiyaların ömrü boyunca maliyyə axınlarının qeyri-bərabər bölüşdürülməsinə diqqət yetirmir.

İnvestisiya layihələrinin effektivliyini qiymətləndirmək üçün dinamik üsullar aşağıdakılardır [7]:

- Hazırkı xalis dəyər metodu.
- Bu üsul, layihənin həyata keçirilməsi üçün lazım olan xərclərlə gələcək diskontlaşdırılmış gəlir məbləğinin müqayisəsi əsasında layihənin həyata keçirilməsinə dair inzibati qərar qəbul etməyə imkan verir.
- Daxili gəlir dərəcəsi metodu.
- Bu metod, investisiya layihəsinin həyata keçirilməsinin bütün dövrü üçün diskontlaşdırılmış gəlir məbləğinin ilkin sərmayələrin məbləğinə bərabər olduğu hesablanmış faiz dərəcəsinin dəyəridir. Belə bir qayda müəssisənin borclanılmış kapital istifadə edərək layihəni maliyyələşdirmək məqsədilə kredit almaq imkanına malik olduğu maksimum faiz dərəcəsi kimi müəyyən edilə bilər.
- Güzəştli qaytarılma müddəti.
- Bu göstərici, layihəni həyata keçirmək üçün istifadə edilən ilkin sərmayələrin ödəniş müddətini müəyyən bir faiz dərəcəsi (mənfəət dərəcəsi) ilə cari vaxtda diskontlaşdırılmış gəlirlər hesabına göstərir.
- Göstərici indeksi.
- Bu göstərici, nəticədə əldə olunan pul gəlirlərinin layihənin həyata keçirilməsinin başlanğıcından yaranan investisiya xərclərinə nisbətini əks etdirir. Layihə, karlılıq indeksinin 1'den böyük olması halında uyğulanmağa tabedir.
- Annuitet metodu.

Bu üsuldan istifadə edildikdə, ümumi satınalma xərcini hesablama zərəri mövcud ümumi ödəniş dəyərində hesablamaq lazımdır ki, bu da investisiya layihəsinin ömrü boyunca bərabər şəkildə bölüşdürülür.

Qeyd etmək lazımdır ki, bu metodlar bir sıra əsas çatışmazlıqlarını aradan qaldıran statistik məlumatlardan xeyli fərqlənir: hesablamalarda dinamik metodların istifadəsi pul dəyərinin vaxt aspektini, eləcə də inflyasiya və risklə əlaqəli amilləri nəzərə almağa imkan verir ki, bu da kapitaldan uzunmüddətli istifadənin effektivliyini hesablamağa imkan verir [8] .

Sosial investisiyaların sosial təsiri dörd sinifə bölünə bilər:

1. Sosial mühafizəsiz vətəndaşlar üçün iş yerlərinin yaradılması (əlillərin, çoxlu uşaqlı analar və s.).
2. Cəmiyyətdə real və ya potensial antisional vətəndaşların uyğunlaşdırılması (narkomanların uyğunlaşması, uşaq evlərindən olan uşaqlar və s.).
3. Regionda sosial şəraitin yaxşılaşdırılması (uşaq klubları, üzgüçülük hovuzları, imtiyazlı qiymətli xəstəxanalar və s.).
4. Əlillərin bərpası (əlilliyin normal həyat şəraiti, əlillərə müalicə proqramı).

Aşağıda ictimai sosial təsirlərin dörd növünün hər birinin qiymətləndirilməsinə dair yanaşmalar müəyyənləşdirilmişdir [9]:



Qəbul edilən təyinatlar:

Mt- dövr üçün gözlənilən gəlir vergisi,

T- layihənin ömür boyu,

t -nəzərə alınan dövr: t = 1, T,

r1 -dövlət üçün diskont dərəcəsi,

r2- sosial təsir alıcısı olan bir şəxs üçün diskont dərəcəsi,

L- insan həyatının iqtisadi dəyəri,

gt - dövr üçün işsizlik yardımı.

**Sosial səviyyədə qorunan vətəndaşlar üçün iş yerlərinin yaradılması**

Bu sinifin təsirinin təxminini formuldan hesablamaq təklif olunur [7].

$$NVP_{soc}^{İ} = \sum_{t=1}^{T} \frac{\mathrm{Mt} + \mathrm{kt} \cdot (\mathrm{gt} + \mathrm{Vt} + 0{,}47 \cdot \mathrm{st})}{(1 + \mathrm{r1})\,\mathrm{t}} + \sum_{t=1}^{T} \frac{\mathrm{kt} \cdot (0{,}87\mathrm{st} - \mathrm{gt})}{(1 + \mathrm{r2})\,\mathrm{t}}$$

burada Vt - dövr ərzində adambaşına düşən ÜDM istehsalında,

st - müəssisədə bir müddət ərzində sosial cəhətdən qorunmayan vətəndaşın orta əmək haqqı,

kt - dövrdə müəssisədə sosial cəhətdən qorunan vətəndaşlar üçün iş yerləri

Qiymətləndirmə bütün ictimai təsirin iki hissəyə bölünməsi ehtimalına əsasən həyata keçirilmişdir: dövlətin dövlət və regional büdcələrin artırılması şəklində təsiri, eləcə də sosial cəhətdən qorunan bir vətəndaş üçün birbaşa təsiri.(NPVIsoc = NPVIsoc1 + NPVIsoc2). Birincisi, işləyən vətəndaşların sayının artması, işsizlik mükafatlarının ödənilməsinə artıq ehtiyac olmadığını, həmçinin əlavə vergilər vasitəsilə büdcəyə axının artırılmasının artması ilə ölkənin ÜDM-də artım ifadə olunur.

$$\mathrm{NVP}_{\mathrm{soc1}}^{1} = \sum_{\mathrm{t=1}}^{\mathrm{T}} \frac{\mathrm{Mt} + \mathrm{kt} \cdot (\mathrm{gt} + \mathrm{Vt} + (0{,}34 + 0{,}13) \cdot \mathrm{st})}{(1 + \mathrm{r1})},$$

burada (0,34 + 0,13) - vətəndaşın maaşına sosial ayırmalar və gəlir vergisi .

Sosial cəhətdən qorunmayan bir vətəndaş üçün sosial təsir onun faktiki gəlirini işsizliyin səviyyəsindən cari əmək haqqı səviyyəsinə qədər artırmaq,və ya

$$NVP_{soc2}^{1} = \sum_{t=1}^{T} \frac{0{,}87 \cdot \mathrm{st} - \mathrm{gt}}{(1 + \mathrm{r2})\,\mathrm{t}},$$

0.87 · st - müəssisədə olan, sosial mühafizəsiz vətəndaşın orta əmək haqqı, vergisi çıxılmaqla dövr üçün gəlir.

**Həqiqi və ya potensial antisional vətəndaşların uyğunlaşdırılması**

Bu sinifin təsirini qiymətləndirmək üçün aşağıdakı üsul hazırlanmışdır:

$$NVP_{soc}^{2} = \sum_{t=1}^{T} \frac{\mathrm{kt} \cdot \mathrm{q} \cdot \mathrm{L}}{(1 + \mathrm{r2})\,\mathrm{t}},$$

burada q -ictimai bir vətəndaşın bir cəmiyyətə alışa bilməyəcəyi ehtimalı,

kt - dövr üçün yardım alan antisosyal vətəndaşların sayı.

Belə vətəndaşların normal həyatına dönməsinə imkan verən bir layihənin ictimai təsirinin kifayət qədər qiymətləndirilməsi insan həyatının iqtisadi dəyəridir və bu cür fərdin cəmiyyətin tam hüquqlu üzvü olma ehtimalı ilə vurulur.

Narkomanların qeyri-sağlam bir nisbəti var, köhnə məhbusların relaps nisbəti var və yetimxanaların uşaqları narkotik maddə asılılığı, məhbus olmaq ya da intihar etmə ehtimalına sahibdir.

Son 20 ildə dünya iqtisadçıları orta hesabla insan həyatının dəyərini qiymətləndirmək üçün onlarla tədqiqat aparmışlar. Onların metodologiyaları yaşayış xərclərinin çəkildiyi real təhlilinə əsaslanır. Yaşamaq xərcləri hesablana bilər, məsələn, daha təhlükəsiz avtomobilləri ənənəvi avtomobillərlə müqayisədə və ya təhlükəli istehsalda çalışan insanların əmək haqqının nə qədər yüksək olduğunu bilmək.

İnsan həyatının dəyərini qiymətləndirmək üçün çox dəqiq mikroiqtisadi məlumatlar tələb olunur, buna görə işin əksəriyyəti ABŞ-da həyata keçirilmişdir. ABŞ əmək bazarının tədqiqatları nisbətən kiçik bir sıra proqnoz göstərdi: insan həyatına 4 milyon dollardan 9 milyon dollara (2000 qiymətinə). Bənzər təxminlər avtomobilləri satın almaq, yanğınsöndürmə avadanlığının quraşdırılması, ekoloji vəziyyətin nəzərə alınması ilə daşınmaz əmlakın satın alınması və s. Bu təxminlərin etibarlılığı çoxdur ABŞ hökuməti mühüm sahələrdə - ətraf mühitin qorunması, nəqliyyat təhlükəsizliyi, sağlamlıq sahəsində investisiya layihələri barədə qərar qəbul etmək üçün onları istifadə edir. Azərbaycanda bənzər bir yanaşmanın tətbiqi qeyri-mümkündür, mikroekonomik məlumatların olmaması ilə izah olunur. Amma Amerika məlumatlarını istifadə edərək, Azərbaycandakı yaşayış xərclərini qiymətləndirməyə çalışa bilərik. Amerikalıların müxtəlif nümunələri üçün orta ömür dəyərini təhlil edən elm adamları gəlirin mənfəətinin elastikliyinin 1: 2 olduğunu qənaətinə gəldilər. Görünür ki, azərbaycanlıların yaşayış xərcitəxminən 2 dəfə azdır (Azərbaycanda və ABŞ-da adambaşına düşən ÜDM-in nisbətinin kvadrat kökü). Yəni, bu, 2 milyon dollardan 4,5 milyon dollara qədər dəyişir.

Bölgədə sosial şəraitin yaxşılaşdırılması

Bu sinifin təsirini qiymətləndirmək üçün aşağıdakı formula təklif olunur:

$$NVP_{soc}^{3} = \sum_{t=1}^{T} \frac{\mathrm{kt} \cdot (\mathrm{pm} - \mathrm{p})}{(1 + \mathrm{r2})\,\mathrm{t}},$$

pm - malların bazar dəyəri və ya xidmətin bazar dəyəri,

p - malların və ya xidmətlərin güzəştli qiyməti(sosial sahibkarlıq layihəsi),

kt-dövr başına müştərilərin təxmin edilən sayıdır.

Qiymətləndirmə regionda kommersiya bazasında fəaliyyət göstərən oxşar müəssisələrin artıq mövcud olduğunu və buna görə də əsas sosial təsir vətəndaşların sosial cəhətdən qorunmayan

vətəndaşlar kateqoriyasına güzəştli qiymətlərdə olduğunu nəzərə alsaq, vətəndaşlar artıq bu xidmətləri bazar qiymətləri ilə əldə edə bilərlər.

**Əlillərin reabilitasiyası**

Bu sinifin təsirini qiymətləndirmək üçün aşağıdakı formula hazırlanmışdır:

$$NVP^4_{soc} = \sum_{t=1}^{T} \frac{\mathrm{kt} \cdot \mathrm{h} \cdot \mathrm{L}}{(1 + \mathrm{r2})\,\mathrm{t}},$$

burada h -insan həyatının iqtisadi dəyərinin bir hissəsi kimi bir şəxsdə belə bir qüsuru olmamasının əhəmiyyətinin kəmiyyət göstəricisidir,

kt - dövr üçün yardım alan antisosial vətəndaşların sayı.

Qiymətləndirmədə, müştərilərinin həyat və sağlamlığını sığortalayan sığorta şirkətləri, sığortalanan məbləğə nisbətən hər hansı bir ziyan üçün ödənişlərin dəyərini hesablayırlar. Yəni bütün növ yaralanmaların nisbi xərcləri üzrə məlumat sığorta şirkətlərində artıq mövcuddur və sığorta haqları üzrə masalar təqdim olunur. Buna görə də, insanın həyatının iqtisadi dəyərini sığortalı olaraq alaraq, xüsusi zədələnmənin ədalətli qiymətləndirilməsini alırıq.




## ƏDƏBİYYAT

1. *Payne, J. D. and Heath, W. C. "Comparative Financial Practice in the US and Canada: Capital Budgeting and Risk Assessment", Financial Practice and Education, Spring/Summer 1999, Vol. 9, Issue 1.*
2. *Ивлев С.С. "Социально-ответственные инвестиции в мире", Мировая экономика и международные отношения. – 2004. – № 1.*
3. *Sarıaslan Halil. "Yatırım Projelerinin Hazırlanması ve Değerlendirilmesi", 4. Baskı, Ankara: Turhan Kitabevi, 2002.*
4. *https://www.kp.ru/guide/otsenka-investitsionnykh-proektov.html, giriş tarixi 17.10.2017*
5. *Report on Socially Responsible Investing Trends in the United 2010. Social InvestmentForum Foundation http://www.socialinvest.org, giriş tarixi 14.10.2017*
6. *https://efinancemanagement.com/investment-decisions/net-present-value-npv*
7. *http://www.jhss-khazar.org/2009-12-2/INVESTISIYA%20LAYIHeLeRININ%20QIYMeTLeNDIRILMeSI.pdf*
8. *http://jurnal.org/articles/2009/ekon28.html, giriş tarixi 15.10.2017*
9. *http://enm.blogcu.com/yatirim-projelerinin-degerlendirilmesinde-risk-analizi-2/11505705, giriş tarixi 17.10.2017*


**Açar sözlər:** *sosial investisiya, səmərəlilik göstəricisi, qiymətləndirmə metodu, effektivlik formulu*

**Key words:** *social investment, efficiency indicator, valuation method, effectiveness formula*

**Ключевые слова:** *социальная инвестиция, показатель эффективности, методы оценки, формула эффективности.*


## SUMMARY

**Assesment criteria and methods of social investments**

The solution of investment analysis, assessment and management problems in social spheres is crucial for the sustainable operation and development of the country economy. Social investments provide the process of restoring material goods (services) and create adequate conditions for the population of the country.The purpose of the current study is to examine and investigate research methods for assesment the effectiveness of social investment projects along with the current state of social investments.In order to achieve the above objective, tasks such as identifying existing social security assessments, reviewing the existing criteria for evaluating socially responsible investments, detailed review of various methods to evaluate the effectiveness of investment projects, and defining the benefits and benefits of each of the methods have been identified.



## РЕЗЮМЕ

**Методы и критерии оценки социальных инвестиций**

Решение проблемы анализа, оценки и управления социальными инвестициями крайне важно для непрерывной деятельности и развития экономики страны. Социальные вложения обеспечивают процесс восстановления материальных продуктов (услуг), также создают необходимые условия для населения страны. Наряду с анализом текущего состояния социальных инвестиций, целью исследования является изучение методов оценки эффективности социально-инвестиционных проектов. Для достижения вышеуказанной цели автором были поставлены следующие задачи: определение существующих проблем в вопросе оценки социальных инвестиций; обзор критериев оценки социально ответственных инвестиций, изучение разных методов оценки эффективности инвестиционных проектов; выявление положительных и негативных сторон каждого метода.



ŞƏFA ƏLİYEV
İqtisad elmləri doktoru, professor

# HEYDƏR ƏLİYEV DÜHASI VƏ ƏSRİN MÜQAVİLƏSİ





Əsrin Müqaviləsi elə bir dövrdə və şəraitdə baş tutdu ki, həmin dövr Azərbaycan xalqının taleyüklü məsələlərinin həll olunduğu bir dövr idi. Ölkə iqtisadiyyatı tamamilə dağıdılmışdı. 1990-cı illərin əvvələrində müstəqilliyin bərpasından sonra hakimiyyətdə olanların səriştəsizliyindən Azərbaycanda xaos hökm sürürdü, özbaşınalıq hökmranlıq edirdi, dövlət idarəçiliyindən başı çıxmayanalar xalqı fəlakətə sürükləyirdi, qəbul olunan qərarlar isə heç bir reallığa əsaslanmırdı. Ölkədə vətəndaş qarşıdurması güclənmişdi, digər tərəfdən isə mənfur və xain ermənilər havadarlarının dəstəyi ilə torpaqlarımızı işğal etməkdə davam edirdi. İnsanlar ümidsizliyə qapılmış və sarsıntılar içində qalmışdı. Azərbaycanın dövlətçilik atributları gücləndirilməmiş və iqtisadi islahatlara başlamaq üçün zəmin yaradılmamışdı. Dövlət büdcəsi boş idi, sosial proqramlar işləmirdi. Azərbaycanın əsas sənaye sahəsi olan – neft sənayesi baxımsız vəziyyətə düşmüşdü, neft hasilatı minimum səviyyəyə enmiş, bu sahənin maddi-texniki bazası isə sürətlə zəifləyirdi. Bir sözlə, Azərbaycan həmin dövrdə çox mürəkkəb problemlərlə üz-üzə qalmışdı. İqtisadi tənəzzül güclənməklə bərabər, mövcud iqtisadi infrastruktur da dağılmaqda idi. İnsanlar belə bir dönəmdə Azərbaycan xalqının xilaskarına, dahi şəxsiyyətinə, qiymətli dühasına, görkəmli dövlət xadiminə-Heydər Əliyevə göz dikmişdilər, onun yolunu gözləyirdilər. Bütün bunların hər şeydən əvvəl yüksək vətəndaşlıq məsuliyyətini dərk edən ümummilli liderimiz Heydər Əliyev çoxsaylı baryerlərə, təhlükələrə və problemlərə baxmayaraq, xalqın xilası üçün həyatını təhlükəyə atdı, həyatının qalan hissəsini öz canından çox sevdiyi – Azərbaycan xalqına həsr etdi.

Heydər Əliyev 1993-cü ilin ortalarında ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra ölkədə yığılıb qalmış mürəkkəb problemləri bir-birinin ardınca və kompleks şəkildə həll etməyə başladı. İlk növbədə, xalqın hakimiyyətə inamını geri qaytardı, xalqı ümidsizlikdən çıxartdı. İqtisadi xaotik prosesləri, xüsusilə

tüğyan edən inflyasiyanı cilovladı, maliyyə-kredit sistemini və makroiqtisadi sabitliyi təmin etdi. Dövlətin idarəetmə strukturu gücləndirildi, ali qurumlar və institusional dövlət orqanlarının təşkili prosesləri sürətləndirildi. İqtisadi islahatlara hazırlıqlar görülərək başlanıldı, iqtisadiyyatın bütün sahələri üzrə sabitliyin təminatı tədbirlərinin icrasına start verildi.

Lakin, dahi Heydər Əliyev dərindən dərk edirdi ki, Azərbaycan iqtisadiyyatının modernləşdirilməsi və dünya iqtisadiyyatının tərkib hissəsinə uğurla daxil edilməsinin açarı və təməl daşı neftlə bağlıdır və neft sənayesindən asılıdır. Bunlarla bağlı olaraq akademik X.Yusifzadə qeyd etmişdir ki, ölkəmizin müstəqillik illərindəki misilsiz inkişafında Azərbaycan neftinin həlledici rolu bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Respublikamıza rəhbərlik etdiyi illərdə o, neft sənayesinə ölkə iqtisadiyyatının hərəkətverici qüvvəsi kimi baxmış, ona böyük önəm vermiş və neftçilərdən qayğısını heç vaxt əsirgəməmişdir. Bunu mən böyük Azərbaycan nefti uğrunda ümumilli liderimizin çoxillik gərgin mübarizəsinin şahidlərindən və iştirakçılarından biri kimi deyirəm [1]. Bu sənaye sahəsinin mahir bilicisi olan Ulu Öndər gərgin rejimdə neft sənayesinin böhrandan çıxarılması və inkişafı yollarını aramağa başladı. Ölkədəki ağır şəraitə, çoxlu problemlərin olmasına baxmayaraq Heydər Əliyev müstəqil Azərbaycanın bir dövlət kimi ən ağır taleyüklü məsələsi olan – milli resurslardan və sərvətlərdən xalqın rifahı, milli maraqlar qorunmaqla istifadəsi strategiyasını işləyib hazırlaya bildi. Beləliklə, tarix tezliklə Neft Strategiyasının mükəmməliyinə şahid olacaqdı, eyni zamanda dünya Əsrin Müqaviləsindən xəbər tutacaqdı. Amma, Heydər Əliyev çalışırdı ki, xalqımızın milli sərvəti olan neftdən istifadə şərtləri ölkəmiz üçün səmərəli olsun və gələcəkdə bu sahənin hesabına milli iqtisadi inkişaf modelini gücləndirmək potensialı formalaşdırılsın. Həmin dövrdə dünya kompaniyaları özlərinə sərf edən şərtlərdə maraqlı idilər. Lakin, Heydər Əliyev dühası bir sipər olaraq milli maraqlarımıza zidd olan halların qarşısını kəsdi. Əsrin Müqaviləsi layihəsi 1994-cü il sentyabrın 20-də Bakıda Gülüstan sarayında imzalanmışdır. Bu tədbirdə Böyük Britanya, ABŞ, Türkiyə, Rusiya Federasiyası və digər ölkələrdən yüksək səviyyəli rəsmi şəxslər iştirak etmişlər. Bu tarixi imzalanma mərasimində Heydər Əliyev demişdir: Biz belə bir addım atmaqla Azərbaycanın dünya üçün, dünya iqtisadiyyatı üçün açıq ölkə olduğunu nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, Azərbaycanın tam müstəqil dövlət olduğunu xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezdentinin 21 yanvar 2013-cü il tarixli Sərəncamında qeyd edilir ki, məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir[2].

Əsrin Müqaviləsinin imzalanması ilə Azərbaycanın iqtisadi inkişafında yeni mərhələ başladı. Ölkədə bazar iqtisadiyyatı mexanzimləri və infrastrukturun yaradılması prosesləri sürətləndirildi. Əsrin Müqaviləsinin icrası ilə əlaqədər olaraq Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti təşkil olundu. Bu Şirkət Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə birlikdə geniş həcmli tarixi işlərə başladı. Əsrin Müqaviləsi növbəti illərdə dünyanın 19 ölkəsinin 41 Neft Şirkəti ilə 30-dək Sazişin imzalanmasına imkan vermişdir. Azərbaycan xalqının milli sərvəti olan – karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılmasını nəzərdə tutan Əsrin Müqaviləsi dünyada bu kateqoriyadan olan ən iri Sazişlərdən biri kimi tarixə düşmüşdür. Bu Müqavilənin bağlanması Azərbaycan iqtisadiyyatının inkişafına güclü təkan verdi, ölkəyə yeni texnologiyalar, innovasiyalar, mütərəqqi idarəetmə metodları gəlməyə başladı. Bazar iqtisadiyyatı mexanzimlərinin intensiv tətbiqi hesabına milli iqtisadiyyatın müasir fəaliyyət mexanzimləri formalaşdırıldı, sahibkarlığın və biznesin inkişafına əlverişli mühit yaradıldı. Azərbaycanda iqtisadi islahatların əsas fazasının səmərəli təşkil olunması mümkünləşdi və bu proseslərdə neft sənayesi özünün lokomotiv funksiyasını layiqincə yerinə yetirdi.

Milli iqtisadiyyatın hasilat sənayesi ilə yanaşı digər iqtisadiyyat sahələrinin – qeyri-neft sektoru sahələrinin inkişafı proseslərinin təməli qoyuldu. Neftdən gələn gəlirlərin hesabına milli iqtisadiyyatın müxtəlif sahələrinin modernizasiya prosesləri həyata keçirildi. Ölkədə geniş miqyaslı abadlıq-quruculuq işlərinin və tədbirlərinin görülməsi sürətləndirildi. Rəqabətqabiliyyətli infrastruktur şəbəkəsinin yaradılması təmin olundu. Ölkə əhalisinin sosial-iqtisadi problemlərinin həlli istiqamətində əhəmiyyətli addımlar atıldı. Xüsusilə, məcburi köçkünlərin sosial şəraitinin yaxşılaşdırılması, məşğulluğunun təmin olunması məqsədilə geniş miqyaslı layihələr reallaşdırıldı. Ölkədə bütün çadır şəhərcikləri ləğv olundu. Məcburi köçkünlər yeni salınmış qəsəbələrdə və yaşayış massivlərində hər cür şəraitə malik mənzillərlə təmin edildilər. Əhalinin yaşayış səviyyəsi durmadan yüksəlməkdə davam etmiş, gəlirləri artmışdır.

Davamlı və sistemli, ilk növbədə Heydər Əliyev dühası, müdrikliyi və uzaqgörənliyi ilə mükəmməl hazırlanmış Neft Strategiyası əsasında neft hasilatı ilə yanaşı, təbii qaz hasilatı üzrə, həmçinin neft və təbii qazın dünya bazarlarına çıxarılması istiqamətində iri layihələrin reallaşdırılması mümkün olmuşdur. Regionun ən iri neft və təbii qaz nəqli layihələri Azərbaycanın təşəbbüsü və fəal maliyyə dəstəyi ilə həyata keçirilmişdir. Heydər Əliyevin şəxsi təşəbbüsü və iştirakı ilə Bakı-Tbilisi-Ceyhan Neft kəmərinin 2002-ci ildə təməli qoyulmuş və 2006-cı ildə istifadəyə verilmişdir[3;4;5]. Ölkəmizdə Neft strategiyasının reallaşdırılması ilə bağlı olaraq həyata keçirilən önəmli tədbirlərin sırasında hasil olunan neft məhsullarının dünya bazarlarına çıxarılması infrastrukturunun yaradılması əhəmiyyətli yer tutmuşdur. Hələ Əsrin kontraktının icrasının ilk illərində kontrakt çərçivəsində hasil olunancaq neftin dünya bazarlarına nəqli problemləri kontrakt iştirakçılarını ciddi narahat edirdi. Bunu nəzərə alan Azərbaycan rəhbərliyi mürəkkəb və maliyyə resurslarının məhdudluğu şəraitində neft məhsullarının nəqli infrastrukturunun yaradılması proseslərinə başlamışdır. Bu məqsədlə, Beynəlxalq qurumlar, maliyyə institutları, kredit təşkilatları, müxtəlif ölkələrlə intensiv danışıqlar aparılır və neftin nəqli layihəsi üzərində işlər sürətləndirilirdi. Nəhayət, 1998-ci ilin oktyabr ayında bununla əlaqədər olaraq Ankara bəyannaməsi imzalanmışdı. Maraqlıdır ki, Azərbaycan neftinin hasilatında əhəmiyyətli fəaliyyət göstərən BP şirkəti ilk dövrlərdə bu layihənin reallığına və səmərəliliyinə şübhə ilə yanaşırdı. Amma, aparılan tədbirlər nəticəsində tezliklə neft nəqli üzrə əsas boru kəmərinin layihəsinə olan inamsızlıq aradan qaldırıldı. Müəyyən hazırlıq işlərindən sonra, nəhayət 2003-cü il sentyabr ayının 10-da boru xəttinin inşasına başlandı.

Bu Azərbaycanın regionda və dünyada nüfuzunu xeyli qaldırdı və artıq Azərbaycan enerji sahəsində etibarlı tərəfdaş kimi baxılmağa başlanıldı. Qeyd edək ki, BTC-nin ümumi uzunluğu 1767 km təşkil edir. Azərbaycanın payına bu ərazinin 443 kilometri, Gürcüstanın payına – 248 kilometr və Türkiyənin payına isə 176 kilometr düşür. Kəmərin istismar müddəti 40 ilə hesablanmışdır. Bu kəmərin ötürücülük qabiliyyəti gündə bir mln. barel təşkil edir və lazım gələrsə bunun artırılması mümkündür. BTC-nin illik neft nəqli potensialı 60 mln. ton təşkil edir. Bu kəmər vasitəsilə əsas etibarı ilə Azəri-Çıraq-Günəşli yataqlarından çıxarılan neftin, həmçinin "Şahdəniz" yatağından çıxan kondensatın nəqli həyata keçirilir. BTC-nin idarə və istismar prosesləri SOCAR-ın törəmə müəssisəsi kimi fəaliyyət göstərən Bakı-Tibilisi-Ceyhan boru kəməri Kompani ( BTC ko) 11 səhmdar tərəfindən təşkil olunmuşdur və ən iri səhmdar olan BP tərəfindən idarə edilir. Azərbaycan BTC Ko-da 25 %-lik paya malikdir. Bu kompaniyanın maliyyə vəsaitləri və maliyyələşdirmə məsələləri Dövlət Neft Fondu tərəfindən həyata keçirilir. BTC üzrə neftin nəqlinə 2006-cı ildə başlanılmışdır. BTC təkcə neftin nəqli kimi mühüm əhəmiyyət kəsb etmir, həm də Azərbaycanın Gürcüstan və Türkiyə ilə birlikdə sıx həmrəyliyini, regionun və Avropanın enerji təhlükəsizliyində Azərbaycanın vacib tərəfdaş olduğunun təcəssümü kimi dəyərləndirilir.

Müstəqilliyin bərpasından sonra Azərbaycanın qarşısında duran tarixi vəzifələrdən biri kimi neft-qaz sektorunun milli maraqlar və milli iqtisadi maraqlar çərçivəsində təmin edilməsi idi. 1994-cü ildə Əsrin Müqaviləsi quvvəyə mindikdən sonra Azərbaycan uğurla və intensiv şəkildə Neft Strategiyasının yerinə yetirilməsinə nail oldu. Bu proseslərdə ikinci bir mühüm məsələ neftlə yanaşı, ölkəmizin təbi qaz yataqlarının istismarının sürələndirilməsi, bu sahələrə yüksək texnologiyaların gətirilməsi və nəhayət Azərbaycan nefti ilı yanaşı, Azərbaycan qazının dünya bazarlarına çıxarlmasının təmin edilməsi idi. Tarix göstərdi ki, Azərbaycan özünün bu strateji yanaşmalarında yanılmayıb. Neft layihələri üzrə Azərbaycan özünün üstün komponentlərindən istifadə etməklə, tezliklə dünya bazarlarına çıxmağa başladı və əldə edilən valyuta vəsaitləri digər iri layihələrin, o cümlədən təbii qazın hasilatı və dünya bazarlarına çıxarılması perspektivlərini açdı. Artıq dünya ölkələri də, xüsusilə Avropa Birliyi ölkələri Azərbaycanı özlərinin enerji sahəsində etibarlı tərəfdaşı kimi qəbul etmişlər. Bu amillər nəzərə alınmaqla, ildən-ilə istehsalı artan təbii qazın dünya bazarlarına, xüsusilə ilk növbədə Türkiyəyə, oradan isə Avropa ölkələrinə ixracının – nəqlinin təmin edilməsi üçün təbii qazın nəqli üzrə boru kəmərinin tikilməsi vacib idi. Azərbaycanın Xəzər dənizinin milli sektorunda ən iri qaz layihəsi Şahdəniz yatağı ilə bağlıdır. Bu yatağın təbii qaz ehtiyatları 1,2 trln. m3 həcmində qiymətləndirilir və buradakı ehtiyatların yeni mənbələrinin kəşfi və təsdiqlənməsi istisna olunmur. Artıq bu yataqlar üzrə ilkin və Azərbaycanın ilk iri təbii qaz layihəsi olan – Şahdəniz qaz-kondensat yatağının istismarının birinci mərhələsi üzrə təbii qaz istehsalı atrmaqdadır və Şahdəniz-2 üzrə yekun investisiya qərarları qəbul olunub və enerji layihəsinin icrası prosesləri gedir. Ümumiyyətlə, Şahdəniz yatağının istismarı üzrə tarixi layihələrin hələ bağlanmamasından əvvəl, buradan hasil olunacaq təbii qazın Türkiyəyə və Avropaya nəqlinin təşkili üzrə digər iri bir layihənin reallaşdırılmasına ehtiyac var idi. Bütün bu məsələlərin kontekstində Bakı-Tblisi-Ərzurum, başqa sözlə Cənubi Qafqaz Boru kəmərinin inşasına qərar verildi. Cənubi Qafqaz Boru kəmərinin əsas missiyası və təyinatı Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şahdəniz yatağından hasil olunan təbii qazın Gürcüstan və Türkiyəyə nəql olunmasının etibarlı şəkildə təmin edilməsidir [6;7;8]. Bu təbii qaz boru kəmərinin inşası üzrə tarixi razılaşmalar Türkiyənin İstanbul şəhərində 1999-cu il noyabr ayının 18-19 tarixlərində ABŞ-ın ciddi dəstəyi ilə və ATƏT-in konfransı çərçivəsidnə Azərbaycan, ABŞ, Türkiyə, Qazaxıstan, Gürcüstan və Türkmənistan dövlət rəhbərlərinin birgə imzaladıqları sənəddə öz əksini tapmışdır. Cənubi Qafqaz Boru



kəmərinin uzunluğu 691 kilometr təşkil edir. Qeyd edək ki, bunun Azərbaycana aid olan hissəsi 443 kilometr, Gürcüstan hissəsi isə 248 kilometrdən ibarətdir, qalan hissəsi isə - 289 kilometri Türkiyənin ərazisinə düşür. Bu layihə çərçivəsində nəzərdə tutulan işlər 2006-cı ilin axırına başa çatdırılmış və boru kəməri istismara verilmişdir. Yenidənqurma işlərindən sonra Cənubi Qafqaz Boru kəmərinin nəql potensialı, konkret olaraq nəql gücü illik 20 mlrd. m3-ə qədər yüksələcəkdir. Cənubi Qafqaz Boru kəmərinin uğurla istismar edilməsi və yaxın perspektivdə onun nəql gücünün əhəmiyyətli səviyyədə artırılması Azərbaycanın təbii qazının Avropaya çıxarlmasının etibarlı təminatçısı kimi xarakterizə olunur və bu baxımdan boru kəməri təkcə regional əhəmiyyət daşımır, eyni zamanda Avropanın enerji təhlükəsizliyi kontekstində mühüm əhəmiyyət kəsb edir.

Yaxın perspektivdə Azərbaycanda təbii qaz istehsalının artımı gözlənilir. Belə ki, Şahdəniz-2 investisiya layihəsi üzrə işlər intensivləşməkdədir. Ümumiyyətlə ölkəmizdə perspektivli qaz yataqlarının istismara verilməsi prosesləri bundan sonrakı dövrü əhatə edəcəkdir. Bu amillər baxımından təbii qazın dünya bazarlarına səmərəli və sərfəli marşrutlarla, həm də optimal məsrəflərlə çıxarılması kifayət qədər aktualdır. Təbii qazın nəqlinə çəkilən məsrəflərin azalması və etibarlı nəql marşrurutunun istismara verilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın təbii qazının Türkiyə ərazisinə tam çatdırılması və Türkiyədən Avropa ölkələrinə etibarlı boru kəmərlərinin çəkilməsi üzrə ölkəmiz Türkiyə ilə birlikdə tarixi missiyaları yerinə yetirirlər. Trans-Anadolu Qaz Boru Kəməri layihəsi də bu qəbildəndir. TANAP layihəsi Azərbaycan və Türkiyə hökumətləri arasında razılığa əsasən 2012-ci il 26 iyun tarixində İstanbulda imzalanmışdır. Layihəyə görə Azərbaycandan göndəriləcək təbii qaz Türkiyənin geniş bir ərazisində, onun Şərqindən Qərbinədək olan sərhədlərindək tranzit qaz sistemini təmin edəcəkdir[9]. Bundan əlavə, yeni nəql potensialı hesabına Avropa Birliyi ölkələrinə Azərbaycan təbii qazının ixracı həyata keçiriləcəkdir. Layihəyə əsasən ilk təbii qaz Türkiyə ərazisinə 2018-ci ildə daxil olacaqdır. Təbii qaz boru kəmərinin ümumi ötürücülük gücünün tədricən artırılması nəzərdə tutulmuşdur. Məsələn, 2020-ci ildə bu gösətirici 16 mlrd. m3, 3 il sonra – yəni 2023-cü ildə - 23 mlrd. m3, bundan sonra isə - 2026-cı ildə 31 mlrd. m3 təşkil edəcəkdir. TANAP-la nəql olunacaq Azərbaycan təbii qazının ümumi orta həcmi təxminən ildə 16 mlrd. m3 səviyyəsində başlanması gözlənirlir. Bu həcmin 10 mlrd. m3 Avropa Birliyi ölkələrinə, 6 mlrd. m3 isə Türkiyəyə satılacaqdır. TANAP Türkiyə kimi iri bir dövlətin təbii qazla təminatında əhəmiyyətli rol oynayacaqdır və bu ölkənin təbii qaza olan tələbatının ödənilməsində sabit tranzit kəmər rolunu oynayacaqdır. Bu boru kəmərinin vasitəsi ilə hazırda istismar olunan Cənubi Qafqaz Boru kəməri Avropa Birliyinin təbii qaz kəmərləri şəbəkəsinə qovuşacaqdır.

Transadriatik Qaz kəməri layihəsi– İtaliya, Yunanıstan və Albaniya hökumətləri arasında əldə edilmiş razılığa əsasn 2013-cü il fevral ayının 13-də imzalanmışdır. Bu beynəlxalq qaz boru kəmərinin vasitəsi ilə Azərbaycan qazının Türkiyə ərazisindən keçməklə Qərbi Avropaya nəqli təmin olunacaqdır[10]. İlk vaxtlarda, TAP vasitəsi ilə il ərzində nəql olunacaq qazın ümumi həcm 10 mlrd. m3, sonralar isə tədricən ildə 20 mlrd. m3 səviyyəsinə çatdırılacaqdır. Qərbi Avropaya Azərbaycan qazının 2020-ci ilin əvvəllərində çatdırılması nəzərdə tutlmuşdur. TAP-ın ümumi uzunluğu 806 kilometrdir. Bunun Yunanıstan ərazisindəki hissəsi 478 kilometrdir, 105 kilometr hissə Adriatik dənizinin dibindən keçir, 8 kilometr hissəsi İtaliya ərazisinə düşür, yerdə qalan 215 kilometr isə Albaniyadan keçir.

Beləliklə, müstəqillik illərində neft strategiyasının reallaşdırılması, təbii qaz və nəqliyyat sektorları üzrə layihələrin həyata keçirilməsi, neftqaz resurslarının dünya bazarlarına nəqli ilə bağlı layihələrin maliyyələşdirilməsi və digər mühüm tədbirlərin görülməsi üçün Azərbaycan iqtisadiyyatına 200 mlrd. dollara yaxın investisiyalar yatırılmışdır. Neft Azərbaycan iqtisadiyyatının inkişaf səviyyəsinin əsas ana xətti və istiqaməti kimi qalmaqdadır[11]. Müasir dövrdə Azərbaycan dünyada etibarlı tərəfdaş kimi tanınmışdır. Xüsusilə, Azərbaycan Avropanın enerji təhlükəsizliyi üzrə əsas partnyorlarından birinə çevrilmişdir. Belə ki, 14 sentyabr 2017-ci ildə Azəri-Çıraq-Günəşli neft yatağının işlənilməsi üzrə müqavilə 2050-ci ilə qədər uzadılmışdır. Bununla əlaqədər olaraq, Heydər Əliyev məktəbinin və tarixi irsinin layiqli davamçısı, dünayda yüksək nüfuz qazanan, inkişaf etmiş ölkələrinin liderləri, Beynəlxalq Təşkilatların rəhbərləri tərəfindən böyük hörmətlə qəbul edilən ölkə Prezidenti İlham Əliyev qeyd etmişdir ki, yeni imzalanacaq kontrakt Azərbaycan üçün daha da əlverişlidir, baxmayaraq ki, 1994-cü ildə imzalanmış kontrakt da bizim maraqlarımızı tam təmin edirdi. Bu dəfə isə daha yaxşı şərtlərlə kontrakt imzalanır[12]. Azəri-Çıraq-Günəşlidən 23 il ərzində 436 mln. ton neft hasil olunmuşdur və bu yataqda hasil edilməmiş 500 mln. ton neft ehtiyatı vardır. Ümumilikdə isə Azəri-Çıraq-Günəşli yatağının 1 mlrd. ton neft ehtiyatı mövcuddur. Yeni imzalanan kontraktda gözlənilən neft hasilatının həcmi 1994-cü ildə imzalanmış Əsrin Müqaviləsindən əhəmiyyətli səviyyədə çoxdur. Bu onu göstərir ki, Heydər Əliyev dühası və siyasəti ölməzdir, əbədidir, həmişəyaşardır. Ulu Öndərin dühası bu gün də Azərbaycan xalqının tərəqqi yoluna işıq saçır, Azərbaycan iqtisadiyyatının güclənməsinə xidmət edir. Ölkə Prezidenti İlham Əliyev Heydər Əliyev dühasından bəhrələnərək Azərbaycan xalqının xoşbəxt firavanlığına və rifahı naminə var qüvvəsi ilə çalışır. Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatının şaxələnməsi və sosial rifah sahələrində mühüm nailiyyətlər əldə etmişdir [13]. Hazırda icra prosesləri gedən strateji yol xəritəsinin reallaşdırılması nəticəsində Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyəti xeyli yüksələcəkdir, milli iqtisadiyyatın strukturu genişlənəcəkdir [14]. Neftdən əldə olunan gəlirlərin bir hissəsi Azərbaycan iqtisadiyyatının əlavə dəyər yaradan sahələrinin inkişafına yönəldiləcəkdir. Bununla da Azərbaycan iqtisadiyyatı antiböhran şəraitində daha güclü immunitetə və dayanıqlılığa malik olacaqdır [15;16;17]. Yaxın perspektvdə neft və təbii qaz hasilatının artım dinamikasının təmin edilməsi üçün ölkəmizin hasilat sənayesinə əhəmiyyətli səviyyədə investisiyaların yatırılması həyata keçiriləcəkdir. Bundan əlavə, Xəzər nefti Azərbaycanın dünyanın aparıcı ölkələri ilə iqtisadi və siyasi əlaqələrin qurulmasında mühüm əhəmiyyət daşıyır [18]. Eyni zamanda, əsas strateji hədəflər kimi qeyri-neft sektoru sahələrinin inkişafının qlobal iqtisadi çağırışlar və təhlükələr şəraitində modelləşdirilməsi təmin olunacaqdır. Bütün bu tədbirlər Heydər Əliyev siyasətinin uzunmüddətə hesablanmış strategiyasının tərkib hissəsi kimi çıxış edir. Ölkə Prezidenti İlham Əliyev haqlı olaraq qeyd edir ki, bu gün Azərbaycanda Heydər Əliyev siyasəti yaşayır və yaşayacaq[12].

## ƏDƏBİYYAT


*1. Yusifzadə X. Heydər Əliyev və Azərbaycanda neft sənayesinin inkişafı. http://www.az.trend.az.*

*2. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 21yanvar 2013-cü il.*

*3. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft boru kəməri. http://www.azerbaijan.az.*

*4. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri. http://www.oilfund.az.*

*5. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan neft kəməri: Biblioqrafik göstərici /Burax. haz.: G.Hüseynova, G.Misirova; burax. məsul: K.Tahirov; red.: G.Səfərəliyeva; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası. Diyarşünaslıq elmi biblioqrafiya şöbəsi.- B., 2009. -240 s.*

*6. Cənubi Qafqaz Boru kəməri (Bakı-Tblisi-Ərzurum). Azərbaycan Respublikasının Energetika Nazirliyi. http://www.minenergy.gov.az.*

*7. Bakı-Tblisi-Ərzurum qaz boru kəməri. http://www.socar.az.*

*8. Bakı-Tblisi-Ərzurum qaz ixrac boru kəməri Avropanın enerji təhlükəsizliyi baxımından mühüm əhəmiyyət daşıyır. http://www.azertag.az.*

*9. TANAP. http://www.tanap.com.*

*10. TAP dünyanın iqtisadi əhəmiyyətli 10 layihəsi siyahısına daxil edilmişdir – 2016. http://www.ann.az*

*11. Гасанов А. Нефть стержень Азербайджана. http://www.ru.axar.az.*

*12. "Azəri", "Çıraq" və "Günəşli" yataqları üzrə yeni Sazişin imzalanması mərasimində İlham Əliyevin nitqi. http://az.president.az/articles/25244.*

*13. Ramiz Mehdiyev: "Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan iqtisadiyyatının şaxələnməsi və sosial rifah sahələrində mühüm nailiyyətlər əldə edilib" http://news.milli.az.*

*14. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*15. Şəkərəliyev A., Şəkərəliyev Q. Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, "Turxan", NPB, 2016.-536 s.*

*16. Əliyev Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015.-185 s.*

*17. Əliyev Ş.T. İqtisadi diplomatiya. Bakı, Elm və təhsil, 2012.-196 s.*

*18. Али Гасанов. Современные международные отношения и внешняя политика Азербайджана. (Второе издание, дополненное), Баку, "Zərdabi LDT" MMC, 2013, 1008 стр.*



**Açar sözlər:** *Azərbaycan, Heydər Əliyev dühası, əsrin müqaviləsi, Azəri-Çıraq-Günəşli neft yatağı, neft strategiyasının tarixi əhəmiyyəti, neft milli iqtisadiyyatın lokomotivi kimi, Bakı-Tblisi-Ceyhan, Cənubi Qafqaz Boru kəməri, TANAP, TAP, strateji yol xəritəsi.*

**Ключевые слова:** *Азербайджан, гениальность Гейдара Алиева, контракт века, нефтяные месторождения Азери-Чираг-Гюнешли, историческая важность нефтяной стратегии, нефть – локомотив национальной экономики, Баку-Тблиси-Джейхан, Южно-Кавказский Трубопровод, ТАНАП, ТАП, стратегические дорожные карты.*

**Key words:** *Azerbaijan, the genius of Heydar Aliyev, the contract of the century, the Azeri-Chirag-Gunashli oil fields, the historical importance of the oil strategy, the oil is the locomotive of the national economy, Baku-Tblisi-Ceyhan, the South Caucasus Pipeline, TANAP, TAP, strategic road maps.*


## РЕЗЮМЕ


**Гениальность Гейдара Алиева и Контракт Века**

В статье исследованы Гениальность Гейдара Алиева и Контракт Века, заключенный 20 сентября 1994 года. Анализированы экономические аспекты, историческая важность Контракта Века и его значение в развитии национальной экономики Азербайджана. Раскрыты исторические заслуги и гениальность Гейдара Алиева по подготовке и заключению данного контракта ради благосостояния азербайджанского народа. Рассмотрен мультипликативный эффект Контракта Века по совершенствованию и расширению структуры национальной экономики, модернизации ее отдельных секторов. Анализированы роль Контракта Века по проведению основных экономических реформ в стране и по созданию оптимальной модели экономического развития исходя от глобальных экономических влияний. Систематизирована и раскрыта историческая ценность огромного труда Гейдара Алиева по развитию нефтяной отрасли Азербайджана и в целом экономики страны. Рассмотрены важные аспекты нефтяных и газовых трубопроводов по транспортировке нефти и газа в Турцию и, в дальнейшем, в Европейские страны. Обобщены и изложены процессы успешной реализации нефтегазовых контрактов и укрепления места Азербайджана среди стран мира, повышение его имиджа благодаря титаническим усилиям Президента Азербайджанской Республики Ильхама Алиева в современных условиях.


## SUMMARY


**The genius of Heydar Aliyev and the contract of the century**

The genius of Heydar Aliyev and the contract of the century, concluded on September 20, 1994 are investigated in the article. The economic aspects, the historical importance of the contract of the century and its significance in the development of the national economy of Azerbaijan are analyzed. The historical merit and genius of Heydar Aliyev on the preparation and conclusion of this contract for the welfare of the Azerbaijani people are revealed. The multiplicative effect of the contract of the century on the improvement and expansion of the structure of the national economy, the modernization of its individual sectors is considered. The role of the contract of the century in carrying out major economic reforms in the country and creating an optimal model of economic development based on global economic influences is analyzed. The historical value of Heydar Aliyev's enormous work on the development of the oil industry of Azerbaijan and the country's economy as a whole is systematized and disclosed. The important aspects of oil and gas pipelines for the transportation of oil and gas to Turkey and, subsequently, to European countries are considered. The processes of successful implementation of oil and gas contracts and the strengthening of Azerbaijan's place among the countries of the world are generalized and outlined, and its image due to the titanic efforts of the President of the Republic of Azerbaijan Ilham Aliyev is enhanced in modern conditions.

# Siyasət



XALİD NİYAZOV
Siyasi elmlər üzrə fəlsəfə doktoru

## İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNİN HÜQUQİ ƏSASLARI: KOMPORATİV YANAŞMA



XX əsrin sonu XXI əsrin əvvəli bəşəriyyətin yeni bir cəmiyyətə, yeni sosiofəlsəfi düşüncə müstəvisinə, paradiqmal dəyər və meqaideyaların önə keçdiyi ictimai münasibətlər məkanına qədəm qoyduğu zaman miqyasıdır. Yeni cəmiyyət hər bir halda yeni insan tipi, transformasiyaya açıq dəyərlər sistemi və bir də mütləq çoxvektorlu ictimai münasibətlər şəbəkəsi ilə səciyyələnir.

Müəyyən inkişaf səviyyəsində hüquqi məsuliyyət və hüquqi tənzimləmə alətlərinin yaranmasına ehtiyac ictimai münasibətlərin təbiətindədir. Buna görə də dövlətin informasiya siyasətinin həyata keçirilməsində onun normativ-hüquqi bazasının formalaşdırılması vacib məsələlərdən biridir. Və bu yalnız nəzəri-ideoloji müstəvidə deyil, həmçinin yüksək texnologiyaların nüfuz və əhatə dairəsində aparılmalıdır.

**Meydan müharibəsindən kibermüharibəyə**

2001-ci ildə Avropa Şurası tərəfindən "Kibercinayətkarlıq haqqında" Budapeşt konvensiyası qəbul olunmuşdur. Azərbaycan Respublikası da həmin konvensiyaya qoşulub.

Kibercinayət hər hansı bir informasiya sisteminə icazəsiz və hüquqa zidd şəkildə daxil olunması və sonradan həyata keçirilən əməldir. Bu halda ixtiyari bir insan, ona məxsus əmlak, eyni zamanda istifadə olunan sistemin özü hədəf seçilə bilir. Məsələn, bir sistemə daxil olmaqla zərər vermək, bazanı, informasiya ehtiyatını silmək, şifrələmək, ələ keçirmək, yad informasiya yükləmək, sistemin iş prinsipini dayandırmaq, şəxsi həyatın toxunulmazlığını pozmaq, əlaqəni əngəlləmək, əlaqəni icazəsiz izləmək, qeydə almaq kimi hərəkət və əməllərin törədilməsi kibercinayət faktlarıdır.

Kibercinayətlərdən bəziləri özünü adi cinayət kimi büruzə verir, yəni maddi vəsaitin mənimsənilməsinə yönəlir. Məsələn, kibervasitələrlə başqalarının bank hesablarından pulun çıxarılması və oxşar istiqamətlərdə cinayət əməllərinin törədilməsi buna misaldır. Digər bir qrup da var ki, o, mövcud informasiya ehtiyatlarını sıradan çıxarmağa yönəlib. Məsələn, bəzi gənclər kompyuter sistemləri üzrə ixtisaslaşır və özlərini təsdiq etmək üçün bu və ya digər

informasiya ehtiyatını sıradan çıxarmağa cəhd edir. Yəni informasiya ehtiyatlarında müəyyən boşluqlar axtarır və ondan sonra müxtəlif şəkillər, müxtəlif bəyanatlar qeyd edir və özlərini bu formada təsdiq etməyə cəhd göstərirlər. Bundan əlavə, məqsədyönlü şəkildə informasiya ehtiyatlarının sıradan çıxarılması təcrübəsi də var ki, bu, adətən mürəkkəb münasibətlərdə olan dövlətlər arasında da baş verir[1].

Elmi ədəbiyyatda internetdəki informasiya müharibəsininin kompyuter cinayətkarlığından fərqləndirilməsinin zəruriliyi vurğulanaraq göstərilir ki, istənilən kompyuter cinayəti birbaşa qanunun pozulması faktıdır. Kompyuter cinayəti təsadüfi də ola bilər, qəsdən planlaşdırılmış da, ayrıca törədilə və ya geniş hücum planının tərkib hissəsi də ola bilər. İnformasiya müharibələri isə heç vaxt təsadüf üzündən, yaxud birtərəfli şəkildə baş vermir (və əksər hallarda qanunu pozmur), istər əsil müharibə meydanında, istərsə də iqtisadiyyatda, yaxud siyasətdə döyüş əməliyyatları aparmaq üçün informasiyadan razılaşdırılmış şəkildə silah kimi istifadəni nəzərdə tutur. İnformasiya mübarizəsi sırf internet vasitələrilə nadir hallarda aparılır. Bir qayda olaraq, bu mübarizədə şüurlara və mənəviyyata təsir vasitələrinin bütöv bir spektri işə salınır [2, 98].

Kompyuter cinayətkarlığı ilə mübarizəni çətinləşdirən amillərdən biri bu sahədə normativ bazanın kifayət qədər mükəmməl olmamasıdır. Bu problem əksər dünya ölkələrində mövcuddur. Respublikamızda hələ də bu sahədə çox mühüm normativ akt olan “EHM və məlumat bazaları üçün yaradılmış proqramların hüquqi mühafizəsi haqqında” qanun qəbul edilməmişdir. Bu sahədəki münasibətlər “İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” 19 iyun 1998-ci il, “Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” 5 iyun 1996-cı il, “Dövlət sirri haqqında” 15 noyabr 1996-cı il qanunları (bir sıra digər qanunlar da dolayı yurisdiksiyaya malikdir), habelə CM-nin 271, 272 və 273-cü maddələri ilə tənzimlənir [3,15]. Göründüyü kimi, EHM-lərin fəaliyyətini nizamlayan birbaşa qanun yoxdur.

“İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində isə informasiyanın mühafizəsinin aşağıdakı məqsədləri müəyyən olunmuşdur:

- informasiyanın məhvinin, itməsinin, saxtalaşdırılmasının qarşısının alınması;
- dövlətin, ictimaiyyətin, vətəndaşların təhlükəsizliyinin təmin edilməsi;
- informasiyanın məhvi, modifikasiyası, surətinin çıxarılması, təcrid edilməsi ilə bağlı sanksiyalaşdırılmamış hərəkətlərin qarşısının alınması;
- dövlət sirri təşkil edən və konfidensial informasiyanın qorunması;
- informasiya proseslərində və informasiya sistemlərinin, texnologiyalarının və onların təminat vasitələrinin işlənməsi, istehsalı, tətbiqi zamanı fiziki və hüquqi şəxslərin hüquqlarının təmin olunması [4].

Göründüyü kimi, burada dövlət sirri təşkil edən informasiyanın qorunması məqsədi xüsusi olaraq göstərilmişdir. “Dövlət sirri haqqında” Azərbaycan Respublikası Qanununda dövlət sirri dövlətin hərbi, xarici-siyasi, iqtisadi, kəşfiyyat, əks-kəşfiyyat və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı olub, dövlət tərəfindən mühafizə edilən və yayılması Azərbaycan Respublikasının təhlükəsizliyinə ziyan vura bilən məlumatlar kimi müəyyən edilir. Bu Qanunun müddəaları Azərbaycan Respublikasının ərazisində və onun hüdudlarından kənarda Azərbaycan Respublikasının dövlət hakimiyyəti və yerli özünüidarə orqanları, təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatları, dövlət sirri haqqında Azərbaycan Respublikası qanunvericiliyinin tələblərini yerinə yetirmək öhdəliyi götürmüş və ya statusuna görə buna borclu olan Azərbaycan Respublikasının vəzifəli şəxsləri və vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər tərəfindən hökmən icra edilməlidir [5].

**Beynəlxalq təcrübə və milli hüquq məkanı**

Dünya ölkələrinin təcrübəsində də informasiyanın müdafiəsi haqqında ilk qanunlar dövlət sirrinin müdafiəsi haqqında qanunlar olmuşdur. Dövlət sirrinin müstəsna əhəmiyyəti və onun müdafiəsi zərurəti nəzərə alınaraq bütün inkişaf etmiş dövlətlərdə xüsusi ictimai təhlükəli əməllər kimi casusluq və dövlətə xəyanət ən ağır cinayətlər sırasına aid edilmişdir.

ABŞ-ın “İnformasiya təhlükəsizliyinin idarə edilməsi haqqında” 2002-ci il tarixli Qanununda informasiya təhlükəsizliyi aşağıdakı kimi xarakterizə edilir:

- informasiyanın və informasiya sistemlərinin icazəsiz girişdən, istifadədən, açıqlamandan, yayılmadan, dəyişdirilmədən və ya məhv edilmədən müdafiəsi;
- həqiqiliyinin təminatları da daxil olmaqla, informasiyanın tamlığının qanunsuz dəyişdirilmədən və ya məhv edilmədən qorunmasının təmin edilməsi;
- şəxsi həyat və mülkiyyət haqqında məlumatların gizliliyi də daxil olmaqla, tanış olma və yayılma imkanları məhdudlaşdırılmış informasiyanın konfidensiallığının təmin olunması;
- informasiya ilə tez və etibarlı şəkildə tanış olma imkanını ifadə edən əlçatanlıq.

İnformasiya təhlükəsizliyinin hüquqi cəhətdən təmin olunması sahəsində vacib məsələlərdən biri kimi şəxsi məlumatların müdafiəsi çıxış edir.Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin 12-ci maddəsinə görə, heç kim şəxsi və ailə həyatına müdaxiləyə, evinin toxunulmazlığına, məktublaşmasının gizliliyinə, şərəf və nüfuzuna özbaşına qəsdə məruz qala bilməz. Hər bir şəxsin belə müdaxilə və qəsddən qanun tərəfindən müdafiə olunmaq hüququ var [6].

ABŞ-ın “Telekommunikasiya haqqında” (1984), “Polis haqqında” (1997), “Təqibdən müdafiə haqqında” (1997) və bir sıra digər qanunlarında da şəxsi həyatın toxunulmazlığı ilə bağlı müddəalar öz əksini tapmışdır.

Fransa, İtaliya, İspaniya, Portuqaliya, Danimarka, Hollandiya və s. ölkələrdə hər kəsin hakimiyyət orqanlarının fəaliyyəti ilə bağlı informasiya ilə, ABŞ, Kanada, Avstraliya və Yeni Zelandiyada isə vətəndaşların birbaşa idarəetmə məlumatları ilə tanış olma imkanını təmin edən qanunlar qəbul edilmişdir. İspaniya, Portuqaliya, Rumıniya, Hollandiya, Avstriya, Macarıstan, Estoniya, Belçika kimi Avropa ölkələrində vətəndaşların rəsmi informasiya ilə tanış olmaq hüququ konstitusion səviyyədə, Fransa, Yunanıstan və İtaliyada isə qanunla təsbit olunmuşdur. İsveç və Finlandiyada bu tendensiyanın əksinə olaraq rəsmi informasiya ilə tanış olmaq hüququ məhdudlaşdırılmışdır. Bolqarıstanın “Məxfi informasiyalar haqqında” 2002-ci il tarixli Qanunu istənilən məmura istənilən sənədə məxfilik qrifi tətbiq etmək imkanı verməklə geniş ictimaiyyətin informasiya ilə tanış olmaq hüququnu məhdudlaşdırır [7, 45-48].

Müasir dövrdə planetin vahid informasiya resurslarının formalaşması prosesi gedir. Yer kürəsinin bütün əhalisinin



informasiyanı mənimsəməsi üçün zəmin yaranır [8, 5]. Qlobal informasiya cəmiyyəti formalaşır. Qlobal informasiya cəmiyyətinin qurulması isə qlobal informasiya təhlükəsizliyinin aktuallığını daha da artırır.

Cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması üçün zəruri olan tədbirlər kimi beynəlxalq hüquqi mexanizmlərin ciddi araşdırılması, milli normativ-hüquqi bazanın formalaşdırılması, təhlükəsizlik siyasətinin işlənilməsi və reallaşdırılması, xüsusi texnologiyaların tətbiqi, ölkə və korporativ səviyyədə informasiya təhlükəsizliyinin monitorinqi və menecmentinin aparılması, kadr hazırlığı,

əhalinin maarifləndirilməsi və vətəndaşlarda informasiya mədəniyyətinin tərkib hissəsi kimi informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması məsələləri aktuallıq kəsb edir. Ümumiyyətlə, informasiya təhlükəsizliyinin təmin olunması istiqamətində zəruri tədbirlərin həyata keçirilməsi üçün beynəlxalq hüquqi mexanizmlərin, milli normativ-hüquqi bazanın formalaşdırılması mühüm əhəmiyyət daşıyır və bu məsələ ayrı-ayrı ölkələr kontekstində deyil, beynəlxalq qlobal informasiya təhlükəsizliyi kontekstində nəzərdən keçirilməlidir[9, 3-9].

Informasiya məkanında həyata keçirilən fəaliyyət növlərindən bəziləri dövlətlərin informasiya təhlükəsizliyinə ciddi surətdə mənfi təsir göstərə bilər. Ona görə də bu sahə həssas olmaqla, yüksək diqqət, dəqiqIilk və əməkdaşlıq tələb edir. İnformasiya-kommunikasiya sahəsini də əhatə edən qloballaşma dövründə dövlətlər arasında əlaqələrin informasiya texnologiyalarına əsaslanan infrastrukturlardan asılılığı daha çox artır. Yalnız ikitərəfli, regional və beynəlxalq səviyyədə əlaqələndirilmiş və bir-birini qarşılıqlı tamamlayan tədbirlər informasiya sahəsində müasir təhdidlərə adekvat reaksiya göstərməyə imkan verir [10, 104-106]. Lakin informasiya sahəsində beynəlxalq əməkdaşlıq sülh və təhlükəsizliyin təmin olunması, dövlətlərin suverenliyinə, daxili işlərinə müdaxilənin yolverilməzliyi və insan və vətəndaş hüquq və azadlıqlarına hörmət kimi prinsiplər əsas götürülməklə həyata keçirilməlidir. Bu əməkdaşlığın həyata keçirilməsində birgə informasiya sistemlərinin və vahid informasiya banklarının yaradılması, habelə operativ, statistik, elmi-metodiki və digər informasiyaların mübadiləsi barədə müddəaları özündə əks etdirən sazişlər xüsusi rol oynayırlar.

BMT BA-nın 23 dekabr 1999-cu il tarixli Qətnaməsində (A/RES/54/49) göstərilir ki, müasir informasiya texnologiyalarının və vasitələrinin yayılması və istifadəsi beynəlxalq sülh və təhlükəsizliyin təmin edilməsi vəzifələrinə zidd ola bilməz. BMT BA-nın beynəlxalq informasiya təhlükəsizliyi barədə 56/19 №-li qətnaməsində göstərilir ki, İKT beynəlxalq stabillik və təhlükəsizliyin təmin edilməsi vəzifələri ilə bir araya sığmayan məqsədlərlə istifadə oluna, habelə ayrı-ayrı dövlətlərin həm mülki, həm də hərbi sahədə təhlükəsizliyini pozmamaqla, onların infrastrukturlarının bütövlüyünə mənfi təsir göstərə bilməz. Həmçinin, qeyd edilən qətnamədə cinayət və ya terror məqsədilə informasiya resurslarından və ya texnologiyalarından istifadə edilməsinin qarşısının alınmasının zəruriliyi vurğulanırdı.

7-9 noyabr 2002-ci il tarixində informasiya məsələləri ilə bağlı Buxarestdə keçirilmiş Ümumavropa konfransında qəbul olunan yekun sənəddə öz əksini tapan prinsiplərdən birini İKT-dən istifadə zamanı etimad və təhlükəsizliyin möhkəmləndirilməsi prinsipi təşkil edirdi. Həmin prinsip qlobal kibertəhlükəsizlik mədəniyyətinin formalaşdırılmasını nəzərdə tutur.

15 iyun 2006-cı il tarixdə keçirilən Şanxay Əməkdaşlıq Təşkilatı (ŞƏT) Şurasının iclasında təşkilata daxil olan dövlət başçılarının beynəlxalq informasiya təhlükəsizliyi barədə qəbul etdikləri bəyanatda İKT-dən hüquq bərabərliyi və qarşılıqlı hörmət, dövlətlərin daxili işlərinə qarışmama, münaqişələrin dinc yolla həll edilməsi və güc tətbiq etməmək prinsipləri pozulmaqla

insanın, cəmiyyətin və dövlətin təhlükəsizliyi maraqları əleyhinə istifadə edilməsi üçün real təhlükənin mövcudluğu etiraf edilirdi. Göstərilən təşkilat çərçivəsində 16 iyun 2009-cu il tarixdə qəbul edilən "Beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında" Sazişin 2-ci maddəsində beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əsas təhdidlər göstərilmişdir.

Azərbaycan Respublikası informasiya təhlükəsizliyi sahəsində MDB dövlətləri ilə sıx beynəlxalq əməkdaşlıq tədbirlərini həyata keçirir. Bu əməkdaşlığın normativ hüquqi əsasları kimi aşağıdakıları qeyd etmək olar:

1) 2004-cü il fevralın 6-da Moskva şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" Saziş;

2) 2004-cü il martın 4-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Gürcüstan Hökuməti arasında informasiya sahəsində əməkdaşlıq haqqında" Saziş;

3) 2005-ci il aprelin 21-də Kişinyov şəhərində imzalanmış "Azərbaycan Respublikasının Hökuməti və Moldova Respublikasının Hökuməti arasında informatizasiya və informasiya texnologiyaları sahəsində əməkdaşlıq haqqında" Saziş;

4) 2006-cı il iyunun 24-də Astana şəhərində imzalanmış Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Qırğız Respublikası, Rusiya Federasiyası, Tacikistan Respublikası, Türkmənistan və Özbəkistan Respublikası arasında "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qeyri-qanuni dövriyyəsi ilə mübarizə üzrə Mərkəzi Asiya Regional İnformasiya və Əlaqələndirmə Mərkəzinin yaradılması haqqında" Saziş;

5) 1 oktyabr 2007-ci il tarixli (№ 402-IIIQ) Azərbaycan Respublikası Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Hökuməti və Belarus Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi haqqında" Saziş;

6) 2008-ci il sentyabrın 11-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında məxfi informasiyanın qarşılıqlı mühafizəsi-haqqında" Saziş və s.

### İnfotəhdid və hüquqi tənzimləmə məsələləri

Ölkənin firavanlığı və dünya sivilizasiyasında layiqli yeri informasiya texnologiyaları sahəsində siyasətin praqmatikliyindən, konstruktivliyindən və çevikliyindən asılıdır. İnformasiya məkanın qloballaşması və kütləvi kommunikasiya vasitələri şəbəkəsinin təsiri altında cəmiyyətdə baş verən dəyişikliklər təkcə müəyyən üstünlüklər və mənfəətlərlə məhdudlaşmayıb, həm də sosial-siyasi sahədə informasiya mübarizəsi aparmaq üçün geniş imkanlar açır ki, bu da öz növbəsində milli və beynəlxalq təhlükəsizliyə təhdid doğurur. Bu vəziyyət milli təhlükəsizlik və ilk növbədə, informasiya təhlükəsizliyi kimi mühüm sahənin problemlərinə ənənəvi yanaşmaların ciddi transformasiyasına gətirib çıxarmışdır. Formalaşmaqda olan yeni informasiya-kommunikasiya mühiti istənilən ölkənin siyasi, iqtisadi və müdafiə təhlükəsizliyinə fəal təsir göstərir [11, 8-9].

Son illər kompyuter texnologiyalarının inkişafı ilə bağlı insanların düşüncələrinə, siyasi əqidəsinə, dövlət və cəmiyyət həyatında baş verən hadisə və proseslərə dair baxışlarına təsir göstərən, süni şəkildə müəyyən dairələrin maraqlarına uyğun rəy formalaşdıran vasitələr artmışdır. Məsələn, sosial şəbəkələr vasitəsilə insanlar dövlət çevrilişlərinə, inqilablara çağırılır və s. Bu isə şəxsiyyət-cəmiyyət-dövlət sisteminin bütün ünsürlərinə mənfi təsir göstərməklə, şəxsiyyətin hüquq və azadlıqlarını, cəmiyyətin sabitliyini, dövlətin isə suverenliyini böyük təhdid altında qoymuş olur.

Hər bir dövlətdə informasiya təhlükəsizliyi siyasətinin əsas təyinatı cəmiyyətin maneəsiz, sabit və azad inkişafıdır. Bu isə milli maraqların reallaşması üçün müvafiq əlverişli şəraitin olmasını nəzərdə tutur və informasiya təhlükəsizliyi bütün mümkün vasitələrlə milli maraqların daha səmərəli şəkildə reallaşdırılmasına xidmət edir. Burada informasiya təhlükəsizliyi siyasətini həyata keçirən dövlət orqanlarının operativ və effektli fəaliyyəti mühüm rol oynayır.

Milli maraqlar, onlara təhdidlər və milli təhlükəsizliyin bütün sahələrində həmin təhdidlərdən müdafiənin təmin olunması informasiya və informasiya sahəsi vasitəsilə həyata keçirilir. Müəlliflərdən İ.L.Baçilo bu məsələ ilə bağlı olaraq qeyd edir ki, informasiya sahəsində milli maraqlara nail olunması və onların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı münasibətlərin tənzimlənməsi üçün müxtəlif hüquq sahələrinin metod və vasitələrindən, o cümlədən intensiv şəkildə inkişaf edən yeni hüquq sahəsi olan informasiya hüququnun metod və vasitələrindən istifadə olunur [12, 21].

İnsan və onun hüquqları, informasiya və informasiya sistemləri və onlara olan hüquqlar yalnız informasiya təhlükəsizliyinin əsas obyekti deyil, həm də bütün sahələrdə bütün təhlükəsizlik obyektlərinin əsas elementləri kimi çıxış edir.

Azərbaycanın qanunvericilik və normativ-hüquqi aktlarına müvafiq olaraq, milli təhlükəsizlik insanların, cəmiyyətin və dövlətin həyati əhəmiyyətli mühüm maraqlarının, həmçinin milli dəyərlərin və həyat tərzinin daxili və xarici təhdidlərdən etibarlı müdafiəsidir. Milli təhlükəsizlik sistemi ilə milli təhlükəsizliyin təmin olunması sistemi öz məzmununa görə bir-birindən fərqlənir. Birincisi, maraq və təhdidlərin qarşılıqlı təsiri prosesini əks etdirən funksional-nəzəri (konseptual) sistemdirsə, ikincisi, milli təhlükəsizliyin təmin olunmasının praktiki məsələlərini həll etməyi nəzərdə tutan orqanlar, vasitələr, müxtəlif təşkilatlar (institusional) sistemidir [13, 93].

Milli təhlükəsizliyin bütün tərkib elementləri çərçivəsində, yəni, siyasi, iqtisadi, hərbi, ekoloji və s. sahələrdə informasiya faktorunun rolu getdikcə daha çox artır. Müasir inkişaf meylləri və tendensiyaları onu deməyə əsas verir ki, informasiya təhlükəsizliyinin milli təhlükəsizliyin təmin edilməsi sistemində yeri və rolu gələcəkdə daha da artacaqdır. Hüquq ədəbiyyatında bu yanaşma konkret arqumentlərlə əsaslandırılır.

İnternetin hüquqi tənzimlənməsi məsələsi də informasiya təhlükəsizliyi ilə bağlı müasir dövrün aktual məsələlərindən birinə çevrilmişdir.

Hazırda bütün dünya üzrə insan fəaliyyətinin ən zəif hüquqi tənzimetməyə məruz qalan sahələrindən biri İnternetdir. Müasir dövrdə dünyanın heç bir ölkəsində İnternet şəbəkəsi ilə bağlı yaranan hüquq münasibətlərini tənzim edən məcəllələşdirilmiş qanunvericilik yoxdur. Bu sahədə mövcud olan normativ hüquqi aktlar Şəbəkənin fəaliyyətinin ayrı-ayrı aspektlərini tənzim edir. Onlara ilk növbədə şəbəkəyə təchizatçılar vasitəsilə qoşulma, müvafiq əlaqə xətləri və ayrıca xidmətlər təqdim edilməsi məsələləri aiddir [14, 16-19].

Mülki fövqəladə planlaşdırma sahəsində NATO-ya üzv və tərəfdaş dövlətlər arasındakı əməkdaşlığa yerli, regional və milli hökumətlərin müxtəlif səviyyələrdə mülki və hərbi personalını bir araya gətirən seminar və təlim kursları daxildir. NATO üzv dövlətləri gözlənilməz və çox istiqamətli, eləcə də geniş miqyaslı və çeşidli hərbi və qeyri-hərbi təhdidlərin hədəfi olaraq qalmaqdadır. Nüvə, bioloji və kimyəvi silahların yayılması və onların daşınma vasitələri hələ də ciddi problem olaraq qalır. NATO etiraf edir ki, həyata keçirilən bütün əks tədbirlərə baxmayaraq, qeyd olunan silahların yayılmasının və nəticə etibarilə müttəfiq dövlətlərin əhalisini, ərazisini və hərbi gücünü təhlükə altına alınmasının qarşısının alınması mümkünsüzdür. NATO-nun həm adi, həm də nüvə silahlarının yayılmaması rejimlərinə verdiyi dəstək onun həyata keçirdiyi təhlükəsizlik siyasətinin ayrılmaz hissəsidir. Üzv dövlətlər kütləvi qırğın silahlarının yayılması və onların daşınmasına qarşı iki istiqamətli - siyasi və müdafiə xarakterli yanaşma qəbul etmişdir. Lakin buna baxmayaraq kütləvi qırğın silahlarının yayılmaması rejiminin beynəlxalq səviyyədə gücləndirilməsində müəyyən nailiyyətlərin əldə edilməsinə baxmayaraq başlıca təhlükələr hələ də qalmaqdadır. Terror təhlükəsinin artması bu işdə beynəlxalq səviyyədə birgə əks tədbirlərin görülməsinin vacibliyini daha da artırır. NATO-nun nüvə silahına müraciət etmək ehtimalı reallıqdan uzaq görünür və təhlükəsizlik strategiyası çərçivəsində nüvə silahının rolu xeyli azalmışdır. Nüvə silahına malik olan üzv ölkələrdən ABŞ, Fransa və Birləşmiş Krallıq da həmçinin öz nüvə qüvvələrini böyük miqdarda ixtisar edib. Tədqiqatlar nəticəsində məlum olur ki, nüvə müharibəsi başlayacağı təqdirdə yer üzündə iki milyard insan aclıqdan əziyyət çəkəcək. Çünki günəşdə qara tüstü yanacaq və o stratosferdə illərlə qalacaq. Bu da öz növbəsində günəş şüalarının yer səthinə çatmasına mane olacaq. Nəticədə qlobal fəlakət baş verəcək (9, 10). Qeyd etmək lazımdır ki, hazırda dünyada 9 ölkə üzrə 17 000-dən çox nüvə silahı mövcuddur. Bu ölkələr Amerika Birləşmiş Ştatları, Rusiya, Böyük Britaniya, Fransa, Çin, İsrail, Hindistan, Pakistan və Şimali Koreyadır. Lakin nüvə silahının 90%-dən çoxunu ABŞ və Rusiya arsenalları təşkil edir (12).



Mülki Fövqəladə Planlaşdırma Komitəsi (Civil Emergency Planning Committee – CEPC) mülki əhalinin müdafiəsi və NATO-nun məqsədlərinə dəstək üçün insan resurslarından istifadə funksiyasını daşıyan NATO-nun ən yüksək məsləhət orqanıdır. O, terrora hazırlıq və nəticələrinin idarə olunması, humanitar və fövqəladə hallara cavab, kritik infrastrukturun qorunması sahəsində NATO-nu əsas mülki təcrübə və imkanları ilə təmin edir. Həmçinin, hərbi əməliyyatlar üçün mülki dəstəyin təmin edilməsi və fövqəladə hallar zamanı mülki əhalinin qorunmasını təmin etmək üçün milli qurumlara dəstək göstərir. Amerika Birləşmiş Ştatlarına qarşı törədilən məlum 11 sentyabr terror hücumundan sonra NATO-nun mülki müdafiə sahəsində səylərinin böyük hissəsi öz əhalisini kimyəvi, bioloji və nüvə zəhərləyici maddələrinin təsirindən qorumaq istəyində olan üzv və tərəfdaş dövlətlərə yardım məsələlərinə istiqamətləndi (7).

22 yanvar 1993-cü ildə Fövqəladə hallar və təbii fəlakətlər Beynəlxalq Şurası təsis edilmişdir. İndiyə qədər Beynəlxalq Şura tərəfindən 20 iclas keçirilmişdir və 400-ə yaxın məsələ müzakirəyə çıxarılmışdır. 28 sentyabr 2001-ci ildə MDB çərçivəsində təsis edilən növbəti qurumlardan biri də Sənayedə Təhlükəsizlik Üzrə Beynəlxalq Şura olmuşdur (6).

Şərq proqramı çərçivəsində Elektron Regional Risk Atlası yaradılmışdır ki, bu da öz növbəsində kritik infrastrukturun, o cümlədən təhlükələrin, baş verə biləcək fəlakət riskinin xəritələrini görüntüləmək, fəlakətlərin potensial təsirini qiymətləndirməyə kömək etmək üçün nəzərdə tutulmuşduк (8). Bununla yanaşı risklərin qiymətləndirilməsi metodologiyası hazırlanmışdır. Metodologiyanın əsas məqsədi tərəfdaş ölkələrdə risklərin sistemli müəyyən edilməsini, təhlilini, qiymətləndirilməsini və azaldılmasını nəzərdə tutan risklərin idarəolunması prosesinə yardım etmək və fövqəladə hallara cavab tədbirlərindən qarşısını alma və hazırlıq tədbirlərinə keçidi təmin etməkdir. Risklərin idarəolunması fəaliyyətində ümumi yanaşmanın və anlaşmanın təmin olunması məqsədilə risklərin qiymətləndirilməsi sahəsində terminalogiya hazırlanmışdır. Şərq proqramının xəbərdarlığın artırılması fəaliyyəti çərçivəsində fövqəladə hallarda davranış qaydaları üzrə ailələr üçün təlimat kitabı, məktəblilər üçün posterlər, maarifləndirici video roliklər hazırlanmışdır. Şərq proqramı çərçivəsində mülki müdafiə, təbii risklərin modelləşdirilməsi, coğrafi-informasiya sistemləri sahələrində təlimlər, stolüstü təlimlər, xəbərdarlığın artırılması, risklərin qiymətləndirilməsi, fəlakət riskinin azaldılması, sənaye qəzaları, SEVESO*direktivləri, mülki müdafiə qanunvericiliyinin təhlili mövzularında seminarlar keçirilmiş və erkən xəbərdarlıq sistemləri və ictimaiyyətin məlumatlandırılması sahələrində təcrübə mübadiləsi məqsədilə elmi səfərlər təşkil olunmuşdur. Şərq poqramı çərçivəsində fəaliyyətin tərəfdaşlar arasında qarşılıqlı müzakirələr və məsləhətləşmələr əsasında həyata keçirilməsi məqsədilə tərəfdaş ölkələrdə Milli Məsləhət











Qrupları yaradılmışdır (2).

Qeyd etmək lazımdır ki, Asiya qitəsi dünyanın təbii fəlakətlərdən və onların ağır nəticələrindən ən çox zərər çəkən bölgəsidir. Qitə ölkələrinin fövqəladə hallar sahəsində əməkdaşlıq məqsədi ilə birləşdikləri təşəbbüslərdən biri Asiya Fəlakətlərin Azaldılması Mərkəzidir (Asian Disaster Reduction Centre – ADRC). Mərkəz üzv ölkələrin fəlakətlərə qarşı dözümlülüyünü artırmaq, təhlükəsiz bir cəmiyyət yaratmaq və davamlı inkişafa nail olmaq məqsədilə 1998-ci ilin iyul ayında Yaponiyanın Kobe şəhərində təsis olunmuşdur. Təşkilatın yaradılmasında məqsəd Asiya ölkələrində fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, fəlakətlərin azaldılması üçün çoxtərəfli əməkdaşlığa dəstək verməkdir (16). Təşkilat fəaliyyətini üzv ölkələrdə fövqəladə hallara və təbii fəlakətlərə qarşı dözümlülüyün gücləndirilməsi, əhalinin fövqəladə hallara hazırlanması, cəmiyyətin davamlı inkişafına nail olmaq istiqamətlərində qurur. Hazırda təşkilatın 30 üzvü vardır (17). 5 ölkə isə təşkilatda müşahidəçi statusuna malikdir.

Beləliklə, görmək olur ki, fövqəladə halların və təbii fəlakətlərin qarşısının alınması və fəsadların aradan qaldırılması ilə bağlı geniş beynəlxalq təşkilatlar şəbəkəsi fəaliyyət göstərir. Onların bir qimsi birbaşa olaraq fövqəladə halların və təbii fəlakətlərin qarşısının alınması və fəsadların aradan qaldırılması məşğul olur, digərlərində isə bu istiqamət ümumi fəaliyyətin bir qismini təşkil edir. Bununla belə mövcud reallıqlar beynəlxalq ixtisaslaşmış təşkilatlar şəbəkəsinin genişləndirilməsi və gücləndirilməsini tələb edir.

## ƏDƏBİYYAT

*1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı,2005., 631 s. s.367.*

*2. Şərq Tərəfdaşlığı Ölkələrində Təbii və Texnogen Fəlakətlərin Qarşısının Alınması, Hazırlıq və Cavab Tədbirləri üzrə Şərq Proqramı – PPRD East 2 EuropeAid/135314/C/SER/MULT, 2 iyun 2015. http://pprdeast2.eu/wp-content/uploads/2015/04/PPRD-NAG-report-AZE.pdf; www.fhn.gov.az*

*3. Лукашук И. И. Нормы международного права в международной нормативной системе / РАН ИГП. М.: Спарк, 1997. 321 с., с.205-206.*

*4. Межправительственные конференции: Международные правовые вопросы. М., Международные отношения, 1980. 125 с., с. 110.*

*5. Оказание гуманитарной помощи. http://www.un.org/ru/sections/what-we-do/deliver-humanitarian-aid/*

*6. Сотрудничество в сфере предупреждения чрезвычайных ситуаций природного и техногенного характера, ликвидации их последствий. http://www.cis.minsk.by/page.php?id=8628*

*7. Civil Emergency Planning Committee (CEPC), http://www.nato.int/cps/en/natohq/topics_50093.htm*

8. Electronic Regional Risk Atlas, http://pprdeast2.eu/en/regionalnyy-yelektronnyy-atlas-risk/
9. Helfand I. An Assessment of the Extent of Projected Global Famine Resulting from Limited, Regional Nuclear War. Paper presented to the Royal Society of Medicine, London, UK, October 2007.; Helfand I., Nuclear Famine: Two billion people at risk? Global Impacts of Limited Nuclear War on Agriculture, Food Supplies, and Human Nutrition.pp. 23, p.4.
10.
11. Declaration. World Conference on Disaster Reduction 18-22 January 2005, Kobe, Hyogo, Japan., http://www.unisdr.org/2005/wcdr/intergover/official-doc/L-docs/Hyogo-declaration-english.pdf
12. Nuclear Weapons, http://www.wagingpeace.org/issues/nuclear-weapons/?gclid=CKTolZqA180CFeYK0wodvjcCxQ
13. Strengthening of the coordination of humanitarian emergency assistance of the United Nations General Assembly. A/RES/46/182,78th plenary meeting, 19 December 1991., http://www.un.org/documents/ga/res/46/a46r182.htm
14. World Conference on Natural Disaster Reduction // United Nations. A/CONF.172/9 27 September 1994; http://www.preventionweb.net/files/10996_N9437604.pdf
15. Yokohama Strategy and Plan of Action for a Safer World: Guidelines to Natural Disaster Prevention, Preparedness and Mitigation., Disaster Risk Reduction Program, Florida International University (DRR/FIU), 1994., http://dpanther.fiu.edu/sobek/contains/?t=%22World+Conference+on+Natural+Disaster+Reduction%22&f=PU
16. http://www.adrc.asia/aboutus/index.php (ADRC-nin rəsmi saytı)
17. http://www.adrc.asia/disaster/ (ADRC-nin rəsmi saytı)

**Keywords:** *terror, emergency, civil defense, refugees, organization.*

**Ключевые слова:** *террор, чрезвычайная ситуация, гражданская оборона, беженцы, организация.*

**Açar sözlər:** *terror, fövqəladə hallar, mülki müdafiə, qaçqınlar, təşkilat.*



**SUMMARY**

**Emergency activities and anti-terror policy of international organizations**

**Akif Marifli**

The article principally investigates the international organizations' activities of emergency situations and their policy against terror which is considered a technogenetic emergency case. It also covers information on vital Yokohama Strategy which governs international activities regarding reduction of natural calamities, international Hyogo Declaration on minimizing natural calamities, the UN relevant bodies, NATO's Euro-Atlantic Disaster Response Coordination Centre, Asian Disaster Reduction Centre of Japan, as well as respective acts and resolutions.

Also, the issues such as a considerable reduction of nuclear forces by member countries having nuclear weapons had been researched and the global importance of such reduction was brought to attention. At the closing, the author made a brief conclusion whilst using local and foreign legislation, as well as informative and literary sources.

**РЕЗЮМЕ**

**Действия в чрезвычайных ситуациях и антитеррористическая политика международных организаций**

**Акиф Марифли**

Статья посвящена главным образом исследованиям деятельности международных организаций в чрезвычайных ситуациях и их политике борьбы с террором, который рассматривается как чрезвычайный случай техногенного характера. В ней также содержится информация о жизненно важной Иокогамской стратегии, которая регулирует международную деятельность в области сокращения стихийных бедствий, о международной Хиогской декларации по минимизации стихийных бедствий, о соответствующих органах ООН, о Евроатлантическом координационном центре НАТО по реагированию на стихийные бедствия, об Азиатском центре по уменьшению опасности стихийных бедствий в Японии, а также о принятых соответствующих актах и резолюций.

Кроме того, были изучены такие вопросы, как значительное сокращение ядерных сил странами-членами, обладающими ядерным оружием, и обращено внимание на глобальную важность такого сокращения. В заключение автор сделал краткий вывод, используя местные и зарубежные законы, а также информативные и литературные источники.

# Təhlükəsizlik

## BEYNƏLXALQ TƏHLÜKƏSİZLİYİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

ŞƏHLA GÜLMƏMMƏDOVA
Azərbaycan Dövlət Pedaqoji Universiteti,
Tədqiqat və inkişaf şöbəsinin müdiri



Beynəlxalq təhlükəsizliyin nəzəri-konseptual əsasları realizm, neorealizm, postklassik realizm, liberalizm, neoliberalizm, postklassik liberalizm, neomarksizm, "idarə olunan xaos", postmodernizm, rasionalizm, qlobalizm nəzəriyyələrində, Yaponiya siyasi məktəbi və "Kopenhagen məktəbi" nümayəndələrinin baxışlarında müxtəlif aspektlərdən və mövqelərdən izah olunur.

Realizm qədim köklərə malik olsa da, bir nəzəriyyə kimi Edvard Karrın, Corc Kennanın, Reynhold Neyburun, Henri Kissincerin, Hans Morqentaunun və başqa müəlliflərin əsərlərində öz əksini tapmışdır. H.Morqentau siyasi realizm nəzəriyyəsinin banisi hesab olunur. Onun "Xalqlar arasında siyasi münasibətlər. Hakimiyyət və sülh uğrunda mübarizə" əsərində (2) siyasi realizmin əsas müddəaları özünə yer almışdır.

M.M.Lebedevanın fikrinə görə "realizm beynəlxalq münasibətləri maksimal dərəcədə dəqiq və "realistik" təsvir etməyi, yəni məqbul sayılan, yaxud gələcəkdə ola biləcəyi deyil, olanı tədqiq etməyi tələb edən, beynəlxalq tədqiqatlarda ən qədim nəzəri yanaşmalardan biridir" (10, s., 27). Ağalar Abbasbəyli və Etibar Nəcəfov realizmi aşağıdakı kimi xarakterizə edirlər: "Realizm təhlükəsizlik və hakimiyyət faktorlarının əhəmiyyətini nəzərə alan ideyalar məcmusudur. Bu ideyalar fərdin belə bir inamına əsaslanır ki, başqaları həmişə onu məhv etməyə çalışırlar. Buna görə də o, özünü qorumaq üçün başqalarını öldürməyə hazır olmalıdır. Realizmin əsasında xalqlar arasında mübarizə durur. Bu mübarizə təsadüfi deyil. O, qanunauyğun xarakter daşıyır" (1, s. 71).

Beynəlxalq münasibətləri dövlətlərin hərəkətlərinə nəzarət edəcək gücün olmadığı anarxiyaya bənzədən realistlər öz konsepsiyalarında "Morqentau üçlüyü"nü - güc (power), qüvvələr balansı (balance of power) və milli maraqlar (national interest) - əsas götürürlər. Realistlərə görə güc toplamaq dövlətin əsas məqsədini təşkil edir. Dövlətin bütün siyasəti, ideologiyası və prinsipləri məhz bu məqsədin legitimləşməsinə xidmət edir, istənilən siyasi akt gücün saxlanılmasına, artırılmasına və nümayişinə hesablanır (3, s. 48). Buradan belə bir nəticə əldə olunur ki, yalnız güclü dövlət anarxiya, xaos mühitində müəyyən qayda-qanun yaratmağa, sülhü, beynəlxalq təhlükəsizliyi qorumağa qadirdir.

Realist konsepsiyaya görə güc və onun toplanması həm də hakimiyyət uğrunda mübarizə ilə şərtləndirilir.

Realistlər qüvvələr balansını beynəlxalq təhlükəsizlik mühiti yaratmaq üçün ən səmərəli vasitələrdən biri kimi nəzərdən keçirirlər. Qüvvələr balansı güc uğrunda mübarizənin, öz imkanlarını genişləndirmək uğrunda mübarizə aparan dövlətlərlə mövcud

“statusu”nun saxlanılmasında maraqlı olan dövlətlər arasındakı rəqabətin nəticəsidir (3, s. 49). O, rəqabət aparan tərəflərin hüquqlarına və maraqlarına qarşılıqlı surətdə hörmət edilməsinə əsaslanır, beynəlxalq sistemdə hər hansı bir qruplaşmanın üstün mövqe tutmasına yol verməməyə hədəflənir.

Milli maraqlar prinsipi realistlərin istinad etdikləri əsas prinsiplərdən biridir. Onlar milli maraqları güc və hakimiyyət ilə eyniləşdirir, beynəlxalq siyasətə iqtisadiyyat, din və etnik münasibətlərdən kənar, nisbətən müstəqil bir sfera kimi baxırlar (4, s. 76).

Nina Antanoviç və Yelena Dostanko siyasi realizm nəzəriyyəsi tərəfdarlarının baxışlarını ümumiləşdirərək qeyd edirlər ki, “...milli maraqlar beynəlxalq münasibətlər sferasında əsas hərəkətverici qüvvə kimi çıxış edirlər, bu sferanın özü isə “suverenitetlər plüralizmi” ilə xarakterizə olunur. Güc və qüvvələr balansı beynəlxalq siyasətin tənzimləyicisi kimi çıxış edir” (4, s. 81). Başqa sözlə, realistlər ona işarə vururlar ki, beynəlxalq münasibətlərdə “kim güclüdür, o da haqlıdır” prinsipi əsas yer tutur, beynəlxalq təhlükəsizlik isə həmin güclülərin iradəsindən asılıdır.

Tədqiqatçılar realizm nəzəriyyəsinin ziddiyyətli məzmuna malik olduğunu qeyd edirlər. O.V. Belova bildirir ki, realizmin əsas ziddiyyəti onun tədqiqat obyekti kimi nəyi əsas götürməsi ilə bağlıdır. Realistlər bir tərəfdən dövləti beynəlxalq münasibətlərin əsas aktoru kimi götürür, digər tərəfdən isə, şəxsiyyət səviyyəsində təhlillər aparır, problemlər araşdırılarkən insan təbiətinin xüsusiyyətlərinə istinad edilir (5, s. 49). Şübhəsiz ki, ağıl, emosional-psixoloji amillər üzərində qurulan insan fəaliyyəti ilə maraqlara və gücə əsaslanan dövlət fəaliyyətini konseptual baxımdan eyniləşdirməklə universal bir nəzəriyyə formalaşdırmaq qeyri-mümkündür. Bu səbəbdən də, beynəlxalq aləmdə cərəyan edən proseslərin, o cümlədən beynəlxalq təhlükəsizliklə bağlı problemlərin izahında realistlər müəyyən çətinliklərlə üzləşirlər.

Klassik realizmin izah etməli olduğu məsələlərə tam aydınlıq gətirə bilməməsi yeni bir istiqamətin, neorealizmin və ya struktur realizmin meydana gəlməsini şərtləndirdi. “Neorealizm” termini elmi dövriyyəyə Riçard Eşli tərəfindən gətirilsə də, bu nəzəriyyənin əsas müddəaları Kennet Uolts tərəfindən əsaslandırılmışdı. Sonuncu “struktur realizm” termininindən istifadəyə üstünlük verirdi (8, s. 51).

Neorealizm prinsip etibarı ilə klassik realizmdən bir o qədər də fərqlənmir, sadəcə əvvəllər də istifadə olunmuş bəzi anlayış və amillər burada yeni məzmun kəsb edir. Məsələn, neorealist konsepsiyada da güc, dövlətin hərbi potensialı təhlükəsizliyin təmin olunmasında əsas yer tutur, lakin bu konsepsiyanın tərəfdarları gücün ümumi sistemdəki yerini və rolunu daha da dəqiqləşdirməyə çalışırlar. Onların baxışlarına görə nəinki kifayət qədər gücün olmaması, hətta artıq, izafi gücün mövcudluğu da dövlət üçün təhlükə yaradır. Neorealistlər “latent güc” anlayışını dövriyyəyə daxil etdilər. Dövlətin latent gücünü onun hərbi potensialının artmasına təsir göstərən, qarşı tərəflə mübarizədə istifadə edə biləcəyi sosial-iqtisadi və demoqrafik faktorlar təşkil edir (3, s. 50). Klassik realizmdə isə bu faktorlar diqqətdən kənarda qalırdı.

K.Uoltsa görə hər bir dövlətin xarici siyasəti onun daxili quruluşu ilə deyil, beynəlxalq sistemin qüvvələri ilə müəyyən edilir. Beynəlxalq sistemin qüvvələri siyasi quruluşu müxtəlif olan ölkələrin xarici siyasətini oxşar edir (1, s. 85).

Neorealistlər beynəlxalq münasibətləri xaos, anarxiya kimi deyil, tərkib hissələrinin qarşılıqlı əlaqədə olduğu, məhdudlaşdırıcı xüsusiyyətlərə malik sistem kimi nəzərdən keçirirlər. K. Uolts qeyd edir ki, “beynəlxalq struktur dövlətlərin qarşılıqlı təsiri nəticəsində meydana gəlir, eyni zamanda onları müəyyən hərəkətlərdən çəkindirir və digər hərəkətlərə stimullaşdırır” (8, s. 63). Neorealistlər sistemə daxil olan dövlətlər arasında əməkdaşlığı mümkün hesab edirlər, bu da beynəlxalq münasibətləri fasiləsiz qarşıdurma kimi xarakterizə edən klassik realizmdən müəyyən qədər uzaqlaşma deməkdir.

K. Uoltsa görə sistemdəki bütün dövlətlər funksional cəhətdən oxşardır. Buna baxmayaraq, onlar funksiyadan daha çox öz təhlükəsizliklərinin qayğısına qalırlar, onların fəaliyyətinin əsas hissəsi məhz buna həsr olunur. Funksional cəhətdən oxşar olan dövlətlər qabiliyyətlərinə görə fərqlənirlər, sonuncu amil dövlətlərin böyük və kiçik dövlətlərə bölünməsini şərtləndirir (1, s. 87). Deməli, beynəlxalq təhlükəsizliyin iri dövlətlərin fəaliyyətindən asılılığı prinsipi neorealistlər tərəfindən də qəbul edilir.

Əgər klassik realizmdə dövlətin əsas məqsədi daha güclü olmaqdırsa, neorealistlərin əsas məqsədi daha çox təhlükəsizliyə nail olmaqdır, yəni həyata keçirilən siyasətin, güc toplamağın son nəticəsi təhlükəsizliyin təmin olunmasına xidmət etməlidir. Başqa sözlə, neorealizmin mərkəzi kateqoriyası güc deyil, təhlükəsizlikdir (3, s. 51).

Gücdən istifadə məsələsinə gəldikdə isə, neorealist konsepsiyada bununla bağlı iki nəzəriyyə formalaşmışdır. Onlardan birincisi, Kennet Uolts tərəfindən irəli sürülmüş “müdafiə realizmi” (defensive realism), ikincisi isə, Con Mirşaymerin irəli sürdüyü “hücum realizmi”dir (offensive realism).

K.Uoltsdan başqa, “dinamik dəyişikliklər” konsepsiyasının təmsilçisi D.Kopelend, “iri dövlətlərin əməkdaşlığı” konsepsiyasının təmsilçiləri R.Cervis və B.Miller, “təhlükələr balansı” konsepsiyasının təmsilçisi S.Uolt və digərləri də “müdafiə realizmi” nəzəriyyəsini müdafiə edirlər.

“Müdafiə realizmi”nin tərəfdarları mövcud sistem daxilində təhlükəsizliyi təmin etmək məqsədilə “status-quo”nu saxlamağın zəruriliyini iddia edirlər (7, s. 34). Onların fikirlərinə görə dövlət öz təhlükəsizliyini təmin etmək üçün hərbi gücünü artırmaqla, son nəticədə bu təhlükəsizliyi zəiflədən hadisələrin baş verməsinə şərait yaradır. Təhlükəsizliklə bağlı bu dilemmanın aradan qaldırılması üçün dövlət mütləq deyil, nisbi güc üstünlüyünə can atmalıdır. Eyni zamanda qeyd olunur ki, daxili siyasi vəziyyət dövlətin xarici siyasətinə əhəmiyyətli təsir göstərir. Dövlət başqalarını hədələmədən müdafiə siyasəti yürütməklə hücum deyil, müdafiə silahları əldə etməklə anarxiyanın neqativ təsirini azalda bilər. Yəni, anarxiya aradan qaldırıla bilən bir hadisədir. Təhlükəsizliyin özü də mütləq deyil, güc üstünlüyü ilə şərtləndirilən nisbi fenomendir, bu da dövlətlər arasında uzunmüddətli əməkdaşlığı mümkün edir (13).

“Hücum realizmi” nəzəriyyəsinin tərəfdarları isə əks mövqedə dururlar. C.Mirşaymer ilə yanaşı, “hegemonluq nəzəriyyəsi”nin banisi R.Gilpin, “gücün keçməsi” konsepsiyasının təmsilçisi C.Kulqar, “maraqlar balansı” konsepsiyasının təmsilçisi R.Şveller, “dövlət-mərkəzçi realizm” konsepsiyasının təmsilçisi F.Zəkəriyyə, “hegomonçu xarici siyasət” konsepsiyasının təmsilçisi U.Uolfort və başqaları da “hücum realizmi” nəzəriyyəsini müdafiə edirlər.

Qeyd olunan müəlliflər hesab edirlər ki, müxtəlif dövlətlərin maraqları üst-üstə düşə bilməz, onlar arasında həmişə münaqişə mövcuddur, çünki hər bir dövlətin əsas məqsədi resurslara çıxış əldə etməkdir. Buna nail olmaq, öz maraqlarını qorumaq üçün dövlət gücdən istifadə edir, güclü dövlətin hegemonluğu isə təhlükəsizliyin təmin olunması üçün şərtdir, çünki heç kim güclü rəqibə qarşı çıxmağa cürət etmir (13). Buradan belə bir nəticə hasil olur ki, yalnız güclü, bir-biri ilə rəqabətdə olan dövlətlərin mövcudluğu beynəlxalq



sistemdə təhlükəsizlik mühitinin yaradılmasını şərtləndirir, maraqların uzlaşdırılmasına əsaslanan dövlətlərarası əməkdaşlıq imkanları isə inkar olunur.

Postklassik realizm nəzəriyyəsində də təhlükəsizlik məsələlərinə kifayət qədər geniş yer verilir. Bu nəzəriyyənin tərəfdarları güc kateqoriyasının məzmununu bir qədər də genişləndirir, hərbi amillə yanaşı, iqtisadi amil də eyni səviyyədə gücün tərkibinə daxil edilir, başqa sözlə, dövlətin iqtisadi imkanları gücü yaradan amil kimi deyil, onun tərkib hissəsi kimi qəbul edilir (5, 54).

Beynəlxalq təhlükəsizlik məsələləri digər bir konsepsiyanın, liberalizmin də əsas müddəalarından birini təşkil edir. Başlanğıcını Fukidid, Makiavelli, Hobbs və başqa mütəfəkkirlərin yaradıcılığından götürən, İ.Kant, C.Lokk, J.J.Russo, A.Smit və başqaları tərəfindən inkişaf etdirilən liberalizm, XX əsrdə daha çox siyasi mahiyyət kəsb etmiş, F.Haek, M.Fridman, F.Fukuyama və başqaları beynəlxalq arenada cərəyan edən proseslərin ümumi izahını verməyə çalışmışlar.

Realistlərdən fərqli olaraq, liberallar müharibə və münaqişələri beynəlxalq münasibətlərin dominant faktorları hesab etmirlər. Onların ümumi baxışlarına görə dünyada inteqrasiya proseslərinin dərinləşməsi, qarşılıqlı asılılığın artması beynəlxalq münasibətlərin aktorları arasında əlaqələrin və əməkdaşlığın genişlənməsinə gətirib çıxarır ki, bu da son nəticədə qlobal təhlükəsizliyin təmin olunması üçün əsas yaradır.

Liberalizmdə beynəlxalq münasibətlərin əsas aktorları kimi təkcə dövlətlər deyil, həm də beynəlxalq xarakterli hökümət və qeyri-hökumət təşkilatları çıxış edir. Dövlətlərin beynəlxalq fəaliyyəti isə müxtəlif qrupların, həmçinin mülki və hərbi sistemlərin maraqlarının uzlaşdırılmasından, kompromislər əldə olunmasından ibarətdir. Ümumilikdə, beynəlxalq münasibətlərin anarxiya xarakterli olmasını tam inkar etməyən liberallar, sistem daxilində iri dövlətlərin mütləq üstünlüyə, gücə sahib olmaları fikri ilə razılaşmırlar və hesab edirlər ki, beynəlxalq təşkilatların yaradılması və onların səlahiyyətlərinin getdikcə genişləndirilməsi, beynəlxalq hüquq normalarının təkmilləşdirilməsi, beynəlxalq münasibətlərin demokratikləşdirilməsi son nəticədə bütün dövlətlərin proseslərdə bərabər iştirakını təmin edir. Dünya birliyinin üzləşdiyi problemlər də ümumi xarakter daşıyır, çünki birliyin üzvlərini həm də ümumi maraqlar birləşdirir. Ümumbəşəri dəyərlərin və universal demokratik prinsiplərin prioritetliliyi, beynəlxalq aktorların çoxluğuna baxmayaraq, şüurlu surətdə tənzimlənən yeni dünya düzümünün formalaşmasına şərait yaradır. Demokratik dövlətlər ictimaiyyətin təsiri və yardımı ilə münaqişələri sülh yolu ilə, hüquqi vasitələrlə tənzimləməyə, kollektiv təhlükəsizlik mühiti yaratmağa qadirdirlər. Liberallara görə bütün bunlar sonda beynəlxalq münasibətlərin təbiətindəki anarxiyanı aradan qaldıra bilər (14, 107-108). Liberalizmin nümayəndəsi M.Doylenin sözləri ilə desək: “Liberal demokratiyalar bir-birilə münasibətdə gücün tətbiq edilməsindən çəkinmək istəyirlər” (11, 47). Şübhəsiz ki, müasir dünyada liberalların əldə rəhbər tutduqları müddəaları əsaslandırmaq üçün kifayət qədər fakt mövcuddur, eyni zamanda, tənzimləyici vasitə kimi onların istinad etdikləri beynəlxalq təşkilatların nüfuzunun azalmasını, beynəlxalq hüquq prinsiplərinin tez-tez pozulmasını, münaqişə ocaqlarının sayının artmasını da nəzərdən qaçırmaq mümkün deyil. Məhz bu məqamlara kifayət qədər diqqət yetirmədikləri, özlərinin düzgün hesab etdiklərini ideallaşdırdıqları üçün opponentləri liberalları idealizmə yuvarlanmaqda günahlandırırlar.

“Soyuq müharibə”dən sonrakı dövrdə F.Fukuyamanın liberalist baxışları xüsusi diqqət cəlb edir. 1990-cı ildə onun “Tarixin sonu” məqaləsi (16) işıq üzü gördü, bu məqalədə irəli sürülmüş fikirlər sonradan müəllifin “Tarixin sonu və sonuncu insan” əsərində (17) inkişaf etdirilmişdi. F.Fukuyama hesab edir ki, kommunist düşərgənin iflasa uğraması həm də dünyada ideoloji qarşıdurmanın sona çatması, liberal dəyərlərin təntənəsi ilə xarakterizə olunur. Onun baxışlarına görə bütün ölkələr sonda liberal demokratiya yolu ilə inkişaf etməyə məhkumdurlar, liberal demokratiyalar isə münaqişələrə deyil, sülhə və əməkdaşlığa üstünlük verirlər. Beləliklə də, beynəlxalq təhlükəsizliyin təmin olunması liberal demokratiyanın qalib gəlməsindən asılıdır. Lakin sonrakı illərdə müəllif öz mövqeyindən bir qədər geri çəkilmiş, demokratiyanın heç də təhlükəsizliyin birmənalı təminatçısı olmadığı qənaətinə gəlmişdi. Özünün “Güclü dövlət: XXI əsrdə idarəetmə və dünya nizamı” əsərində F.Fukuyama qeyd edir: “Demokratik çoxluq başqa ölkələrə münasibətdə qərar qəbul edə və dəhşətli nə isə edə bilər, özlərinin demokratik qaydalarının əsaslandığı insan haqlarını və əxlaq normalarını poza bilər” (15, 191). Müəllif R.Kaqanın fikirlərinə istinadən bildirir ki, “...avropalılar səmimi hesab edirlər ki, tarixin sonunda yaşayırlar – yəni elə bir dünyada ki, o, daha çox qanunların, normaların və beynəlxalq razılaşmaların köməyi ilə idarə olunur... Amerikalılar, əksinə, hesab edirlər ki, tarix heç də sona çatmır, təhlükəni aradan qaldırmaq üçün ənənəvi güc metodlarından istifadə etmək lazımdır... avropalılar yarıya qədər haqlıdırlar: suverenitetin dövlətüstü təşkilatlara güzəştə gedildiyi Avropa İttifaqının daxilində onlar özləri üçün həqiqətən tarixin sonunu yaradıblar. Lakin onlar başa düşmürlər ki, onların Avropa “sabun köpüyündəki” sülh və təhlükəsizlikləri son nəticədə Amerika hərbi qüvvələri tərəfindən təmin olunur” (15, 194-195). Belə yanaşmalar dünyada, o cümlədən Cənubi Qafqazda münaqişələrin, qarşıdurmaların, terrorun tüğyan etdiyi bir dövrdə demokratiya, hüquq, əməkdaşlıq yolu ilə beynəlxalq təhlükəsizliyin təmin edilməsinin mümkünlüyünü təbliğ edən liberalizmin reallıqdan müəyyən qədər uzaq olduğunun etirafı kimi qiymətləndirilə bilər.

Ümumiyyətlə, liberalizmin idealist məzmunu onun tərkib hissələri olan konsepsiyalarda (“utopizm”, “leqalizm” və “moralizm”) da müşahidə olunur. Utopistlər universal hökumətlərarası təşkilat vasitəsilə yeni dünya qaydasının formalaşmasını mümkün hesab edirlər. “Leqizm” konsepsiyasına görə, beynəlxalq təşkilatların sayının və təsirinin artması nəticəsində hüquq normaları təkmilləşir və beynəlxalq münasibətlər hüquqi xarakter alır. “Moralizm”in tərəfdarları siyasətə universal əxlaqi dəyərlər prizmasından yanaşır və hesab edirlər ki, müharibə əleyhinə olan ictimai fikir dövlətlərin davranışına da təsir göstərir (18, 120).

Liberalizmin davamı olan neoliberalizmə gəldikdə isə, bu konsepsiyanın tərəfdarları (R.Koheyn, S.Kuper, C.Nay) da beynəlxalq sistemin aktorları arasında qarşılıqlı asılılıqdan doğan

münasibətləri əsas götürürlər.

İqtisadi qarşılıqlı asılılığa xüsusi fikir verən neoliberalistlər daxili iqtisadi maraqların dövlətin beynəlxalq siyasətini müəyyənləşdirdiyini, qarşılıqlı asılılığın bütün dövlətlər üçün ümumi olan maraqların və onlar arsında əməkdaşlığın yaranmasına səbəb olduğunu iddia edirlər. Dövlətlər öz iqtisadi potensialını artırmaq, itkilərini azaltmaq məqsədilə bir-birilə əlaqə saxlayır və bu da, sonda onların hərbi gücünün və hərbi qüvvələrinin rolunun azalmasına gətirib çıxarır (18, 120).

Beynəlxalq münasibətlərin anarxiya xarakterli olduğunu qəbul edən neoliberalistlər bunun neorealistlər tərəfindən şişirdildiyini iddia edirlər. Onların əsərlərində neoliberal institualizm mühüm yer tutur. Qeyd olunur ki, postbipolyar dünyaya keçid zamanı legitim, uyğun institutlara söykənən qaydanı yaradan inkişaf etmiş dövlətlər ABŞ-ın dünyada hegemon vəziyyətində olmasında elə bir təhlükə görmürlər. Legitim hegemonun olması nisbətən zəif və kiçik dövlətlərin digər güclü dövlətlər tərəfindən sıxışdırılmasının qarşısını alır (12, 25). Son illərdə dünyada baş verən bir sıra proseslər neoliberalistlərin institualizmini şübhə altına alır. Məsələn, ABŞ-ın hegemonluğu Gürcüstanın Abxaziya və Cənubi Osetiya regionlarının Rusiya tərəfindən işğalının və ya Ukraynanın şərqində separatçılara dəstək verən Moskvanın Kiyevə hərbi-siyasi təzyiq göstərməsinin qarşısını ala bilmədi.

M.Zaker, E.Moravçik, D.Messner və başqaları tərəfindən liberalizmdə yeni istiqamət - postklassik liberalizm konsepsiyası irəli sürülmüşdür. Qloballaşmanın təsiri altında milli dövlətlərin zəifləməsi, onların suverenliyinin erroziyaya uğraması, beynəlxalq proseslərə təsirinin getdikcə azalması, əvəzində Beynəlxalq Valyuta Fondu, Beynəlxalq Əmək Təşkilatı kimi təşkilatların rolunun artması, vahid bazarın, ümumi əxlaqi dəyərlərin və universal hüquq normalarının formalaşması, qlobal vətəndaş cəmiyyətinin yaranması və s. faktorlarla bağlı müddəalar bu konsepsiyanın əsasını təşkil edir (18, 121). Yəni, buradan belə bir nəticə hasil olur ki, öz maraqlarını qorumağa və bu zaman digərləri ilə müəyyən qarşıdurmaya getməyə meylli olan dövlətlərin rolunun azalması beynəlxalq təhlükəsizliyin təmin olunmasına müsbət təsir göstərir.

Tarixi inkişafı iqtisadi münasibətlər əsasında izah edən marksizmin böhranı neomarksizmin meydana gəlməsinə səbəb olmuşdu. Neomarksizmin əsasında "dünya kapitalizminin inkişafı nəticəsində "Şimal" və "Cənub"un varlı və kasıb ölkələrinin maraqlarının artmaqda olan ayrılmasına inam durur". Neomarksist paradiqma özündə bir neçə nəzəriyyəni ehtiva edir. Onlardan biri R.Prebiş, F.Kardozo, E. Faletto və başqa müəlliflərin irəli sürdükləri "asılılıq nəzəriyyəsi"dir. Bu nəzəriyyəyə görə iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin firavanlığı digər ölkələrin istismarından, varlı və kasıb ölkələr arasında qeyri-bərabər mübadilədən ibarətdir. Müəllifi İ.Qaltunq olan "struktur qeyri-bərabərliyi" nəzəriyyəsinə görə eyni dövlətlərin beynəlxalq iqtisadi, siyasi, hərbi və s. strukturlarda qeyri-bərabər vəziyyəti beynəlxalq münaqişələrin yaranması üçün şərtait yaradır. "Dünya-sistem" nəzəriyyəsini irəli sürmüş İ.Vallerstayn müasir iqtisadiyyatın inkişafının nəticəsi olaraq, dünya kapitalizminin "mərkəzi" ilə "əyalətləri" arasındakı qeyri-bərabərliyin dərinləşdiyini iddia edir (18, 124). Göründüyü kimi, neomarksistlər klassik marksizmin sinfi mübarizə, ümumdünya inqilabı və s. müddəalarından imtina etsələr də, dünyada baş verən proseslərin, həmçinin təhlükəsizliyin iqtisadi münasibətlərdən aslı olduğunu qəbul edir, bütün problemlərin, münaqişələrin səbəbini iqtisadi imkanların, resurslara çıxışın qeyri-bərabərliyində görürlər.

"Soyuq müharibə"dən sonrakı dövrdə dünyada cərəyan edən proseslərə, o cümlədən təhlükəsizlik məsələlərinə konseptual yanaşmada Yaponiya siyasi məktəbinin nümayəndələri də fərqlənir. X.Sato, T.İnoguti yaxın onilliklərdə qlobal proseslərin inkişafının dörd ssenarisini təklif edirlər: 1) Pax Americana və ya Pax Teutonica; 2) Pax Nipponica; 3) rəqabət aparan regional blokların yaranması; 4) aparıcı dövlətlərin birgə liderliyi, bu zaman primus inter pares (bərabərlər arasında birinci) rolunu ABŞ oynayır.

Yapon siyasətşünasların fikirlərinə görə, Pax Americana ssenarisinin inkişafı çox da real görünmür, çünki münaqişəli bütün proseslərə ABŞ-ın təkbaşına müdaxiləsi sonda müəyyən yorğunluğa və motivasiyanın itirilməsinə gətirə bilər, bu səbəbdən də, ABŞ daha çox partikulyar maraqlarının təmin olunması qayğısına qalacaq. ABŞ-ın iqtisadi imkanları da beynəlxalq təhlükəsizliyi təkbaşına təmin etməyə imkan vermir. Əgər İkinci dünya müharibəsindən sonra dünya üzrə ÜDM-in 40%-dən çoxu ABŞ-in payına düşürdüsə, son illərdə bu 25 %-dən aşağı həddə düşmüşdür. Bundan başqa, ABŞ dünyada ən iri borca malik olan ölkədir (6, 102). Dünyada münaqişə ocaqlarının coğrafiyasının kifayət qədər genişlənməsi, sülhyaratma missiyalarının getdikcə daha çox maliyyə vəsaiti tələb etməsi, son illərdə XX əsrin sonları – XXI əsrin ilk illəri ilə müqayisədə ABŞ-ın münaqişələrə birbaşa müdaxilə intensivliyinin nəzərəçarpacaq dərəcədə azalması yapon müəlliflərin fikirlərinin həqiqətdən uzaq olmadığını göstərir.

Pax Nipponica və ya Pax Teutonika ssenari ABŞ-dan sonrakı cərgədə olan dövlətlərdən hansısa birinin təşəbbüsü ələ keçirməsinə əsaslanır. Müasir reallıqlar fonunda bu ssenari də az inandırıcı görünür, çünki ABŞ istər iqtisadi, istərsə də hərbi baxımdan ən yaxın izləyicilərindən xeyli irəlidədir (6, 102) və onun yaxın onilliklərdə təşəbbüsü asanlıqla əldən verəcəyini yalnız virtual olaraq düşünmək olar.

Sonuncu iki ssenarini yapon müəlliflər bir-biri ilə əlaqədə nəzərdən keçirirlər. Onların baxışlarına görə dünyada qarşılıqlı asılılığın artması iki cür reaksiya doğurur: 1) millətçi tendensiyaların güclənməsi; 2) coğrafi və mədəni cəhətdən yaxın olan ölkələrin qruplaşması. Eyni zamanda qeyd olunur ki, dünya hegemon dövlətlər və ya dövlətlər qrupu olmadan qeyri-müəyyənliyə, xaosa məhkumdur və buna görə də, böyük qrupların daxilində həmişə aparıcı rola can atan dövlətlər və dövlətlər qrupu olacaqdır (9, 103). Həqiqətən də, müasir dünyada regionlaşmanın, regional inteqrasiyanın geniş vüsət aldığını, aparıcı dövlətlərin sülh və sabitliyin əsas amillərindən olan balans yaratmaq potensialına malik olmalarını inkar etmək qeyri-mümkündür, lakin bununla yanaşı, onu da qeyd etmək lazımdır ki, çox vaxt aparıcı dövlətlərin özləri beynəlxalq təhlükəsizliyi risk altına qoyan, yalnız özlərinin dar çərçivədə götürülmüş maraqlarının təmin olunmasına hesablanmış hərəkətlərə planlı, düşünülmüş şəkildə yol verirlər, başqa sözlə, öz fəaliyyətlərini "idarə olunan xaos" nəzəriyyəsindən çıxış edərək qururlar.

"İdarə olunan xaos" nəzəriyyəsi də müasir beynəlxalq münasibətlərdə geniş tətbiq olunur. Bu nəzəriyyənin əsasında İ.Priqojin və İ.Stenqersin tədqiqatları durur. Bu müəlliflər "Xaosdan doğan qayda-qanun. İnsanın təbiətlə yeni dialoqu" adlı əsərlərində (9) təbiətdə cərəyan edən proseslərə fəlsəfi cəhətdən yanaşaraq, mürəkkəb sistemlərin qeyri-stabilliyini xaosun əsas səbəbi kimi göstərmişlər, başqa sözlə, onların tədqiqatlarının ümumiləşdirilmiş nəticəsi bundan ibarətdir ki, xaosun mərkəzində mürəkkəblik durur.

Məhz İ. Priqojin və İ. Stenqersin nəzəriyyəsi əsasında "idarə olunan xaos" adlı geosiyasi nəzəriyyə işlənib hazırlanmışdı. Z.Bjezinski, Ş.Cin, S.Mann dünyada ABŞ dominantlığının

saxlanılmasına xidmət edən bu nəzəriyyənin baniləri hesab olunurlar (7). S.Manna görə bu və ya digər ərazidə idarə olunan xaos yaratmaq üçün istifadə olunan vasitələrə aşağıda göstərilənlər aiddir:

- liberal demokratiyaya yardım etmək;
- bazar islahatlarına dəstək vermək;
- əhalinin, ilk növbədə elitanın həyat standartlarını yüksəltmək;
- dəyərləri və ideologiyanı sıxışdırıb aradan çıxarmaq (8, 70).

Əgər dünyanın ya resurslarla zəngin olan, ya da geostrateji əhəmiyyətə malik coğrafiyada yerləşən müxtəlif regionlarında – MDB məkanında, Şimali Afrikada, Yaxın Şərqdə - cərəyan edən müharibələrə, rəngli inqilablara nəzər yetirsək, S. Mannın sadaladığı tezislərdən bu hadisələrin başlanğıc mərhələsində geniş istifadə olunduğunu müşahidə etmək, yəni idarə olunan xaosu yaradan gizli əli görmək mümkündür. Həmin hadisələrə nəticə etibarı ilə yanaşsaq, xaos yaratmaqla müxtəlif dividendlər əldə edən ABŞ və Qərbi Avropa ölkələrinin "sülhpərvər" bəyanatlarını, "sülhyaradıcı missiyalarını" bir kənara qoymaqla, yuxarıda qeyd olunan regionlardakı faciələri nəzərə alsaq, bu nəzəriyyədən istifadənin beynəlxalq təhlükəsizliyi nə dərəcədə risk altına qoyduğunu görə bilərik. Digər tərəfdən, idarə olunaraq başlanan xaosun müəyyən mərhələdə nəzarətdən çıxmayacağına, daha geniş əraziləri əhatə etməyəcəyinə qəti təminat vermək qeyri-mümkündür.

"Soyuq müharibə"nin başa çatması, dünyanın bipolyar strukturu ilə şərtləndirilən dövlətlərarası münaqişələrin yerini yeni növ münaqişələrin tutması mövcud nəzəriyyələrin və konsepsiyaların əsas müddəalarına yenidən baxmaq zərurəti yaratdı. Nəticədə, yuxarıda qeyd olunan nəzəri təlimlərlə yanaşı, təhlükəsizlik məsələlərini özündə ehtiva edən, daha çox mövcud nəzəriyyələrin elementlərinin sintezindən ibarət olan bir sıra yeni konsepsiyalar meydana gəldi. Belə konsepsiyalardan biri "postmodernizm" adlanır. J.Bodriyyar, P.Berqer, A.Giddens, Y. Habermas, S.Hantinqton, V.L.İnozemtsev, A.S.Panarin və başqaları postmodernizmi tədqiq etmişlər.

Tədqiqatçıların bir qismi postmodernizmi ayrıca bir nəzəriyyə kimi nəzərdən keçirmirlər. P.A.Tsıqankov qeyd edir: "Postmodernizmin təsirinin genişlənməsi klassik paradiqmaların transformasiyasına yardım etsə də, onların öz əsas müddəalarından imtina etmələrinə gətirmir" (18, 129).

Prosesləri postmodernist baxımdan izah edən S.Hantinqton özünün "Sivilizasiyaların toqquşması" əsərində (21) kommunizmin iflasından sonrakı dövrdə dünya siyasətinin əsas aktorları kimi dövlətlərin deyil, sivilizasiyaların (qərb, induist, islam, konfutsi, Latın Amerikası, pravoslav-slavyan, yapon və Afrika) çıxış etdiyini göstərir. Sivilizasiyalararası əlaqələrin dövlətlərarası əlaqələrə nisbətən daha mürəkkəb olduğunu qeyd edən S.Hantinqton, dünya siyasətinin məhz bu sivilizasiyaların üstünlük uğrunda mübarizəsi ilə müşayət olunacağını qeyd edir. Bununla da, sivilizasiyalararası toqquşmanı real hesab edən müəllif, beynəlxalq təhlükəsizliyin təmin olunmasının mümkünlüyünü şübhə altına alır.

Təhlükəsizlik məsələləri digər bir nəzəriyyədə - rasionalizmdə də əsas yerlərdən birini tutur. Əsası XVII əsrdə holland hüquqşünası H.Qrosi tərəfindən qoyulmuş rasionalizm müasir dövrdə M.Vayt və H.Bull tərəfindən inkişaf etdirilmişdir. M.Vayt rasionalizmi belə xarakterizə edir: "Rasionalizm realizm və idealizm yanaşmalarının arasında yer tutur. Rasionalizmə əsasən, anarxiya dövlətləri öz təhlükəsizlikləri barədə düşünməyə vadar edir, universal mənəviyyat suveren dövlətin eqoizminin qarşısını alır. Hətta anarxiya şəraitində beynəlxalq nizamın yüksək səviyyəsi mövcuddur"(11, 90). Göründüyü kimi, müəllif rasionalizmin realizm və liberalizmdən qaynaqlandığını ön plana çəkir.

Rasionalistlər əvvəllər beynəlxalq nizamın yaradılmasına çağırırdılarsa, son onilliklərdə onlar beynəlxalq münasibətlərdə ədalətin müdafiəçisi kimi çıxış edirlər. Onlara görə "müxtəlif mədəniyyət və ideologiyalara mənsub olan dövlətlərin ümumi məqsədi olsa, onlar birləşə bilərlər" (11, 92). Şübhəsiz ki, bu tezisdə müəyyən utopizmi müşahidə etmək çətin deyil, çünki məhz bir-birinə yaxın olan mədəniyyətlər, dəyərlər sistemi bir-birindən fərqlənməyən ideologiyalar əsasında ümumi məqsədləri formalaşdırmaq mümkündür. Digər tərəfdən, dünyada hegemon dövlətlərin mövcud olduğu, həyat üçün vacib olan resursların sürətlə tükəndiyi və onlar uğrunda mübarizənin getdikcə daha kəskin xarakter aldığı, etnik-millətçi separatizmin tüğyan etdiyi bir dövrdə bütün dövlətlərin ümumi məqsəd ətrafında birləşməsi reallıqdan uzaqdır, bunu yalnız virtual olaraq, hipotetik səviyyədə təsəvvür etmək mümkündür.

Rasionalizmin ideoloqlarından olan H.Bull təhlükəsiz, qlobal cəmiyyət yaratmaq üçün bunları təklif edir: zorakılığa məhdudiyyət qoymaq; mülkiyyəti qorumaq; müqavilələrə əməl etmək (11, 92). Bununla yanaşı, o, dövlətlər arasında həmrəyliyin əldə olunmasının çətin bir proses olduğunu da etiraf edir. Dövlət suverenliyinin qorunmasını əsas məqsəd hesab edən H.Bull, eyni zamanda dünyada qlobal hakimiyyət balansını saxlamaq, daha böyük sülhə nail olmaq naminə kiçik dövlətlərin müstəqilliyinin, yəni nizam naminə ədalətin qurban veriləcəyini bildirir (11, 93), bununla da, güclü dövlətlərin beynəlxalq münasibətlərdə əsas rola malik olmaları barədə realistlərin mövqeyinə yaxınlaşır.

Beynəlxalq münasibətlərdə köklü dəyişikliklərin baş verməsi, inteqrasiya proseslərinin genişlənməsi, qlobal problemlərin çoxalması digər bir konsepsiyanın – qlobalizmin meydana gəlməsinə səbəb olmuşdur. C.Rozenau, R.Koks, R.Mansbaxa qlobalizmin əsas nümayəndələri sırasındadırlar.

Qlobalistlər dövlətin dünyadakı rolunun getdikcə azaldığını, əvəzində yeni subyektlərin, transmilli korporasiyaların və onların dövlət siyasətinə təsirinin artdığını iddia edirlər. Onların fikrincə siyasi həyat konkret dövlətin, beynəlxalq sistemin struktur elementləri ilə müəyyənləşir. Qlobalizm tərəfdarları əsas diqqəti iqtisadi münasibətlərə, mülkiyyət münasibətlərinə və siyasi mədəniyyətə yönəldirlər (12, 18). Qloballaşma haqqında tədqiqatçıların söylədikləri fikirləri ümumiləşdirən L.A.Korobeynikova qeyd edir ki, "bu proses azad bazarın qlobal iqtisadiyyatının formalaşması ilə başlamışdır... Qlobal iqtisadi məkanın sərhədlərində qlobal siyasi məkan formalaşır... dövlət, beynəlxalq əlaqələrdə aparıcı agent üçün xarakterik olan kompetentliyi, legitimliyi və hakimiyyəti itirir və yerini daha kompleksli olana verir..." (19, 158).

Qeyd etmək olar ki, qloballaşma iki yolla inkişaf edir. Birincisi, elmi-texniki və iqtisadi inkişafla şərtləndirilən təbii yoldur. İkincisi isə, iri güc mərkəzlərinin öz dəyərlər sistemini müxtəlif vasitələrlə, daha çox azad bazar münasibətləri adı altında digərlərinə qəbul etdirməkdən ibarətdir. V.A.Lisiçkin və L.A.Şelepinin qeyd etdikləri kimi, qlobal diktatura yaradanlar qlobalaşmadan maskalanmaq üçün istifadə edirlər (20, 26).

Qlobalizmin bir nəzəriyyə kimi qəti olaraq formalaşdığını iddia etmək düzgün olmazdı, çünki o, bir sistem kimi tam formalaşmamışdır, qərb dəyərləri bu sistemin əsası kimi daha çox qəbul edilir. Mövcud vəziyyətdə qlobalizm ziddiyyətlərdən də azad deyildir, belə ki, monomədəniyyətli qlobal cəmiyyət yaratmaq, mədəniyyətləri unifikasiya etmək istiqamətində atılan addımlar, şübhəsiz ki, milli mədəniyyətlərin, yerli və regional dəyərlər

sisteminin müqaviməti ilə üzləşir, bu da dünyada münaqişə mühitinin saxlanılması üçün zəminin qalmasını şərtləndirir.

Təhlükəsizlik məsələləri "Kopenhagen məktəbi" tərəfindən özünəməxsus şəkildə izah olunur. Təhlükəsizliyin yalnız hərbi təhlükə və təhdidlərlə bağlı olmadığını bildirən bu məktəbin nümayəndələri (B.Buzan, L.Hansen, O.Vever və s.) siyasi, iqtisadi, etnososial, ekoloji təhlükəsizlik məsələlərini də önə çəkirlər. Siyasi təhlükəsizlik dövlətin siyasi sisteminin sabitliyini, idarəetmənin stabilliyini nəzərdə tutur. Dövlətin normal fəaliyyətini təmin etmək üçün zəruri olan iqtisadi və maliyyə resurslarına, bazarlara çıxışın əldə edilməsi iqtisadi təhlükəsizliyin əsasını təşkil edir. Etnososial təhlükəsizlik dedikdə isə "Kopenhagen məktəbi"nin tərəfdarları dövlətdə mövcud olan ənənəvi dilin, dinin, mədəniyyətin, adət-ənənələrin qorunub saxlanılmasını önə çəkirlər. Nəhayət, ekoloji təhlükəsizlik ətraf aləmin çirklənməsinin aradan qaldırılmasını, bunun vasitəsilə aclığın, yoluxucu xəstəliklərin qarşının alınmasını nəzərdə tutur (22, 118-131). Beləliklə, müasir dövr üçün xarakterik olan real problemləri önə çəkməklə realizmə yaxınlaşan "Kopenhagen məktəbi"nin nümayəndələri, beynəlxalq təhlükəsizliyin təmin olunması üçün qeyri-hərbi xarakterli təhlükələrin qarşısının alınmasının hərbi xarakterli təhlükələrin aradan qaldırılmasından az əhəmiyyət daşımadığını önə çəkirlər.

## ƏDƏBİYYAT


*1. Abbasbəyli A., Nəcəfov E. Beynəlxalq münasibətlər nəzəriyyəsi. Dərslik. Bakı: Mütərcim, 2007, 208 s.*

*2. Morgenthau Hans J. Politics Among Nations. The Struggle for Power and Peace. Second Edition, Alfred A. Knopf: New York, 1955.*

*3. Белова О. В. Реализм, неореализм и постклассический реализм: эволюция основных категорий // Актуальні проблеми політики. 2014. Вип. 52, с. 47-56*

*4. Антанович Н., Достанко Е. Ганс Моргентау: реалистическая теория международной политики // Белорусский журнал международного права и международных отношений. 2000, № 1, с. 76—82.*

*5. Дериглазова Л.В. Проблемы обеспечения международной безопасности после окончания «холодной войны» // Вестник Томского государственного университета, 2005, № 288, с. 56-61*

*6. Иноземцев В.Л. Потерянное десятилетие. М.: Московская школа политических исследований, 2013, 600 с.*

*7. Камнева Е.И. Эволюция баланса сил великих держав в XXI веке // Историческая и социально-образовательная мысль. 2015, Том 7 №5 часть 1, с. 34-38*

*8. Коньшев В. Н. Американский неореализм о природе войны: эволюция политической теории. СПб.: Наука, 2004, 372 с.*

*9. Коробейникова Л.А. Глобализация: концептуальные изменения дискурса // Вестник Томского Государственного Университета. Философия. Социология. Политология, 2008, №2(3), с. 155-164*

*10. Ланцов С.А., Усмонов Ф.И. Проблемы безопасности в теории международных отношений. Политэкс, 2008, № 2.Электронный ресурс (http://www.politex.info/content/view/437/30/)*

*11. Лебедева М.М. Dünya siyasəti. Dərslik. Rus dilindən tərcümə. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2012, 315 s.*

*12. Лепский В.Е. Технологии управляемого хаоса – оружие разрушения субъектности развития // Информационные войны, 2010, №4 (16), с. 69-78*

*13. Листопад М.Е. Эволюция представлений об экономической безопасности // Теория и практика общественного развития, 2011, № 3, с. 385-387*

*14. Нурышев Г.Н. Доктрины «управляемого хаоса» в современной глобальной геополитике. Elekrtron resurs (http://economics.open-mechanics.com/articles/401.pdf)*

*15. Пригожин И., Стенгерс И. Прядок из хаоса. Новый диалог человека с природой. М: Эдиториал УРСС, 2000*

*16. Фукуяма, Ф. Сильное государство: Управление и мировой порядок в XXI веке. М.: АСТ: АСТ Москва: Хранитель, 2006, 220 с.*

*17. Фукуяма Ф. Конец истории? // Вопросы философии, 1990, № 3, с. 84—118*

*18. Фукуяма Ф. Конец истории и последний человек. Пер. с англ. М.: АСТ, 2007, 588 с.*

*19. Хантингтон С. Столкновение цивилизаций. М.: АСТ, 2003*

*20. Цыганков П.А. Тенденции классических парадигм в западной теории международных отношений //Общественные науки и современность, 2004, №2, с. 119-130.*

*21. Чугров С. Мир "после холодной войны" в концепциях японских политологов // Мировая экономика и международные отношения, 1999, № 9, с. 98-107*

*22. Эйвазов Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики. Баку: «Нурлан», 2004, 357*


## SUMMARY


Security issues are at the center piece of international relations, while its provision constitutes one of the major tasks of states, international and regional organizations. Providing international security is stipulated by several factors such as historical, political, social, cultural and other aspects. Development stage, economic resources, military power, scientific-technical potential of the society or the state and other factors directly affect the security provision. Such theories as realism, neorealism, post-classic realism, liberalism, neoliberalism, post-classic liberalism, neo-Marxism, controlled chaos theory, post-modernism, rationalism, globalism, as well as representatives of Japanese political school and Copenhagen school describe various aspects and opinions concerning the theoretical-conceptual fundamentals of international security.


## РЕЗЮМЕ


Вопросы безопасности один из важнейших вопросов в международных отношений, в то время как ее обеспечение является одним из основных задач государств, международных и региональных организаций. Обеспечение безопасности зависит от некоторых факторов, как исторических, политических, экономических, социальных, культурных и других. Уровень развития, экономические возможности, военная сила и научно-технический потенциал общества или государства и другие факторы оказывают непосредственное влияние на безопасность. Теории - реализм, неореализм, постклассический реализм, либерализм, неолиберализм, постклассический либерализм, неомарксизм, "управляемый хаос", постмодернизм, рационализм, глобализм, а так же представители политической школы Японии и Копенгагенской школы объясняют теоретические и концептуальные основ международной безопасности с разных аспектов.

# Siyasət

## MÜASİR DÖVRDƏ AZƏRBAYCANIN XARİCİ SİYASƏTİ: YENİ İSTİQAMƏTLƏR VƏ PERSPEKTİVLƏR

ÜLVİYYƏ QULİYEVA
Bakı Dövlət Universiteti




Azərbaycanla diplomatik əlaqələri olan dövlətlər

Müstəqil xarici siyasət hər bir ölkənin suverenliyinin təminatıdır. Qlobal və regional miqyasda geosiyasi mənzərənin sürətlə dəyişdiyi bir vaxtda bu məsələ daha da aktuallaşır. Bu baxımdan, dövlətin maraqlarını məharətlə müdafiə etmək üçün xarici siyasətin qarşısında duran vəzifələr düzgün müəyyənləşdirilməli, məqsədə çatmaq üçün səmərəli və müasir diplomatik mexanizmlərdən yararlanmaq gərəkdir. Xarici siyasət kursunun prioritetləri isə bu prosesdə istiqamətverici rol oynayır.

Azərbaycanın xarici siyasət kursunun prioritetləri dövlətin maraqları ilə müasir geosiyasi vəziyyətin xüsusiyyətlərini maksimum dərəcədə nəzərə almağa əsaslanır. Ulu öndər Heydər Əliyev ölkənin xarici siyasətinin prioritetlərini ən incə məqamlarını belə nəzərə alaraq bəlli müstəvidə müəyyənləşdirmişdir. Məhz, ötən illərin təcrübəsi də göstərdi ki, bu siyasət kursu zamanın bütün tələblərinə cavab verir və çox perspektivlidir. Bu mənada, bu gün Azərbaycanın daxili və xarici siyasət kursu region dövlətləri üçün nümunədir. Çünki xarici siyasətin prioritet istiqamətlərində əldə edilən uğurlar daha dinamik diplomatik fəaliyyət göstərməyə imkan verir.[1]

Əlbəttə ki, xarici siyasətin prioritetləri sırasında beynəlxalq iqtisadi təşkilatlarla əməkdaşlıq, enerji layihələrinin hazırlanması və reallaşması, iki qitə arasında nəqliyyat dəhlizi funksiyasını yerinə yetirmək kimi istiqamətlər vacib yer tutur. Azərbaycan bu sahələr üzrə sistemli proqramlar həyata keçirən yeganə Qafqaz ölkəsidir. Azərbaycan Cənubi Qafqazın yeganə dövlətidir ki, tarazlı xarici siyasəti uğurla həyata keçirir. Cənubi Qafqaz kimi mürəkkəb bir regionda tarazlı siyasi kursu sistemli və ya yeni geosiyasi reallıqlar müstəvisində həyata keçirmək təcrübəsini yalnız Azərbaycan nümayiş etdirir. Rəsmi Bakı böyük dövlətlərin regiondakı maraqlarını məharətlə tarazlaşdırır, milli maraqlara cavab verən geosiyasi dividendlər əldə edir. Bu gün Azərbaycanın xarici ölkələrdə 70-dən çox diplomatik nümayəndəliyi və konsulluğu, o cümlədən 50-dən artıq səfirliyi, 5 beynəlxalq təşkilat yanında missiyası, 9 baş konsulluğu və 5 fəxri konsulluğu fəaliyyət göstərir. Azərbaycanda isə 50-dən çox dövlətin səfirliyi, 3 baş konsulluq, 12 fəxri konsulluq və 20 beynəlxalq təşkilatın nümayəndəliyi mövcuddur. Müasir dövrdə postsovet məkanında belə bir sistemli diplomatik aktivliyə malik ikinci bir ölkə hələ ki, yoxdur.[2]

Hazırda regional miqyaslı təşkilatlardakı fəaliyyətlə qlobal qurumlar çərçivəsindəki fəaliyyəti uzlaşdırmaq suverenliyin təminində həlledici rol oynayır. Azərbaycan regionda sistemli və çoxvektorlu xarici siyasət kursunu həyata keçirən nümunəvi dövlət səfiyyəsinə yüksəldilmişdir. Bütün bunlar isə ölkənin xarici siyasət kursunun səmərəliliyi və uzaqgörənliyini təsdiq edir.

Mütəxəssislər hesab edirlər ki, yeni tarixi şərtlər daxilində dövlətlərarası münasibətlərin tənzimlənməsi bütövlükdə diplomatiyanın məzmununu yeniləşdirə bilər. Çünki indi

geosiyasətdə, beynəlxalq münasibətlər sistemində proseslər sürətlə cərəyan edir və əvvəlki zamanlarda müşahidə edilməyən faktorlar özünü göstəməkdədir. Bəzən qlobal, o cümlədən regional miqyasda hadisələr kəskin ziddiyyətlər və mürəkkəb dinamika ilə xarakterizə olunurlar. Belə vəziyyətlərdə siyasi-diplomatik fəaliyyətdə yeni yanaşmalara, qeyri-ənənəvi formatlara əl atmaq lazım gəlir.[3]

Digər tərəfdən, Cənubi Qafqaz dünyanın geosiyasi aspektində ən çətin regionlarından biri sayılır. Xüsusilə, son 20 ildə burada kəskinliyi ilə seçilən proseslər baş verməkdədir. Bir tərəfdən, böyük dövlətlər öz maraqlarını təmin etmək üçün təzyiqlər edirlər, digər tərəfdən isə bəzi ölkələr müstəqil xarici siyasət yeridə bilmirlər. Bu iki amilin birgə təsiri nəticəsində Cənubi Qafqazın geosiyasi mənzərəsi xeyli mürəkkəbləşmişdir.

Beləliklə də, Cənubi Qafqazda geosiyasi vəziyyət mürəkkəbləşdikcə adekvat əməkdaşlıq formatları tapmaq lazım gəlir. Bütövlükdə Azərbaycanın xarici siyasətinin prioritetləri məlumdur və burada ikitərəfli və üçtərəfli əlaqələrə böyük diqqət yetirilir, yeni əməkdaşlıq formatları yaradılır. Rəsmi Bakı daim əməkdaşlığın səmərəli modelinə, tərəflərin bərabər hüquqlara malik olmasına və beynəlxalq hüquq normalarının gözlənməsinə üstünlük verir. Bununla bağlı möhtərəm Prezident İlham Əliyev 28 May – Respublika Gününə həsr olunmuş rəsmi qəbuldakı nitqində bir məqamı ayrıca vurğulamışdır. Dövlət başçısı demişdir: “Bizim xarici siyasətlə bağlı təşəbbüslərimiz gözəl nəticələr verir. Biz xarici siyasətdə ikitərəfli formata üstünlük veririk. Mən hesab edirəm ki, bu, ən məqbul formatdır. Əlbəttə, digər formatlar da vardır. Onlardan da istifadə olunur. Ancaq ikitərəfli format ən böyük səmərə verən formatdır”.[3]

Bu da faktdir ki, bu gün Azərbaycan Ermənistan istisna olmaqla regionun bütün ölkələri ilə məhz ikitərəfli qaydada əlaqələri inkişaf etdirir. Sirr deyil ki, zaman-zaman böyük dövlətlər – istər yaxın dost, istərsə də nisbətən az yaxın dost ölkələr öz maraqları naminə təzyiq etməyə, “böyük qardaş” rolunu oynamağa çalışıblar. Belə vəziyyətdə beynəlxalq münasibətlərdəki balansı saxlamaqla kimsədən asılı olmayan siyasət yürütmək üçün incə diplomatiya və siyasi qətiyyət tələb olunur. Azərbaycan bu keyfiyyətləri nümayiş etdirir və bu prosesin reallaşma mexanizmi isə məhz, ikitərəfli əməkdaşlıq formatından ibarətdir. Bu gün Azərbaycanın Rusiya, İran və Türkiyə ilə konkret sahələr üzrə tərəflərə fayda verən müqavilələri vardır. Təsadüfi deyildir ki, hazırda Azərbaycan ikitərəfli münasibətlərini Avropa İttifaqının üzvü olan ölkələrlə də qurur. Hətta həmin ölkələrdən 9-u ilə strateji əməkdaşlıq haqqında müvafiq sənədlər də imzalanmışdır. Eyni zamanda, Rusiya-Türkiyə-Azərbaycan, Azərbaycan-Türkiyə-Gürcüstan, Azərbaycan-İran-Rusiya, Azərbaycan-Türkiyə-Türkmənistan kimi üçtərəfli əməkdaşlıq münasibətləri də rəsmi Bakı tərəfindən formalaşdırılmışdır.

Bir neçə üçtərəfli format faktiki olaraq regional miqyasda “geosiyasi şəbəkə” yaratmağa imkan yaradır. Belə ki, Azərbaycan, Türkiyə, İran, Gürcüstan və Türkmənistan faktiki olaraq böyük geosiyasi məkanda bir-biri ilə dinamik əlaqələr strukturuna bağlanmış olur. Bununla da regional bir tərəfdən əməkdaşlığın sivil forması meydana gəlməklə, digər tərəfdən qeyd olunan olkələrlə birlikdə təcavüzkarı təcrid etmək mümkün olur.

Cənubi Qafqazda ikitərəfli formatdan üçtərəfli əməkdaşlıq modelinə keçid, əslində diplomatiyada yenilikdir. Bu təcrübənin digər dövlətlər tərəfindən istifadə ediləcəyinə şübhəmiz yoxdur. Həmin müstəvidə üçtərəfli əməkdaşlığın dərinləşən əlaqələrini strateji tərəfdaşlığa çevrilməsinin müasir tələblərə cavab verən bir mexanizm olduğunu qəbul etmək lazım gəlir. Üçtərəfli əməkdaşlıq formatı həmçinin böyük güclərin geosiyasi qarşıdurmalarını səngitməyin də konkret mexanizmidir. Bütün bunlar isə Azərbaycanın yeni əməkdaşlıq təşəbbüslərinin artıq konkret nəticələr verdiyini bir daha təsdiqləyir. Bununla da, Azərbaycanın müstəqil dövlət kimi geosiyasi statusu yüksəlir.

Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən birini də müsəlman və Şərq ölkələri ilə əməkdaşlıq təşkil edir. Bu gün həmin ölkələrlə geosiyasi istiqamətlər üzrə ikitərəfli və çoxtərəfli əməkdaşlıq əlaqələri qurulur. Professor Əli Həsənov yazır: “Azərbaycanın xarici siyasətində Yaxın və Orta Şərqin islam ölkələri ilə həm çoxtərəfli, həm də ikitərəfli əlaqələri xüsusi yer tutur. Bunun üçün Azərbaycan islam ölkələrini birləşdirən İslam Konfransı Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT), İslam İnkişaf Bankı (İİB) kimi qurumların imkanlarından bəhrələnməklə yanaşı, həm də ayrı-ayrılıqda hər bir müsəlman dövləti ilə qarşılıqlı faydalı əməkdaşılq əlaqələri yaratmağa səy göstərir. Bu əlaqələrdən müasir beynəlxalq münasibətlər sistemində Azərbaycanın daxili və xarici problemlərinin həlli istiqamətində istifadə olunur”. [7]

Azərbaycanın Yaxın və Orta Şərq dövlətlərilə münasibətləri böyük potensiala malikdir. Bu münasibətlər Yaxın və Orta Şərqin geosiyasi əhəmiyyətini, zəngin enerji ehtiyatlarını və bu bölgədə böyük sərmayə potensialının mövcudluğunu əsas götürərək qurulur. Azərbaycan bu bölgə ölkələrinin ticarət, texnoloji və maliyyə imkanlarını çox cəlbedici hesab edərək, Yaxın və Orta Şərq dövlətlərilə qarşılıqlı faydalı münasibətərin daimi inkişafını müsbət qarşılayır.

Son zamanlar Azərbaycanın Körfəz ölkələri ilə olan münasibətləri yüksək səviyyəyə çatmışdır. Belə ki, Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasına üzv olan ölkələr tərəfindən Azərbaycan iqtisadiyyatına 1,3 mlrd. dollar, Azərbaycan tərəfindən isə 300 mln. dollar investisiya yatırılmışdır. Bu gün Azərbaycanda körfəz ölkələrindən olan 280 şirkət fəaliyyət göstərir. 2016-cı ildə Azərbaycan və körfəz ölkələri arasında ticarət dövriyyəsi 86 mln. dollar, 2017-ci ilin 8 ayı ərzində isə 40 mln. dollardan çox olmuşdur. Bu tendensiyanı nəzərə alsaq hətta, Azərbaycan və Körfəz ərəb ölkələri birgə investisiya fondları da yarada bilər. Bu baxımdan, Azərbayanda fəaliyyət göstərən körfəz ölkələri şirkətlərinin sayının artırılması, ticarət əlaqələrinin genişləndirilməsi üçün imkanlar genişdir.[5]

Bununla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında verdiyi tapşırıqların icrası ilə əlaqədar olaraq, insanlararası təmasları artırmaq, turizm səfərləri və işgüzar əlaqələri təşviq etmək məqsədilə Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, Yaponiya, Çin, Cənubi Koreya, Malayziya və Sinqapur vətəndaşlarına 1 fevral 2016-ci il tarixindən etibarən Azərbaycanın bütün beynəlxalq statuslu hava limanlarında sadələşdirilmiş viza rəsmiləşdirilməsi təmin edilir. Bütün bunlar Azərbaycanın ərəb və Asiya ölkələrilə olan əlaqələrinin inkişafına müsbət təsirini göstərir.

Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyə, İran, Pakistan, Banqladeş, Malayziya, İndoneziya, Misir və Nigeriya kimi ölkələrin daxil olduğu İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) zirvə görüşündə iştirak etməsi də ölkəmizin beynəlxalq nüfuzunun və əhəmiyyətinin yüksəlməsinin bariz nümunəsidir. Azərbaycan D-8




çərçivəsində beynəlxalq əməkdaşlığın inkişafına əhəmiyyətli töhfə verə bilər və buna bir sıra aşağdaki səbəbləri göstərmək olar:

Birincisi, Azərbaycan dünyada ən ciddi təhlükələrdən biri olan islamofobiyaya qarşı fəal mübarizə aparan və islam həmrəyliyinin möhkəmləndirilməsi istiqamətində konkret addımlar atan ölkədir.

İkincisi, Azərbaycan son 13 il ərzində iqtisadiyyatını 3 dəfədən çox artıran, yoxsulluğun səviyyəsini 10 dəfə aşağı salan, savadlılığı təxminən 100 faizə yüksəldən, 2 milyona yaxın yeni iş yerləri açan, strateji valyuta ehtiyatları ölkənin ümumi daxili məhsuluna bərabər, xarici dövlət borcu isə ümumi daxili məhsulun 20 faizindən az olan bir dövlətdir.

Üçüncüsü, Azərbaycan beynəlxalq əhəmiyyətli layihələrin təşəbbüskarı və fəal iştirakçısıdır. Bu gün ölkəmiz tərəfdaşları ilə birlikdə dünyanın ən böyük infrastruktur layihələrini icra edir.

Dördüncüsü, Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin yaradılmasında fəal iştirak edir.[6]

Söylənilənlər kontekstində Azərbaycan Respublikasının İqtisadi Əməkdaşlıq Təşkilatı ilə də səmərəli əməkdaşlıq münasibətlərini xüsusi qeyd etmək lazımdır. Belə ki, Azərbaycan təşkilata daxil olduğu ilk gündən ECO çərçivəsindəki çoxtərəfli regional münasibətlərə və üzv ölkələrlə ikitərəfli əlaqələrə böyük əhəmiyyət verir. Çünki ECO Xəzər-Qara dəniz hövzəsi, Cənubi Qafqaz və İran körfəzi bölgəsində, Mərkəzi Asiyanın Qazaxıstan və Türkmənistan kimi ölkələrinin zəngin karbohidrogen yataqlarında həyata keçirilən qlobal enerji layihələrinin, Şərq-Qərb nəqliyyat-kommunikasiya (TRASEKA), Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Qars dəmir yolu və Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin çəkilişi kimi mühüm işlərin görüldüyü bir regionu əhatə edir. Bundan başqa, ECO-nun işləyib hazırladığı və inşaatında iştirak etdiyi digər transmilli və regional nəqliyyat-kommunikasiya magistralları İranı, Türkiyəni, Azərbaycanı, Pakistanı, Əfqanıstanı və Türkmənistanı bir-biri ilə birləşdirərək, eyni zamanda Avropa və Asiya qitələrarası nəqliyyat-kommunikasiya əlaqələrinə ciddi təsir göstərir. Bu xətt üzrə yaradılan yeni nəqliyyat-kommunikasiya magistralının bir başı Orta, Mərkəzi Asiya və Hind okeanını, Fars körfəzi və Afrikanı, digər başı isə Cənubi Asiyanı - Pakistanı, Əfqanıstanı və s. ölkələri Türkiyə və Avropa ilə birləşdirir.

Azərbaycanın xarici siyasətində Asiya qitəsinin böyük və kiçik dövlətləri ilə ikitərəfli və çoxtərəfli əlaqələr, bu regionda yaradılmış və müxtəlif sahələr üzrə fəaliyyət göstərən beynəlxalq, o cümlədən regional qurumlarla münasibətlər də xüsusi bir istiqamət təşkil edir. Professor Əli Həsənov yazır ki, Azərbaycanın Asiya ölkələri ilə əlaqələri 1991-ci ildə ölkəmiz müstəqillik əldə etdikdən və 1992-ci ildə BMT-yə üzv qəbul olunduqdan sonra başlanır və hazırda müvəffəqiyyətlə inkişaf edir.[8]

Ərazi və əhalisinə görə dünyanın ən böyük qitəsi Asiya hesab olunur. Asiyanın Rusiya nəzərə alınmadan, 27 milyon kvadrat kilometr ərazisində 40-dan artıq dövlət yerləşir ki, onların da ikisi - Çin və Hindistan kimi dünyanın ən nəhəng dövlətləridir. Əslində, bu qitədə yerləşən digər ölkələr də əhalisinin sayına görə dünyanın ən böyük ölkələrindən hesab olunurlar. Həmçinin, təbii ehtiyatlarına görə, Asiya ən zəngin qitələrdən hesab olunur. Fars körfəzinin düzənlik və yarımdüzənlik əraziləri həm təbii yataqlarla zəngindir, həm də əkinçilik üçün çox əlverişlidir. Dünyanın suvarılan əkin sahələrinin 70%-dən çoxu Asiyanın payına düşür. Asiya əhalisinin sayı 3.5 milyarda yaxındır ki, bu da yer kürəsi əhalisinin yarısından çoxu deməkdir.

Geosiyasi əhəmiyyətinə görə, Asiya qitəsi ölkələri müasir dünya siyasətinin əsas diqqət mərkəzindədir. Qitənin əmək resursları, satış bazarları, xammal ehtiyatları, nəqliyyat-kommunikasiya imkanları, geostrateji baxımdan mühüm ərazi xarakteristikası və nəhayət, texnoloji inkişafı diqqəti cəlb edir. Çünki Yaponiya, Çin, Tayvan, Cənubi Koreya, Sinqapur və Malayziya kimi ölkələr, sözün həqiqi mənasında, dünyanın iqtisadi

rəqabət meydanından Avropanın böyük dövlətlərini sıxışdıraraq, Asiyanı və Sakit okean hövzəsini dünyanın ən güclü iqtisadi mərkəzlərindən birinə çeviriblər.[9]

Bütün bunların fonunda Uzaq Şərqin qabaqcıl dövlətləri olan Çin və Yaponiya ilə qarşılıqlı faydalı əməkdaşlığın inkişafının zəruriliyi Azərbaycanı "İpək Yolu" layihəsinin gerçəkləşdirilməsində daha iradəli olmağa sövq edir. Çinin artan beynəlxalq nüfuzu və Avrasiyada onun mövqelərinin möhkəmlənməsi Azərbaycan-Çin münasibətlərinin intensivləşməsinə təkan vermişdir. Yaponiyanın Azərbaycandakı iqtisadi layihələrə fəal qoşulması və ikitərəfli əməkdaşlığın daha da dərinləşməsinə olan qarşılıqlı maraq Azərbaycan-Yaponiya münasibətlərinin zəngin potensialının müntəzəm əsasda açılması üçün əlverişli zəmin yaradıb.

Cənub-Şərqi və Cənubi Asiyada yeni iqtisadi və siyasi güc mərkəzlərinin təşəkkülü Azərbaycanın xarici siyasətinin bu istiqamətə marağının artmasına səbəb olmuşdur. Burada dövlətimizin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində tutduğu ədalətli mövqeyi beynəlxalq səviyyədə tam dəstəkləyən Pakistanla olan münasibətlərinin tərəfdaşlıq, Hindistanla isə əməkdaşlıq səviyyəsinə gəlib çatmasını xüsusi qeyd etmək lazımdır.

Beləliklə, Azərbaycan Respublikasının apardığı uğurlu ölçülüb-biçilmiş və tarazlaşdırılmış xarici siyasət sayəsində Azərbaycan xalqının təhlükəsiz və xoşbəxt gələcəyini təmin edən xarici mühit formalaşdırılmış və Azərbaycanın həm dünya miqyasında mövqelərinin möhkəmləndirilməsi, həm də Xəzər-Qafqaz bölgəsində ən vacib ölkəyə çevrilməsinə nail olunmuşdur.

## ƏDƏBİYYAT


*1.http://newtimes.az/az/geopolitics/2831*

*2.http://newtimes.az/az/organisations/1079*

*3.http://files.preslib.az/projects/azerbaijan/gl9.pdf*

*4.Mehdiyev R. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı: 2005, 463 s.*

*5.http://azpromo.az/news/view/azerbaijan-gulf-cooperation-council-gcc-member-states-business-forum-held?menu=true*

*6.İlham Əliyev İstanbulda D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının IX Zirvə görüşündə xüsusi qonaq qismində iştirak edib. http://www.president.az/articles/25590*

*7.Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005. 631 s.*

*8.Həsənov Ə. Heydər Əliyev və Azərbaycanın xarici siyasət fəaliyyətinin formalaşması // HeydərƏliyev və müasir Azərbaycan. Bakı: 2003. 29-52s.*

*9. Məmmədov N. Geosiyasətə giriş. (iki cilddə, ikinci cild). "Bakı", "Azərbaycan" Nəşriyyatı, 2011. 416 s.*

*10. Hikmət Babaoğlu. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi (siyasi, ideoloji və diplomatik məsələlər). Bakı: Elm, 2007, 516 s.*



***Açar sözlər:*** *Azərbaycan Respublikası, siyasi kurs, xarici siyasət, geosiyasət, Cənubi Qafqaz*

***Ключевые слова:*** *Азербайджанская Республика, политический курс, внешняя политика, геополитика, Южный Кавказ*

***Key words:*** *Azerbaijan Republic, political course, foreign policy, geopolitics, South Caucasus*



**РЕЗЮМЕ**

**Ульвия Гулиева**

**Внешняя политика Азербайджана на современном этапе: новые тенденции и перспективы**

В таком сложном регионе как Южный Кавказ только Азербайджан демонстрирует системный опыт реализации сбалансированного политического курса в новой геополитической реальности. Официальный Баку, профессионально балансируя интересы больших государств в регионе, приобретает дивиденды, отвечающие национальным интересам. И поскольку геополитическая ситуация на Южном Кавказе сложная, приходится искать адекватные форматы сотрудничества. В целом, приоритеты внешней политики Азербайджана известны, и большое внимание уделяется двусторонним и трехсторонним отношениям, создаются новые формы сотрудничества. Одним из приоритетов внешней политики Азербайджана является сотрудничество с мусульманскими и восточными странами.

Именно с этими странами в геополитических направлениях устанавливаются двусторонние и многосторонние отношения сотрудничества.



**SUMMARY**

**Ulviya Guliyeva**

**Foreign policy of Azerbaijan at the present stage: new trends and prospects**

In a complex region such as the South Caucasus, only Azerbaijan demonstrates the experience of implementing a balanced political course in a systematic or new geopolitical reality. Official Baku skillfully balances the interests of the great powers in the region, and receives geopolitical dividends that meet national interests. And as the geopolitical situation in the South Caucasus is complicated, it is necessary to find adequate cooperation formats. In general, the priorities of the foreign policy of Azerbaijan are known, and great attention is paid to bilateral and trilateral relations, new forms of cooperation are created. One of the priorities of Azerbaijan's foreign policy is cooperation with Muslim and Eastern countries. Bilateral and multilateral cooperation relations are established precisely with these countries in those geopolitical directions.

# Siyasət

## AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ GEOSİYASİ VASİTƏLƏRİN DƏYƏRLƏNDİRİLMƏSİ BAXIMINDAN GÜRCÜSTAN AZƏRBAYCANLILARI AMİLİ

BƏXTİYAR NƏBİYEV
Bakı Dövlət Universisteti






Xarici siyasətin həyata keçirilməsi və eləcə də milli maraqların təmin edilməsi baxımından milli diasporların imkanların ciddi şəkildə istifadə edilməsi lazımdır. Burada xüsusi ilə Azərbaycan ilə həmsərhəd olan ölkəllərdə yaşayan azərbaycanlıları aid etmək olar. Məlumdur ki, Ermənistan istisna bütün həmsərhəd dövlətlərdə azərbaycanlılar yaşamaqdadır. Bir sıra hallarda azərbaycanlılar bu ölkələrdə gəlmə milli element deyildir. Tam əksinə yerli aborigen millət olmaqla qeyd edilən ölkələrin iqtisadi, siyasi, ictimai həyatında ciddi iştirak edən azərbaycanlılar öz varlıqları ilə xarici siyasətimiz üçün dəstəkdir. Onun üçün Azərbaycanın xarici siyaətində geosiyasi vasitələrin dəyərləndirilməsi baxımından Gürcüstan azərbaycanlıları amilinin tədqiq edilməsi olduqca aktualdır.

**Gürcüstanın demoqrafik mənzərəsi, geosiyasi imkan və gücünün dəyərləndirilməsi**

Cənubi Qafqazda Gürcüstan ən polietnik dövlətdir. Sovet dövründə bu çoxmillətli respublikada muxtar qurumların formalaşması üçün əsas olmuşdur. Gürcüstanda, digər Cənubi Qafqaz ölkələrindən fərqli olaraq, əsas etnik qrup - gürcülər - azlıq təşkil edir. Ermənistanda ermənilər ölkə əhalisinin təxminən 95 faizini, Azərbaycanda isə azərbaycanlılar 85 faizini təşkil edir, Gürcüstanda isə gürcülərin ümumi payı 50 faizdən çox deyildir. 2002-ci il siyahıyaalınması göstərir ki, Gürcüstanda gürcülər 84% təşkil edir. 1979-cu il rəsmi statistika tamamilə fərqli bir şəkil yaradır. Gürcüstan Sovet Ensiklopediyasında rəqəmlər: Gürcülər 68.8%, ruslar 7.4%, azərbaycanlılar 5.1%, ermənilər 9%, abxazlar 1.7%, osetinlər 3.2%, yunanlar 1.9%, ukraynalılar 0.9%, yəhudilər 0.6%, kürdlər 0,5%, digərləri isə 0,9%. Bu siyahıda acarlar ayrı bir etnos kimi göstərilmir. İstər abxaz, istərsə də miqrel, svanlar gürcülərin tərkibində ümumiləşdirilmişdir. 1979-cu il statistik göstəricisi ilə 2002-ci ilin statistikasının qeyri-bərabərliyi açıq şəkildə görünür. Demoqrafik inkişafa görə gürcülər Gürcüstandakı bütün qeyri-gürcü etnik qruplarından daha aşağıdadırlar. Son 15 ildə Gürcüstandan çox adamın ayrıldığı həqiqətdir, amma ölkəni tərk edənlərin miqyası o qədər də böyük deyil ki, 1979-cu və 2002-ci illər arasında çox böyük fərq olsun [9].

Gürcüstan öz enerji təhlükəsizliyinin təmin edilməsi məsələsində də Rusiya və Azərbaycandan tam asılı vəziyyətdədir. 2008-ci ildə bu ölkənin Rusiya ilə münasibətlərinin gərginləşməsi

fonunda dərin enerji böhranına düçar olması və yalnız Azərbaycanın işə qarışmasından sonra vəziyyətdən çıxması, söylədiklərimizin əyani sübutu idi. Bundan başqa, Gürcüstanda daxili vəziyyətin qeyri-sabitliyi, 2008-ci ilin avqustunda Rusiya ilə qısamüddətli müharibədən sonra Abxaziya və Cənubi Osetiyanın öz "müstəqilliyini" elan etməsi və bu "müstəqilliyin" Rusiya, onun təsiri altında olan bir neçə dövlət tərəfindən faktiki tanınması, Cavaxetiya kimi potensial münaqişə ocağının mövcudluğu və s. məsələlər də onun regional lider şanslarını azaltmışdır [4, s.166].

Cənubi Qafqazda müttəfiqimiz olan Gürcüstanın da ciddi separatçılıq problemləri vardır. SSRİ dövlətləri içində Gürcüstan, müstəqilliyini ilk elan edən ölkələrdən biri olmuşdur. Gürcüstanın milli problemləri özünəməxsus xüsusiyyət daşımaqdadır. Birincisi, gürcülərdən fərqli bir etnik kimliyə malik bölgələrin Gürcüstandan ayrılmaq istəmələridir. Digər tərəfdən Abxaziya Respublikası müstəqillik istəyərkən, digər tərəfdən Cənubi Osetiya Muxtar Bölgəsi, Rusiya Federasiyası (RF) içində yerləşən Şimali Osetiya ilə birləşmək istəyir. Ayrıca Cavaxetiya bölgəsində yaşayan ermənilər də muxtariyyət tələb edir. Acaristan Muxtar Respublikası da uzun müddət Gürcüstan ordusunu ərazisinə buraxmamaqda idi. Acaristan başçısı Aslan Abaşidzenin Tbilisi ilə yaşanan gərginliklərdən sonra 6 May 2004-cü il tarixində ölkəni tərk etməsindən sonra problem müəyyən qədər həll edilmiş və Batumi mərkəzi hakimiyyətə bağlanmışdır. Problemin ikinci boyutu isə beynəlxalq əlaqələr bazasında yaşanmaqdadır. Müstəqilliyin əldə edilməsindən sonra Gürcüstan NATO və ABŞ-ı istifadə edərək Qərbə yaxınlaşma səyi içinə girmişdir. Rusiya bölgədəki bazalarını qoruma və bölgənin ondan uzaqlaşmasına maneə törətmək üçün 2008-ci ilin avqustunda Gürcüstana hərbi müdaxilə etmişdir. Bu çərçivədə Gürcüstan keçmişdə olduğu kimi, indi də böyük güclərin qarşıdurma sahəsi olmağa davam etməkdədir.

**Gürcüstan azərbaycanlıları mövcud reallıqlar və perspektiv baxımından**

Gürcüstanda ən fəal, passionar milli azlıq azərbaycanlılardır. Azərbaycanlılar öz tarixi inkişaflarında və mədəni inkişaflarında, eləcə də ailə quruluşlarında Gürcüstanın unikal xalqıdır. Hələ, XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlıları arasında qalıq şəklində olsa da, böyük ailə forması qorunub saxlanılmışdır. Böyük ailələrin tərkibinə qan qohumluğuna əsaslanan 3-4, bəzən də 5 nəslin nümayəndəsini özündə birləşdirən daha yaxın və doğma şəxslər daxil idi [5, s.8]. Gürcüstanın paytaxtı Tbilisidə azərbaycanlıların varlığı daim bu ölkənin ictimai-siyasi həyatına təsir etmişdir. Tiflisdə azərbaycanlıların sayı 1835-ci ildə 723 nəfər, 1876'da 2310 nəfər, 1897'də 5557 nəfər, 1902'də 6635 nəfər, 1922'də 3255 nəfər, 1939'da 5874 nəfər (1,1%), 1959'da 9560 (1,4%), 1979'da 12852 (1,2%), 1989'da 17968 (1,5%), 2002'də 33751 (1,3%) göstərilir [6, s.4].

1990-cı illərin əvvəllərində Gürcüstanda ifrat millətçilik fikirlərinin səsləndirilməsi və bir sıra mənfi addımların atılması azərbaycanlılara pis təsir etmişdi. Yenicə müstəqillik əldə etmiş Gürcüstan rəhbərliyinin səriştəsiz və milli diskriminasiya siyasəti bu ölkədə tarixən yaşayan azərbaycanlılardan da yan keçməmişdi. Z.Qamsaxurdiyanın hakimiyyəti dövründə qanunsuz şəkildə, yerli əhalinin razılığı olmadan tarixən azərbaycanlıların məskunlaşdığı 32 kəndin adı, eləcə də digər çay və yer adları dəyişdirildi. Azərbaycanlıların kompakt şəkildə yaşadığı bir sıra yaşayış məntəqələrində qanunsuz kriminal milliyyətçi hərbi qruplarla yerli əhali arasında bəzi xoşagəlməz hadisələr baş verdi. Bunun nəticəsində azərbaycanlılar bəzi yaşayış məntəqələrini tərk etməyə məcbur oldular[2, S.258].

Ümummilli Lider Heydər Əliyevin konseptual siyasi kursunun reallaşması ilə Azərbaycan və Gürcüstan arasında münasibətlər öz normal məcrasına dönməyə başladı. 1996-cı il martın 8-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Gürcüstana rəsmi səfəri zamanı "Qafqaz bölgəsində sülh, sabitlik və təhlükəsizlik haqqında" Azərbaycan-Gürcüstan Bəyannaməsinin imzalanması respublikamızın Qafqazda həyata keçirdiyi xarici siyasətin mühüm uğuru idi. Tbilisidə iki dövlət başçısının imzaladığı birgə Bəyannamə "Ümumi Qafqaz evi" ideyasının əməli olaraq həyata keçirilməsinin başlanğıcını qoydu [3, s.186].

Burada xüsusi bir haşiyəyə çıxaraq onu qeyd etmək lazımdır ki, Gürcüstan azərbaycanlılarına və onların statusuna ən düzgün qiyməti də məhz Ümummilli Lider Heydər Əliyev verdi. 1996-cı ilin mart ayında Azərbaycan Prezidenti Heydər Əliyevin Gürcüstan respublikasına ilk rəsmi səfəri çox mətləblərə işıq saldı. Gürcüstan-Azərbaycan dostluğunun qədim tarixinə yeni səhifələr yazıldı, yeni fəsillər əlavə olundu. Uzaqgörən ulu öndərimizin müdrikliyindən, tükənməz milli təəssübkeşliyindən, soydaşlarımıza, onların ata-baba yurdlarına olan dərin məhəbbətindən xəbər verən bir epizod yada düşür. Ümummilli Lider Heydər Əliyevin Gürcüstana səfəri ilə əlaqədar keçirilən təntənəli toplantı zamanı çıxış edən Eduard Şevardnadze xalqlarımızın tarixi dostluğundan danışarkən necə oldusa "Azərbaycan diasporu" sözünü işlətdi. Ümummilli Lider Heydər Əliyev o dəqiqə söhbətə müdaxilə elədi. "Diaspor – yox dedi – Azərbaycanlılar sonradan gəlmə deyillər. Tarixən bu yerlərdə yaşayırlar. Buralar onların əzəli, əbədi məskənləridir". Şevardnadze gülümsündü və Ümummilli lider Heydər Əliyevin sözünü təsdiq elədi. Söhbətlərdən birində dövlətimizin başçısı soydaşlarımızın mətbu orqanı olan "Gürcüstan" qəzetinin ayağa qaldırılmasının, ona lazımi qayğı göstərilməsinin vacibliyini bildirmişdi[1, s.11].

Ümummilli Lider Heydər Əliyevin konseptual xarici siyasətini uğurla davam etdirən Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Gürcüstan azərbaycanlılarına böyük önəm verməkdədir. Gürcüstana rəsmi səfərlərinin birində ölkə başçısı aşağıdakıları ifadə etmişdir: "Bu gün səfər çərçivəsində mən Marneuliyə sizinlə görüşə gəlmişəm. Mən əminəm ki, sizin Gürcüstanda fəaliyyətiniz də Gürcüstan-Azərbaycan əlaqələrinin inkişafı üçün mühüm rol



*Tiflis şəhərində Azərbaycanlılar və Tatarlar tərəfindən idarə olunan tarixi bazar (1870)*




oynayacaqdır. Çünki Gürcüstanda yaşayan azərbaycanlılar və Azərbaycanda yaşayan gürcülər bizim əməkdaşlığımızı daha da möhkəmləndirir. Həm Gürcüstan, həm Azərbaycan çoxmillətli, çoxkonfessiyalı ölkədir. Bizim ölkələrimizdə bütün xalqlar sülh, əmin-amanlıq, mehribanlıq şəraitində yaşayır və bu, bizim böyük uğurumuzdur, böyük nailiyyətimizdir. Biz çox istəyirik ki, həm Azərbaycanda yaşayan gürcülər, həm Gürcüstanda yaşayan azərbaycanlılar bundan sonra da ölkələrin ictimai, siyasi, iqtisadi həyatında öz rolunu oynasınlar və həm öz ölkələrinin dəyərli vətəndaşları kimi töhfə versinlər, eyni zamanda, əlbəttə, öz tarixi köklərini də unutmasınlar. Mən istəyirəm ki, Gürcüstanda yaşayan azərbaycanlılar rahat yaşasınlar. Onların iş yerləri ilə təmin edilməsi istiqamətində daha da ciddi addımlar atılsın, onlar öz dəyərini yaxşı hiss etsinlər və Gürcüstanın dəyərli vətəndaşları kimi bu ölkənin ümumi inkişafına öz töhfəsini versinlər. Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstanın dövlətçiliyinə həmişə dəstək olmuşlar və Gürcüstanın yaxşı vətəndaşları olmuşlar. Belə də olmalıdır, çünki siz bu torpaqlarda əsrlər boyu yaşayırsınız. Bu gün xalqlarımızı birləşdirən həm tarixi əlaqələr, həm çoxəsrlik dostluq, qardaşlıq münasibətləri, eyni zamanda, bax, bugünkü Gürcüstan-Azərbaycan əlaqələri əlbəttə ki, sizin də həyatınızda müsbət təsirini göstərir.” [7].

Azərbaycan Respublikası Prezidentinin fikirləri dövlətimizin Gürcüstan azərbaycanlıları amilini yüksək dəyərləndirdiyini göstərir. Bu da öz növbəsində Gürcüstan rəhbərliyinin fikirlərinə təsir edir. 2015-ci ilin aprel ayında azərbaycanlılar yaşayan bölgələrə səfər edən Gürcüstan Prezidenti G. Marqvelaşvili bəyan edib ki, mən Gürcüstanda azərbaycanlıların yaşadığı bölgələrdə kənd təsərrüfatının, infrastrukturun getdikcə inkişaf etdiyini görürəm. İndi Gürcüstanın Ümumi Daxili Məhsulunun 9 faizini azərbaycanlılar verir. Bizə yeni imkanlar lazımdır ki, Avropa bazarına daxil olaq. Gürcüstanda bunun üçün potensial var. Olkəmizdə kənd təsərrüfatı sahəsində yeni və Avropa standartlarına uyğun standartların tətbiqi böyük əhəmiyyət kəsb edir. Bu regionda iqtisadiyyatın inkişaf etdirilməsi və turizmin inkişafı vacibdir. Marneulidə və regionun digər bölgələrində yeni inkişaf perspektivləri işlənilməlidir. Bölgədə yeni layihələr həyata keçirilməlidir. Yüklərin daşınması, enerji və logistik layihələr Gürcüstan üçün səmərəli və faydalıdır [8 ].

Lakin Azərbaycan ilə yaxın münasibətlərinə baxmayaraq Gürcüstanda yaşayan azərbaycanlıların problemləri indi də az deyildir. Azərbaycan dövlətinin birbaşa diqqəti ilə bu problemlər sivil və müttəfiqlik münasibətlərinə xələl gətirilmədən həll edilməyə çaışılır. Bir sıra tədbirlər keçirilir. Məsələ, bu kontekstdə 2010-cu ilin may ayının 15-də Marneuli şəhərində Gürcüstan azərbaycanlı gənclərinin I qurultayı keçirilmişdir. Qurultayda Azərbaycan Respublikasının Gürcüstandakı Fövqəladə və səlahiyyətli səfiri Namiq Əliyev, Milli Məclisin deputatları Qənirə Paşayeva, Rauf Əliyev, Sabir Hacıyev, Gürcüstan parlamentinin üzvü Azər Süleymanov, Kvemo-Kartli qubernatorunun müavinləri Hüseyn Yusifov, Koba Kubiaşvili, Diasporla İş üzrə Dövlət Komitəsinin əməkdaşları qonaq qismində iştirak etmişlər. Qurultayda çıxış edən Azərbaycan Respublikasının Gürcüstandakı səfiri Namiq Əliyev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qurultay iştirakçılarına salamlarını çatdırmışdır. O, tədbirin əhəmiyyətini yüksək qiymətləndirmiş və toplantının azərbaycanlı gənclərin cəmiyyətə inteqrasiyasına önəmli töhfələr verəcəyinə inamını ifadə etmişdir. Milli Məclisin deputatı Qənirə Paşayeva son illərdə Gürcüstanda azərbaycanlıların problemlərinin həlli sahəsində bir sıra uğurla layihələrin həyata keçirildiyini qeyd etmişdir. O, demişdir ki, Heydər Əliyev Fondu, Diasporla İş üzrə Dövlət Komitəsi, ARDNŞ və digər təşkilatlar tərəfindən həyata keçirilən bu layihələr azərbaycanlıların cəmiyyətə inteqrasiyasını stimullaşdırır. Q.Paşayeva Gürcüstanın Azərbaycandilli

məktəblərində Gürcü dilli kursların açılması nəticəsində dövlət dilini bilən yeni kadrların yetişdiyini vurğulamışdır. Millət vəkili qurultayın azərbaycanlı gənclərin həyatında mühüm bir hadisə kimi tarixə düşəcəyinə inandığını bildirmişdir.

Azərbaycan dövləti Gürcüstanı bölgədə özünün strateji tərəfdaşı hesab edir. Onunla birgə bir çox beynəlxalq layihələr icra edir. Gürcüstanın ərazi bütövlüyünü dəstəkləyir. Həmçinin orada yaşayan azərbaycanlıların milli hüquqlarının qorunması üçün özünün bütün imkan və vasitələrindən istifadə edir. Eyni zamanda bu ölkədə baş verən hadisələrə münasibətdə milli maraqlarına uyğun praqmatik mövqe sərgiləyir. Bunun da başlıca səbəbi tarixi təcrübədir. Belə ki, Qamsaxurdiya dövrünün problemləri unudulmamışdır. Ona görə Azərbaycanda ümid edirlər ki, Gürcüstan hökuməti istər daxili, istərsə də xarici siyasətdə başəri prinsipləri ön plana çəkəcəkdir.

Beləliklə, biz görürük ki, bizi əhatə edən ölkələrin hər birinin özünəməxsus problemləri və bu problemlərin də ortaq, eyni zamanda fərqli cəhətləri vardır. Onlar daim diqqət mərkəzində saxlanılmalı və eləcə də məsələləri təhlil edərkən uzaqməsafəli milli maraqlardan çıxış edilməlidir.

**Nəticə**

Gürcüstan azərbaycanlılarının ölkəmizin xarici siyasətində rolunu nəzərə alaraq onların demoqrafik durumunun pozulmaması üçün məqsədli tədbirlərin görülməsi zəruridir. Belə ki, Gürcüstanda azərbaycanlıların azalması fonunda erməni elementinin çoxalmasına heç cür yol vermək olmaz. Bu gələcəkdə Azərbaycan və Gürcüstanın birgə layihələrinə təhlükə kimi özünü göstərə bilər. Gürcüstan azərbaycanlılarının milli-mənəvi dəyərlərdən uzaqlaşmaması üçün milli maraqlarımızın təmin edilməsi üçün orada Azərbaycan dilli təhisl müəssisələrinin fəaliyyətinin davam etdirilməsinə hər cür yardım edilməlidir. Bu soydaşlarımızın milli şüurlarının qorunması üçün olduqca vacibdir. Digər tərəfdən Gürcüstan dövlət və hakimiyyət strukturlarında azərbaycanlıların daha fəal təmin edilməsi üçün onların gürcü dili və mədəniyyəti ilə yaxından tanışlığı lazımdır. Bunun üçün diasporanın Gürcüstan cəmiyyətində milli şüuru qoruma şərti ilə inteqrasiyasına xüsusi önəm verilməlidir. Gürcüstan cəmiyyətinin müxtəlif təbəqələri ilə ünsiyyətin qurulmasında azərbaycanlıların rolu böyük ola bilər.

Gələcəkdə Azərbaycan Gürcüstan azərbaycanlılarının öz ölkə ölkələrində biznes fəaliyyətlərinin maliyyə, texniki və digər dəstəklənməsi imkanlarını nəzərdən keçirməlidir. Gürcüstan biznes mühitində Azərbaycandan gələn investorlarla birgə, yerli azərbaycanlı iş adamlarının çəkisinin artması bizim milli maraqlarımıza xidmət edir. Gürcüstan azərbaycanlıları amilindən Gürcüstan-Ermənistan münasibətlərinə təsir vasitəsi kimi də istifadə etmək geosiyasi maraqlarımızın təmin edilməsində olduqca əhəmiyyətlidir.

**ƏDƏBİYYAT**

1. *Aslanov A. Azərbaycan-Gürcüstan dostluğunun ən şanlı səhifələrinin müəllifi Ulu ndər Heydər Əliyevdir. // "Azərbaycan".-2009.-12 dekabr.-N 276.-S.11.*

2. *Çıraqov F. Azərbaycan–Gürcüstan münasibətlər. // Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016) /məqalələr toplusu/. Bakı: "Poliart" MMC, 2017, 904 s., s.253-277*

3. *Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005. 631 s.*

4. *Həsənov Ə.M. Azərbaycanın geosiyasəti. Bakı "Zərdabi LTD" MMC, 2015. -1056 s.*

5. *Əliyev Ə.T. XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə məişəti (tarixi-etnoqrafik tədqiqat). Bakı, "Elm və təhsil", 2012. 156 səh.*

6. *Məmmədli Ş. B. Gürcüstan Azərbaycanlıları Gürcüstanda Azər Türkləri məskunlaşan inzibati-ərazi vahidləri. Statistik-ensiklopedik bilgilər. http://elibrary.bsu.az/yenii/ebookspdf/uhgkT5jc.pdf s.4*

7. *http://www.president.az/articles/16680*

8. *http://ann.az/az/marqvelasvili-gurcustan-z-azerbaycanlilari-ile-gucludur/*

9. *https://www.newsgeorgia.ge/27673-2/*

**Açar sözlər:** *Gürcüstan, geosiyasi, azərbaycanlılar, diaspora*

**Ключевые слова:** *Грузия, геополитика, азербайджанцы, диаспо*

**Key words:** *Georgia, geopolitics, Azerbaijanis, diaspora*

**РЕЗЮМЕ**

**Бахтияр Набиев**

**Грузинские азербайджанцы как фактор геополитических средств внешней политики Азербайджана**

В статье исследуется фактор грузинских азербайджанцев с точки зрения оценки геополитических инструментов во внешней политике Азербайджана. Здесь, в первую очередь, изучается национальный состав Грузии. Затем, обсуждаются проблемы, стоящие перед страной. С другой стороны, изучается историческое развитие азербайджанской диаспоры в стране. В ходе исследования обсуждается роль азербайджанцев в политической, социальной и культурной жизни Грузии и их значение для Азербайджана. В итоге получены результаты и даются рекомендации.

**SUMMARY**

**Bakhtiyar Nabiyev**

**Georgian Azerbaijanis as a factor of geopolitical means of Azerbaijan's foreign policy**

The article investigates the factor of Georgian Azerbaijanis in terms of evaluating geopolitical tools in Azerbaijan's foreign policy. Here, first of all, the national composition of Georgia is being studied. Then, shortly, the problems facing the country are discussed. On the other hand, the historical development of the Azerbaijani diaspora in the country is provided. During the research, the role of the Azerbaijanis in the political, social and cultural life of Georgia and their importance for Azerbaijan are discussed. In the end, the results are obtained and recommendations are given.

# Cəmiyyət

## ŞƏXSİYYƏTLƏRARASI ÜNSİYYƏTİN PSİXOLİNQVİSTİK MƏSƏLƏLƏRİ

LEYLA ƏLİZADƏ
Azərbaycan Turizm və Menecment Universiteti



Insanların birgə yaşayışı, birgə fəaliyyəti prossesi daima ünsiyyətlə müşayət olunur. Təcrübə göstərir ki, şəxsiyyətlərarası ünsiyyətin xüsusiyyətləri, onun strukturu və s. məsəiələr bir sıra psixolinqvistik əsaslara malikdir. Bir çox halarda ünsiyyət prossesi psixolinqvistik konfliktlərlə müşayət olunur və qarşılıqlı münasibətə neqativ təsir, göstərir. Bu baxımdan psixolinqvistik konfliktlərin mahiyyəti və təzahür xüsusiyyətlərinin aşkara çıxarılması mühüm praktik əhəmiyyət kəsb edir.

Şəxsiyyətlərarası ünsiyyət zamanı nitq janrlarının yeri və təsiri də psixolinqvistik baxımdan diqqəti cəlb edir.

Şəxsiyyətlərarası ünsiyyətin psixolinqvistik məsələlərini aşkara çıxarmaq şəxsiyyətlərarası ünsiyyətin təşkilini idarə etməyə, baş verə biləcək konfliktlərin, uyğunsuzluqların aradan qaldırılmasına köməklik göstərə bilər.

***Şəxsiyyətlərarası ünsiyyət və onun strukturu.***

Ünsiyyət insanlar arasında mürəkkəb qarşılıqlı əlaqə prosesi olub, özündə informasiya mübadiləsi, həmçinin tərəf müqabillərinin bir birini anlaması, qəbul etməsini birləşdirir. Ünsiyyətin subyektləri canlılar, insanlardır. Ümumiyyətlə, ünsiyyət istənilən canlı varlıq üçün xarakterikdir, lakin yalnız insan səviyyəsində ünsiyyət prosesi verbal və qeyri verbal aktlarla əlaqəli, dərkedilən olur.

İnformasiya verən insan kommunikator, alan isə resipient adlanır. Ünsiyyətdə aşağıdakı aspektləri ayırmaq olar: məzmun, məqsəd və üsul.

Ünsiyyət probleminə marağın kökləri uzaq keçmişə gedir. Unsiyyət, insanlar arasında qarşılıqlı ünsiyyət, həmçinin digər insanlarla əlaqə zamanı insanın qarşısına çıxan suallar, həmişə diqqəti özünə cəlb etmişdir.Psixoloq və sosioloq M.M. Baxtin yazır ki, «İnsanlar həqiqi dostluğun varlığını nadir bir şey hesab edirlər». (2,78) Bunun əsasını keçmişlə bağlayırlar.Bu əslində əsl dostluq həsrətidir.Səmimi götürülsə də ünsiyyət şişirdilmiş qəbul edilir. Axı bizim dövrdə insanların həqiqi dostluğuna, onların səmimiliyinə və dost yolunda canından keçməsinə çox rast gəlinir. Lakin indi də yaxın adamlara, sənət yoldaşlarına dostluq münasibətləri hiss edən adam tapmaq çətin deyildir.

***Nitq insanlar arasında dil vasitəsilə ünsiyyət prosesi kimi***

Nitq insanlar arasında ünsiyyət üsulu olub, subyektin sosial cəmiyyətə daxil olmasını şərtləndirir.Məhz nitq vasitəsilə ana körpə ilə ilk əlaqəyə girir, uşaq qruplarında sosial davranışın əsasları qoyulur və ən nəhayət məhz nitq və dil vasitəsilə müəyyən dərəcədə mədəni adət və ənənələr bizim düşüncə tərzimizə, fəaliyyətimizə təsir edir.

Nitq - insanın müxtəliv həyati problemlərinə öz münasibətini şüurlu arqumentlərlə bildirmək üçün əl atdığı vacib vasitədir. Belə ki, bu nitqin ikinci dərəcəli funksiyasıdır: çox az adam məntiqi düşünür, lakin nitq vasitəsilə öz düşüncələrini ifadə edir. Bir çoxları üçün nitq informasiya ötürmək üsulu, canlı mövcudiyyət və daxili vəziyyət barədə fikirləşmək və ya sadəcə olaraq söhbətdən həzz almaq məqsədi daşıyır.

***Nitqin funksiyaları.*** Tətqiqatçılar nitqin üç əsas funksiyasını ayırırlar: kommunikativ, tənzimedici, proqramlaşdırıcı.



Birinci funksiyanı nəzərdən keçirək.Kommunikativ funksiya insanlar arasında dil vasitəsilə ünsiyyəti təmin edir.

Dil - söz işarələri sistemi olub, insanlar arasında ünsiyyətin həyata keçirilməsi vasitəsidir.

Nitq - insanların ünsiyyət məqsədilə dildən istifadəsi prossesidir.

İnsanlar cəmiyyətdə yaşayır və yaşayacaqlar.Cəmiyyət həyatı və əmək insanları daima ünsiyyətdə olmaq və bir-birilə əlaqədə olmağa vadar edir.

Ünsiyyət məfhumu adı altında bir fərddən digərinə hər hansı məlumatın ötürülməsi başa düşülməməlidir. K. Marks demişdir: «Kommunikasiya insanların cəmiyyətdə yalnız qarşılıqlı fəaliyyəti deyil, hər şeydən əvvəl insanların cəmiyyət üzvləri - «cəmiyyət fərdləri» kimi qarşılıqlı fəaliyyətidir.»İbtidai insan kollektivi üçün bu fikri belə açmaq olar.Nitq, yalnız əmək zamanı ünsiyyət deyil, həçinin əmək üçün ünsiyyətdir.Bir sözlə nitq cəmiyyətin, sosial qrupun birgə fəaliyyəti və həyatı üçün deyil, bu fəaliyyətin təşkil edilməsi üsullarından biridir.Nitq mahiyyətcə nə fərdin işi, nə də ayrı dil daşıyıcılarının işi deyil, o hər şeydən əvvəl cəmiyyətin xüsusi dil daşıyıcıları vasitəsilə həyata keçirilən daxili aktivliyidir.

Söz vasitəsilə insan əşya və ətraf aləm haqqında başqa heç bir vasitə olmadan bilik əldə edir. Söz simvolları sistemi insanın ətraf mühitə öyrəşməsi, təbiət və sosial həyata bələdçilik bacarığını artırır. İnsan oğlu tərəfindən toplanmış, şifahi və yazılı nitq vasitəsilə fiksə edilmiş biliyin köməyi ilə insan keçmiş və gələcəklə əlaqəyə girir.

Dil özündə işarələr sistemi və onların yaradılması qaydalarını əks etdirir.İnsan dili həyat fəaliyyəti zamanı qazanır.Onun hansı dili doğma qəbul etməsi yaşadığı mühit və tərbiyə şəraitindən asılıdır. Dilin qəbul edilməsi üçün kritik dövr mövcuddur.On yaşdan sonra nitq mərkəzinin qurulması üçün vacib olan neyron şəbəkəsinin inkişaf qabiliyyəti itir.Mauqli nitq funksiyalarının itməsinə bədii nümunədir. İnsan çox dilə yiyələnə bilər.Bu o deməkdir ki, o, şifahi və yazılı olaraq bir obyekti müxtəlif simvollarla adlandırmaq qabiliyyətindən istifadə edir.İkinci və digər dillərin öyrənilməsində ana dilinin öyrənilməsi zamanı yaranan əsəb şəbəkəsindən istifadə edilir.Hal-hazırda 2500-dən çox inkişaf edən dil var.

Dil biliyi nəsildən nəsilə verilmir, lakin insanda nitq vasitəsilə ünsiyyət və dilə yiyələnmə üçün genetik zəmin mövcuddur.Onlar mərkəzi əsəb sistemi ilə bərabər nitq aparatı, qırtlaqda yerləşib. Ambidekslər - yarımkürənin funksional asimmetriyası az ifadə olunmuş şəxslərdir ki, bu səbəbdən də onlar daha inkişaf etmiş dil qabiliyyətinə malik olurlar.

***Psixolinqvistik konfliktin mahiyyəti və təzahür xüsusiyyətləri.***

Elmin hüquqi aspektinə müraciət problemin nəzəri və praktik əhəmiyyəti ilə şərtlənir. Bu iki elmin- hüquqşünaslıq və dilçilik elmlərinin nəaliiyətidir. Bu isə özünü insanların qarşılıqlı fəaliyyəti, onların əlaqəsindən-onların məqsədiəri, fikirləri, maraqları, nəzər nöqtələrindən doğan mübahisələrdə özünü göstərir. «Konflikt» anlamı bir çox elmlərin- sosiologiya, psixologiya, pedoqogika, hüquqşünaslıq, dilçilik kimi elmlərin öyrənmə obyekinə çevrilmişdir, beləki anlaşılmazlıq və münaqişə demək olar ki, insan həyatının bütün sahələrində sənət, şəxsi, məişətdə meydana çıxır. Konflikt dedikdə (conflictus - latın dilində qarşıdurma, münaqişə) aşağıdakı vəziyyətləri başa düşürük:

1. münaqişə
2. iki tərəf (konflikt iştirakçıları)
3. maraq, məqsəd, baxış ayrılığı

Konflikt kommunikativ əlaqə bazasında törəyə bilər. Mövqeyin ziddiyjəti və ya fikri fəaliyyət başlayan münaqişənin elementi ola bilməz. Həmçinin bir iştirakçının fəaliiyəti konflikt demək deyildir. N.Q. Komlevə görə, konflikt iki halda baş verir: ünsiyyətdə olanların strateji və taktik tam qarşılıqlı əməkdaşlığı əsasında ideal qurulmuş interaksiya şəraitində və onlar arasında hər hansı əlaqənin yoxluğu şəraitində (4, 57) konflikt nəzəriyyəsində ən vacib suallardan biri konfliktin təbiətinin başa düşülməsi və qiymətləndirilməsidir. O, insanın öz təbiətini anlaması ilə bağlıdır. Burada ən əsası -fərdi və ya sosial sualını cavablandırmaqdır.

Konfliktin yaranmasını izləyən tədqiqatçının mövqeyindən çıxış edərək, konfliktin səbəb və xarakterini müəyyən edən iki parametri göstərə bilərik.

*Birinci parametr* - davranışı daxili (psixoloji) və xarici (sosial) faktorlar kompleksi ilə şərtlənən konflikt iştirakçılarının bilavasitə iştirakı.. Xarici faktorlara nitq davranışını tənzim edən, danışınların mənsub olduğu müəyyən etnomədəni cəmiyyətdə, peşə qrupunda yerləşən norma və ənənələri aid edək; bu, cəmiyyətdə qəbul edilmiş konvensiyalar, şəxs tərəfindən qəbul edilmiş və sosial əhəmiyyət qəbul etmiş nitq davranışı sxemləri; kommunikantların sosial status, sənət, milli mənsubiyyət, yaş və s. tərəfindən müəyyən edilən sosial rollar yerinə yetirməsi ola bilər. Daxili faktorlara konflikt iştirakçılarının davranışını müəyən edən, məs., subyektlərin özlərinin şərtləşdirdiyi xüsusiyyətlər: şəxsiyyət tipləri (psixoloji və kommunikativ), maraqlar, motivlər, intensiyalar, konflikt iştirakçılarının baxışları və s. aiddir. (5, 122)

*İkinci parametr* - dil və nitqdir. Burada da daxili və xarici nizam əsas götürülür.Dilin sosial əhəmiyyəti, onun konvensional təbiəti dili eyni dildə danışanlar, ünsiyyətdə olanların anlaması üçün şərait yaradan vahid şifrə kimi nəzərdən keçirməyə imkan yaradır və dil barədə nitq ünsiyyətində əlaqənin yaradılması üsulu kimi danışır. Digər element nitqdir.Nitq -fərdi anlam olub, müəllifdən asılı olaraq dil resurslarının yaradıcı və təkrarolunmaz istifadəsidir.Şəraitdən asılılıq, nitqin variativliyi bir tərəfdən müəyyən məzmun üçün ifadənin seçilməsi imkanı verir, digər tərəfdən nitqi özünəməxsus, digər insanın nitqindən fərqli edir.Dil üsullarından düzgün istifadə, məzmunun dəqiq çatdırılması bacarığı -ünsiyyəti harmonizə edir.

Dildə olduğu kimi, nitqdə də kommunikasiya subyektlərini konfliktə aparan əngəl, anlaşılmazlıq yaradan xüsusiyyətlər gizlənir. Dil işarələrini təbiəti (leksik və qrammatik çoxmənalılıq, omonimlik, dinamiklik, variativlik, «ifadə edən» və «ifadə edilən», həmçinin işarə və denotat arasında təbii əlaqənin olmaması), dil vahidlərinin ikili təbiəti (üsullar sistemində bu və ya digər daxili sistem çərçivəsində tərkib hissələrinə ayrıla bilməyən işarə kimi ilk məna anlamı, həmçinin digər işarələrlə bir sırada duran tərkib hissələrinə ayrıla bilən işarə kimi ikinci məna anlamı (6, 25) dil işarələrinin elastikliyi

fonunda nitq səviyyəsində müxtəlif dil işarələrinin məzmununun doldurulmasına imkan yaradır. Nəticədə dil vahidi və nitq vahidi kimi işarələrin məzmununun həcmi üst-üstə düşmür (8, 143), beləki bu onların çoxmənalı interpretasiyasına, başqa mənaların yaranmasına, bu isə öz növbəsində nitq konflikti siqnalları olan anlaşılmazlığa, arzuedilməz emosional effektlərə, nitq ünsiyyətində gərginliyə səbəb ola bilər. Bu və digər xüsusiyyətlər (7, 82) dilin daxilində yaşayır və həyata keçirilməsi üçün onu hərəkətə gətirən mexanizm tələb edən konfliktogen potensial daşıyır. Bu mexanizm nitqdir: yalnız «virtual dil işarəsi» nitq aktı ilə birgə öz həqiqi mənasını göstərir və bununla də konfliktyaradan xüsusiyyətini üzə çıxartmış olur. Lakin belə xüsusiyyətlərə malik olan dil işarəsi heç də həmişə deyim zamanı onu üzə çıxartmır. Aktuallaşdırma və onun əksi risk şəraiti yaradən, kommuntkativ konfliktlərə zəmin yaradan dil işarəsi sistemidir, bütövlükdə əsasını kommunikasiya subyektləri təşkil edən ünsiyyət şəraitindən asılıdır. Onun kommunikativ təcrübəsi, dil rəqabəti, dil zövqü, dil və nitq problemlərinə münasibət, fərdi dil vərdişləri və digər xüsusiyyətlər müəyyən şəraitdə üzə çıxan kommunikativ maneələri aşmaq və ya onları düzəltmək və şəraiti əvvəlki vəziyyətə salmağa kömək edir.

Psixoloji və linqvistik xarakterin mexanizmləri yaxın qarşılıqlı əlaqədədirlər.Bir tərəfdən, dil və nitq psixoloji mexanizmləri hərəkətə gətirən mexanizmdir. S və A şifrəsinin struktur və həcmində ziddiyyət müdafiyə məqsədli aqqressiyaya gətirib çıxara bilər. Məs., dialoqda

*- O, ağıllı, irəli gedən qızdır, demək olar ki feministdir sən feminist deyilsən?*

*- Belə söz bilmirəm - Jina dişlərini qıcadı...*

*- Cek, hamı onu tanıyır*

Aqressivlik həmsöhbətin dil səriştəsizliyi (söz və onun mənasını bilməməsi) zəminində baş verir və ondan özünümüdafiə üsulu kimi istifadə edilir (müqayisə edək dişlərini qıcamaq - l.kimisə dişləməklə hədələyərək sərt acıqlı mırıldanma (it); 2. Acıqla, kobud surətdə hər hansı suala cavab vermək). Başqa bir misal. S -in təhqiredici sözlərinə və hücumuna cavab olaraq A-nın dilucu təhqir sözlərindən istifadəsi ilə nəticələnən kommunikativ situasiya iştirakçılarının qarşıdurması:

*- Siz, Ceyn, saçınızla pişik quyruğu ilə oynayan kimi oynayırsınız, - deyə artıq hirslənən Cek ikrahla dilləndi.*

*- Siz isə, Cek əsl itsiniz.*

Digər tərəfdən, dil və nitq konflikt vəziyyətinin iştirakçısının davranışına psixoloji təsir mexanizmi ilə təsirinin nəticəsi kimi çıxış edir.Belə ki qarşı tərəfin qeyri-düzgün qəbul edilmiş söz, hərəkət və intenasiyaları ilə əlaqədar qəbul edilmiş odekvat olmayan müdafiə xarakterli fəaliyyət konfliktin meydana çıxmasına səbəb olur.A.P. Çexovun «Məmurun ölümü» hekayəsindən kommunikativ vəziyyəti nəzərdən kesirək.İvan Dmitri Çeryakov adlı bir məmur teatrda olarkən asqırır.

... Hamı asqırır.Çeryakov bir qədər pərt oldu, cib dəsmaıı ilə silindi və ədəbli bir insan kimi (diqqət yetirin!) kimi isə narahat edib-etməməsini bilməkdən ötrü ətrafına nəzər saldı.Lakin bu zaman pərt oldu. O qarşı tərəfdə əyləşmiş bir qocarın dəsmalı ilə keçəl başını sildiyini və nə isə donquldadığını gördü. Çeryakov qocaya diqqətlə baxdıqda onun mülki müşavir generalı olan Brizjalovu tanıdı.

Burada obyektiv konflikt vəziyyəti mövcud deyil. Subyektlər arasında heç bir qarşıdurma yoxdur və situasiya bu ana kimi konflikt kimi qəbul edilmir,

*-Bunu mən etdim! - Çeryakov düşündü. - o, mənim rəisim deyil, yaddır, lakin yenə də yaxşı deyil. Üzrxahlıq etmək lazımdır.*

Qəbul edilmiş ilk fikir verbal olaraq ifadə edilmir və buna görə də başlanmış kofliktin elementi kimi qəbul edilmir.

*Çeryakov öskürdü, irəli əyildi və generalın qulağına pıçıldadı:- Üzr istəyirəm, sizi mən islatdım.. .istəmədən oldu. - Eybi yoxdur, eybi yoxdur.. - Siz allah bağışlayın, mən istəmirdim! - Ah əyləşin, zəhmət olmasa! İcazə verin qulaq asaq!*

Kommunikativ əlaqə baş verdi. Əvvəlki kimi heç bir qarşıdurma mövcud deyil, buna baxmayaraq tərəflərdən biri, Çeryakov gərginlik və narahatçılıq hiss edərək hərəkətə başlayır.Beləliklə də sosial-konfliktologiyada «yalançı» konflikt adlandırılan, tərəflərdən birinin özünü günahkar hiss etməsinə baxmayaraq, obyektiv konflikt şəraiti olmayan situasiya meydana çıxır.

Yalançı konflikt tərəflərdən birinin vəziyyəti qeyri düzgün, digərinin isə adekvat olaraq qəbul etməsi nəticəsində meydana çıxır. Nəticədə birinci tərəf müdafiə xarakterli fəaliyyət göstərir, ikincə tərəf isə cavab verir:

*İcazə verin qulaq asaq! Hövsələsizcəsinə ait dodaqlarını tərpətdi... Allah bilir nə!*

Beləliklə real konflikt vəziyyəti formalaşır və ikinci tərəf də şəraiti konflikt kimi qiymətləndirir ki, bu da generalın son ifadəsindən aydın olur:

*- Rədd olun!!! - deyə qızarmış və hirslənmiş general ayaqlarını yerə çırparaq bağırdı...*

***<u>Konflikt vəziyyətində özünü göstərən nitq strategiyası tipləri</u>***

Kommunikativ konfliktlərdə dil şəxsiyyətlərinin nitq davranışının müxtəlif strategiyaları ayrılır. Bu bölgü danışanların temperamenti, tərbiyəsivə s. ilə bağlı fərdi-şəxsiyyət xarateristikasına əsaslanır. Konflikt vəziyyətində istifadə edilən dil formalarının müxtəlifliyi nitq strategiyalarının üç tipi ilə bağlı olabilər: invektiv (açıq nitq), kurtuaz (nəzakətli), rasional-evristik tiplər. Vahid tipoloji prinsip kimi burada frustrasiyanı aradan qaldırmaq məqsədilə dil şəxsiyyətinin istifadə etdiyi affektiv davranışın xüsusiyyətlərindən istifadə edilir. Hər birini ayrı-ayrılıqda nəzərdən keçirək.

1. İnvektiv strategiya. Bu tip konflikt davranışı alçaldıldıcı sözlərdən istifadə edir: kommunikativ təzahür burada emosional-bioloji reaksiyaların inikası kimi çıxış edir və dava, söyüş (invektiv) formasında affektiv boşalma ilə nəticələnir.

2. Kurtuaz strategiya. Əksinə olaraq nitq davranışının yüksək semiotikliyi ilə fərqlənir. Burada danışan sosial etiket formalarına meyl göstərir. Özündən çıxmanın son nəticəsi kimi burada ağlamağa üstünlük verilir.

3. Rasional-evristik strategiya. Konflikt vəziyyətində bu tip nitq davranışı şüurluluq, sağlam fikrə istinad edir. Bu tip boşalma affektiv reaksiya kimi gülüşə meyl edir. Bu halda neqativ emosiya vasitəli, qeyri-səmimi üsulla ifadə olunur.

***<u>Nitq janrları və onların ünsiyyətdə yeri</u>***

Ünsiyyətin iştirakçılarının qarşılıqlı nitq (həmçinin konfliktli) fəaliyyətinin baş verdiyi arena kommunikativ şərait hesab edilir. M. M. Baxtin düzgün olaraq qeyd etmişdir: "hər hansı bir ifadə, əhəmiyyətliliyindən və özlüyündə sona çatmasından asılı olmayaraq yalnız aramsız nitqin bir hissəsini təşkil edir". Buradan konkret bir qarşılıqlı əlaqənin qeyri-verbal situasiya ilə əlaqəsinin araşdırılması problemi ortaya çıxır. Bu əlaqənin formaları müxtəlifdir və vəziyyətin fərqli formalarında fərqlə mənalar meydana çıxa bilər. Nitq ünsiyyəti heç bir zaman konkret situasiya ilə bağlı olan bu əlaqədən kənarda başa düşülə və izah edilə bilməz". İnsanların qarşılıqlı sosial ünsiyyətinin verbal-işarə tərtibi nitq janrları adlandırılır.

Nitq janrları probleminin öyrənilməsi problemini ilk dəfə M. M. Baxtin ortaya atmışdır. (2, 45).

Müasir dövrdə insan, xüsusilə də şəxsiyyət amili bütün humanitar elmlərin maraq dairəsinə daxil olmuşdur və bu problemin praktik olaraq öyrənilməsinə başlanılmışdır. Psixologiyada şəxsiyyət cəmiyyətdən izolə edilmiş halda deyil, cəmiyyətin subyektləri olan şəxsiyyələrin qarşılıqlı əlaqəsi çərçivəsində öyrənilir. Bizim mövzumuz da məhz bu şəxsiyyətlərin qarşılıqlı əlaqəsi zamanı özünü göstərən psixolinqvistik münasibətlərdən bəhs edir. İlk növbədə insanların qarşılıqlı əlaqəsi, birgə yaşayışı bu şəxsiyyətlər arasında ünsiyyətin meydana çıxmasını labüd edir. Tədqiqatlar bu cür ünsiyyətin mahiyyətini açmaq, onun strukturunu müəyyənləşdirmək istiqamətində aparılmışdır. Müxtəlif yerli və əcnəbi psixoloq və dilçilərin ünsiyyət barədə fikirləri onun məzmununun tam açılmasına, ünsiyyətin tərəflərinin müəyyən edilməsinə, müxtəlif növ bölgülərinin verilməsinə kömək edir.

Aparılmış tədqiqatlar ünsiyyətdə əsas əhəmiyyət kəsb edən nitqin insanlar arasında dil vasitəsilə ünsiyyət prossesi kimi qiymətləndirilməsinə imkan verir. Nitq- insanların ünsiyyət məqsədilə dildən istifadəsi prossesidir. Necə etmək olar ki həyat yoldaşınız, müəlliminiz, müdiriniz və ya sizə xoş gələn əks cinsin nümayəndəsi ilə ünsiyyətiniz effektiv olsun. Bütün bu kimi sualları nitq kommunikasiyasının incəliklərinə daxil olmaqla cavablandırmaq olar.

Bəzən bu cür ünsiyyət prossesi uğurlarla yanaşı uğursuzluqlarla müşayət olunur. Komlevin fikrinə görə ünsiyyətdə olanların strateji və taktik tam qarşılıqlı əməkdaşlığı əsasında ideal qurulmuş interaksiya şəraiti və onlar arasında hər hansı əlaqənin yoxluğu konfliktlə nəticələnə bilər. Konflikt latın dilindən tərcümədə «conflictus» - qarşıdurma, münaqişə mənasını verir, konfliktin əsasını münaqişə, münaqişədə olan ən azı iki şəxs, onlar arasında maraq, məqsəd, baxış ayrılığı, tərəflərdən birinin digərinə şüurlu və aktiv zərbəsi, ikinci tərəfin birinci əleyhinə cavab tədbirləri təşkil edir.

Konflikt vəziyyətində özünü göstərən nitq strategiyası tipləri tədqiqat işində xüsusi maraq kəsb edir. Yerli və əcnəbi tədqiqatçıların əsərlərindən gətirilmiş misallarla konfliktlərin səbəbləri göstərilmiş, onların qarşısının alınması və onlardan çıxış yolları göstərilmişdir. Bu tədqiqatçıların nəzər nöqtələri qarşı-qarşıya qoyularaq vahid nitq strategiyaları müəyyənləşdirilmişdir.

Şəxsiyyətlərarası ünsiyyət zamanı meydana çıxan psixolinqvistik münasibətlərdə nitq janrları, onların təzahür xüsusiyyətləri diqqəti cəlb edir. İnsanların qarşılıqlı sosial ünsiyyətlərinin verbal işarə tərtibi nitq janrları adlandırılır. Problem ilk dəfə M.M. Baxtin tərəfindən ortaya atılmış vəbununla da antroposentrik dilçiliyin, janrçılığın əsası qoyulmuşdur.

Aparılmış tədqiqatlar göstərir ki, şəxsiyyətlərarası ünsiyyətin psixolinqvistik münasibətlərini bu elementlərsiz təsəvvür etmək olmaz. Ünsiyyət olmadan insan cəmiyyəti mövcud olmazdı, nitq ünsiyyəti olmadan insan ünsiyyəti digər canlıların ünsiyyətindən fərqlənməzdi və yaxud konfliktlərsizjnsan ünsiyyəti mənasız və maraqız gorunərdı. Göründüyü kimi bu elementlər də öz daxillərində bir-birləri ilə qarşılıqlı əlaqədədir və şəxsiyyətlərarası ünsiyyətin tamlığını təmin edir.

## ƏDƏBİYYAT


*1. Андреева Г.М. Социальная психология. - М., Аспект Пресс, 1996*

*2. Бахтин М.М. Проблема речевых жанров // Бахтин М М. Собрание сочинений в семи томах. М.: Русские словари, 1996. Т.5. С. 165.*

*3. Булыгина Т В., Шмелев А.Д. Приемы языковой демагогии. Апелляцияреальности как демагогический прием // Языковая концептуализация мира (на материале русской грамматики). М., 1997.*

*4. Комлев Н.Г. Лингво-семантические мотивы возникнове -нияи разрешения межперсонального конфликта // Тез.VI всесоюз. симп по психолингвистике и теории коммуникации М , 1978*

*5. Третьякова В С. Речевое поведение учителя с установкой на конфликт // Проблемы лингвистического образования школьников: Материалы науч. - практич. конф Екатеринбург, 28-29 марта 2000 г. Екатеринбург, 2000.*

*6. Уфимцева А.А. Знак языковой // Лингвистический энциклопедичес- кий словарь. М.,1990*

*7. Ильенко С.Г К поискам ориентиров речевой конфликтологии // Аспекты речевой конфликтологии: Сб.ст. СПб., 1996*

*8. Сердобинцев Н Я.Семантическая структура слова и его коннотация Теория слова и функционирования словесных единиц. Саратов, 1981*



***Key words:*** *psycholinguistic relations, speech communication, conflict, speech strategy, interpersonal communication, genres of speech, communication process*

***Ключевые слова:*** *психолингвистические отношения, речевое общение, конфликт, стратегия речи, межличностное общение, жанры речи, процесс общения*


## SUMMARY


Our article deals with psycholinguistic attitudes that showcase the relationship between personalities. The conducted researches provide a basic understanding of communication as a means of communication through language. Sometimes this communication process is accompanied by failure along with successes. The types of speech strategies in conflict situations are of particular interest in the article. Studies have shown that the psycholinguistic relationship between interpersonal communications can not be imagined without these elements. Human society would not exist without communication, human communication would not be different from the interaction of other creatures, or without the conflict, human communication would be meaningless and uninteresting.


## РЕЗЮМЕ


Данная тема повествует о психолингвистических отношениях, проявляющихся процессе взаимоотношений между личностями. Проведенные исследования дают возможность оценивать речь как основной фактор межличностного общения. Иногда процесс такого рода может сопровождаться как успехами, так и неудачами. Особый интерес в исследовании представляют типы разговорной стратегии в конфликтных ситуациях. Проведенные исследования показывают невозможность представления межличностных психолингвистических отношений без этих элементов. Человеческое общество не существовало бы без общения, без разговорного общения межличностные отношения были бы на уровне (не отличались бы) от отношений других живых существ. Или же без конфликтное общение было бы бессмысленным и неинтересным.

# Tarix

## 1960-1970-ci İLLƏRDƏ ROCER SEYVORİNİN ƏSƏRLƏRİNDƏ AZƏRBAYCAN SƏFƏVİ DÖVLƏTİNİN TARİXİNİN TƏDQİQİNƏ DAİR

LAMİYYƏ NAMAZOVA
AMEA-nın A.Bakıxanov adına
Tarix İnstitutu




Son illərdə Avropa və Şimali Amerikada Səfəvilər dövləti ilə bağlı aparılan araşdırmalar olduqca genişlənmişdir. Bu sahədə yazılan əsərlərin sayı günbəgün artmaqdadır. XX əsrin əvvəllərində təəssüflər olsun ki, Qərbdə Səfəvilər dövlətinin tarixi ilə bağlı yazılan əsərlərdə onu ümumiran tarixi çərçivəsində təqdim etmişlər.

1930-cu illərdən etibarən akademik səviyyədə Səfəvilərin tarixinə maraq yaransa da, bu 70-ci illərə qədər məhdud çərçivədə qalmaqda davam etmişdir. Lakin 80-ci illərdən etibarən Britaniya doğumlu Toronto Universitetinin əməkdar professsoru, İranşünas və Səfəvilər dövrü üzrə mütəxəssis Rocer Seyvorinin xidmətləri ilə Səfəvilər dövlətinin tarixi ilə bağlı araşdırmalar daha da genişləndi.

Rocer Mervin Seyvori 27 yanvar 1925-ci ildə Böyük Britaniyanın Şərqi Ingiltərə regionunun Piterboro şəhərində anadan olmuşdur [4,386]. 1943-1947-ci illərdə Hamilton Gibb, Cozef Sçaçt və Riçard Valzer kimi tanınmış alimlərin təsiri altında o, İranşünaslıq elminin tədqiqinə başlamışdır [12]. 1950-ci ildə Oksford Universitetində şərqşünaslıq üzrə bakalavr təhsilini tamamlayan Seyvori, 1958-ci ildə London Universitetində Ann Lambton və Vladimir Minorskinin rəhbərlikləri altında fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün "İsmayıl və Təhmasib dövründə erkən Səfəvi dövlətinin inkişafı (XVI əsr fars mənbələrinin tədqiqi əsasında)" adlı dissertasiyasını müdafiə edir. Dissertasiyada Səfəvi dövlətinin yaranmasından XVI əsrin 70-ci illərinin ortalarına kimi keçdiyi təkamül yolu öz əksini tapmıdşır. Qeyd etmək lazımdır ki, R.Seyvori özünün müəllimi və elmi rəhbərlərindən biri olan Vladimir Minorski haqqında fikirlərini daha sonra məqalə halında dərc etdirmişdir [10].

1950-1960-cı illərdə London Universitetinin Şərq və Afrika Tədqiqatları Məktəbində farsca mühazirə oxumağa başlayan R.Seyvori, 1960-1961-ci illərdə eyni Universitetdə Yaxın Şərq elmləri üzrə dosent vəzifəsində çalışır. O, 1961-1965-ci illərdə İslamşünaslıq üzrə dosent, 1965-1968-ci illərdə eyni sahə üzrə professor və sədr müavini vəzifələrində fəaliyyətini davam etdirmiş, 1968-1973-ci illərdə hətta sədr kimi çalışsa da 1973-ci ildən fəaliyyətinə professor kimi davam etmişdir [4,386].

1976-1987-ci illərdə Toronto Universitetində Orta Şərq və İslam elmləri üzrə professor vəzifəsində çalışan R.Seyvori 1987-ci ildən bugünə kimi Toronto Universitetinin əməkdar professoru kimi fəaliyyət göstərməkdədir.

Rocer Seyvori Səfəvilər dövlətinin siyasi tarixi, iqtisadi həyatı, beynəlxalq ticarət əlaqələri, sosial-iqtisadi quruluşu, ordu quruculuğu, memarlığı, sənətkarlığı kimi fərqli sahələr üzrə müxtəlif araşdırmalar ərsəyə gətirmişdir. Bundan başqa, R.Seyvori yaradıcılığında Səfəvi şiəliyi və üləma məsələlərinə də toxunmuşdur. Ümumilikdə, yaradıcılığı dövründə onun yazmış olduğu əsərləri çap olunma formasına görə aşağıdakı kimi qruplaşdırmaq olar [7, XIII-XXV]:

- Özünün müəllifi və ya həmmüəllifi olduğu, eyni zamanda tərcümə etdiyi kitablar;
- Müxtəlif kitablarda yazmış olduğu fəsillər;
- Ensiklopediyalarda və müxtəlif sorğu kitablarında yazdığı materiallar (və ya qeydlər);
- Akademik jurnallarda çap olunan məqalələri və kitab icmalları.

Yaradıcılığı dövründə onun müəllifi və ya həmmüəllifi olduğu, eyni zamanda tərcümə etdiyi kitabların sayı 7-dir. Rocer Seyvori 1978-ci ildə Səfəvi dövrünün mühüm qaynaqlarından olan İsgəndər bəy Münşinin "Tarixi alem-areyi Abbasi" ("Dünyanı bəzəyən Abbasın tarixi") əsərini ingilis dilinə tərcümə etmişdir [5; 6].

R.Seyvorinin Səfəvilər dövlətinin tarixi ilə bağlı fundamental

əsəri “İran Səfəvilərin hakimiyyəti altında” adlı monoqrafiyasıdır. Onun bu əsəri ilk dəfə 1980-ci ildə çap olunsa da, daha sonrakı dövrlərdə təkrar nəşr olunmuşdur [8]. Məşhur tarixçinin Səfəvilərə həsr etdiyi bu kitabda siyasi, sosial, ədəbi və bədii baxımdan Səfəvi dövlətinin tarixinə (1501-1722) dair apardığı bütün tədqiqat kolleksiyası toplanmışdır.

1960-1970-ci illərdə R.M.Seyvori Səfəvilər dövlətinin daxili, hərbi-siyasi və diplomatik əlaqələrindən bəhs edən xeyli məqalə nəşr etdirmişdir. Onun yazdığı məqalələrin bir hissəsi 1987-ci ildə “İran Səfəvilər dövlətinin tarixinə dair təd-qiqatlar” başlığı altında toplu şəklində Londonda çap olunmuşdur [11]. Çap olunmuş topluya onun müxtəlif kitablarda və akademik jurnallarda işıq üzü görən məqalələrinin çox mühüm bir qismi daxil olmuşdur.

Müqəddimə ilə başlayan məqalələr toplusunun birinci fəsli “Səfəvilərin hakimiyyətə yüksəlişi” adlanır və R.Seyvorinin üç məqaləsini əhatə edir. Kitabın ilk məqaləsi onun 1964-cü ildə “Der Islam” jurnalında nəşr olunan “Teymurun ölümündən sonra İranda hakimiyyət uğrunda mübarizə” adlanır. Burada Teymurun ölümündən I Şah İsmayılın Təbrizdə taxta çıxmasına qədər olan tarixi dövr ərzində baş verən hadisələr əks olunuşdur [11,I,35].

“XV əsr Heratda Səfəvi təbliğatı” adlı ikinci məqalədə XV əsr Səfəvilərin görkəmli şəxslərindən Qasim əl-Ənvar kimi tanınan Muinəddin Əli Huseyni Sərabi Təbrizinin fəaliyyəti əks olunub [11,II,189]. Bu məqalə 1969-cu ildə D.Sinorun redaktəsi ilə nəşr olunan “The American Oriental Society, Middle West Branch Semi-Centennial Volume” adlı məqalələr toplusunda çap olunmuşdur.

Üçüncü məqalə “İranda Səfəvi hakimiyyətinin möhkəmlənməsi” adlanır və 1965-ci ildə “Der Islam” jurnalında çap olunmuşdur. R.Seyvori məqaləsində Şah İsmayılın idarəçiliyinin Banqladeş doğumlu britaniyalı yazar Qulam Sərvərin “Şah İsmayıl Səfəvinin tarixi” adlı əsərində yetərincə işıqlandırıldığını qeyd edərək, bu məqaləni yazmaqda məqsədinin Qulam Sərvərin istifadə etmədiyi mənbələrlərdən materiallar əlavə edərək Səfəvi imperiyasının yaranmasının qısa icmalını verməklə onun işini bir növ tamamlamaq olduğunu göstərir [11,III,71].

Kitabdakı növbəti bölmə Səfəvi idarəçilik sisteminə həsr olunub və R.Sey-vorinin bununla bağlı müxtəlif illərdə nəşr olunan dörd məqaləsi verilib.

“I İsmayılın (907-30 /1501-24) idarəçiliyi müddətində Səfəvi dövlətinin mərkəzi büroları” adlı məqalə bölmədəki ilk üç məqalə kimi “Bulletin of the School of Oriental and African Studies” jurnalında Londonda (1960-cı il) dərc olunub. Məqalədə I Şah İsmayılın hakimiyyət illərində Sufi təşkilatını Səfəvi idarəçiliyinə daxil etməklə dəyişiklik və struktur yenidənqurma cəhdinin uğursuzluğundan bəhs edən R.Seyvori, eyni zamanda, idarəçilik sistemindəki bəzi vəzifələrin (vəkil, əmir əl ümara, qorçubaşı, vəzir, sədr) dövrlər üzrə öhdəliklərini təhlil edir [11,IV,91-93].

Bir il sonra eyni jurnalda R.M.Seyvorinin çap olunan “I Təhmasibin (930-84 / 1524-76) idarəçiliyi dövründə Səfəvi dövlətinin mərkəzi aparatı” başlıqlı mə-qaləsində I Təhmasibin hakimiyyət dövrünü mühüm dəyişiklik və təkamül dövrü kimi qiymətləndirir. Məqalədə Div Sultan Rumlu, Çuxa Sultan Təkəli və Köpək Sultan Ustaclı triumviratının dövlət işlərinin idarə olunmasındakı rollarından, eyni zamanda, idarəçilik sistemindəki məmurların vəzifə və səlahiyyətlərinin əvvəlki dövrlə müqayisədə genişləndirilməsindən və ya əksinə nisbətən məhdudlaşdırılması məsələlərindən bəhs olunur [11,V,65-71].

Qeyd etmək yerinə düşər ki, Qərbdə olduğu kimi, Vətən tarixşünaslığında da Səfəvilər dövlətinin tarixinə marağın artması ilə eyni ildə O.Əfəndiyev tərəfindən xüsusi monaqrafiya yazılmış və Səfəvi dövlətinin məhz mərkəzləşdirilmiş Azərbaycan dövləti olduğu sübut edilmişdir [2].

R.Seyvori 1964-cü ildə nəşr olunan “Erkən Səfəvi imperiyasının əyalət ida-rəçiliyi haqda bəzi qeydlər” adlı məqaləsində Səfəvilərin əyalət idarəçilik sisteminin mürəkkəbliyindən bəhs edərək yüksək çinli məmurlarla yanaşı, əyalət idarəçiliyində iştirak edən digər məmurlar (vali, hakim, bəylərbəyi və bəzən darğa, və ya tiyuldar) haqda da məlumat vermişdir [11,VI,114-116].

Göründüyü kimi, XX əsrin 60-cı illərində R.Seyvorinin çap olunmuş məqalələrində başlıca diqqət Səfəvi dövlətinin mərkəzi və yerli idarəçilik məsə-lələrinə yönəldilmişdir.

İkinci bölmədə sonuncu olan “Şah I Təhmasib dövründə (1524-76) katiblik kariyerası” adlı məqalə 1963-cü ildə və digərlərindən fərqli olaraq “Islamic Studies: Journal of the Central Institute of Islamic Research, Karachi” jurnalında nəşr edilib. Seyvori məqalənin giriş hissəsində yazır: “XVI əsr və ümumiyyətlə Səfəvi tarixini öyrənmək üçün mühüm mənbə olan, II Şah İsmayıla həsr olunaraq tamamlanması 984 /1576-7-ci ilə təsadüf edən “Cəvahir əl-əxbar” xronikasının mühümlüyünə diqqət yetirən ilk dəfə professor Valter Hins olmuşdur. Originalı Leninqrad kitabxanasında saxlanılan bu iş, 930 /1523-4-cü illərdə hələ 14 yaşı olarkən Səfəvi saray katibliyinə daxil olmuş və demək olar ki, Şah Təhmasibin bütün hakimiyyəti boyunca Səfəvi bürokratiyasının, xüsusi ilə mailiyyə idarəçilik sistemində işləmiş nümayəndəsi Budaq Münşi Qazvini tərəfindən yazılmışdır. V.Minorski, V.Hins, H.Busse Səfəvi maliyyə idarəçiliyi sahəsinə aid bir sıra terminləri üzə çıxarsalar da, Budaq Münşi tərəfindən işlədilən bəzi terminlər haqqında yalnız fərziyə yürütmək olar” [11,VII,343]. R.Seyvori bu məqaləsində sözügedən əsərin qısa tərcümə və təhlilini vermişdir.

Topludakı Səfəvi dövlətinin siyasət məsələlərindən bəhs olunan üçüncü bölmə müxtəlif illərdə nəşr olunan beş məqalədən ibarətdir.

1971-ci ildə “Iran-Shinasi: Journal of Iranian Studies, Faculty of Letters and Humanities” jurnalında nəşr etdirdiyi “Səfəvilərin tabeliyində müasir fars dövlətinin yaranması” adlı məqaləsinə görə bəlkə də qınanacağını yazan R.Seyvori qeyd edir ki, “Fikrimcə, özünün idarəetmə sistemi və qaydaları, tanınan sərhədləri daxilində mərkəzi idarəçiliyə subyekt olan Fars dövləti Səfəvilərin tabeliyinə keçdi” [11,VIII,1]. R.Seyvori Səfəvi dövlətinin hərbi aristokratiyasının, elitasının farslardan yox, türkmənlərdən ibarət olduğunu, qızılbaşlar olmadan dövlətin qurula bilməyəcəyini yazaraq, Səfəvilərin “dinamik ideologiyası”nın etnik nasionalizmdən ibarət olmadığını qeyd edir. Səfəvilər dövlətinin “müasir fars dövlətinin” sələfi olub-olması və ya daha sonrakı inkişafında müəyyən cizgiləri ehtiva edib-etməməsi məsələsini aydınlaşdırmağa çalışan müəllif qeyd edir ki, Səfəvilərlə Pəhləvilər arasında oxşar cəhətlər mövcud olmuşdur (baxmayaraq ki, XIX əsr boyunca Səfəvilərin həmişə nominal xarakter daşıyan ərazilərinin böyük hissəsini Qacarlar itirmişdilər)” [11,VIII,1-3].

1974-cü ildə R.M.Seyvori “Səfəvi dövləti və siyasəti” adlı növbəti məqaləsini “Iranian Studies” jurnalında çap etdirir. Müəllif məqalədə onu daha çox maraqlandıran sualın – Səfəvilərin yaratdığı dövlətin fars dövləti olub-olması məsələsini araşdırmağa çalışır və bu məsələni aydınlaşdırmaq üçün ümumi qəbul olunan dövlət xarakteristikalarına baxaraq, Səfəvilərin ona sahib olub-olmadıqlarına nəzər salmağı çalışır [11,IX,179-180].

“Səfəvi dövlətindəki totalitar tendensiyalar haqqında




bəzi düşüncələr" adlı məqaləsinə "Professor Minorskinin İran araşdırmaları sahəsənindəki tədqiqatları içərisində ən əhəmiyyətlilərindən birinin 1943-cü ildə nəşr olunan "Təzkirətül müluk" əsərini tərcümə edib, ona rəy yazması olmuşdur" cümləsi ilə başlayır. Daha sonra o, yazır ki, "V.Minorskinin fikrincə, siyasi vəsait sayılan əsər Səfəvi inzibati idarəçiliyi haqqında olub dövlət təşkilatçılığı barəsində olan faktların daimiliyi və möhkəmliliyi baxımından fars tarixini öyrənmək üçün bəzi səlnamə yazan tarixçilərin ardıcıl döyüşlərdən, təyinat və intriqalar haqqında yazdıqları ilə müqayisədə günümüzə çatan materiallar arasında unikal olanıdır" [11,X,226]. 1976-cı ildə "Der Islam" jurnalında nəşr olunan bu məqalənin adını V.Minorskinin 1725-cı ildə yazılan "Təzkirət əl-müluk" əsərini təhlil edən zaman işlətdiyi "Erkən Səfəvilərin əsas təşkilatı müasir təkpartiyalı sistemli tototalitar dövlətə çox oxşayır" cümləsindən götürdüyünü yazan R.Seyvori Səfəvilər dövlətinin yaranması və inkişaf tarixini ətraflı şəkildə bu məqaləsində yazsa da, o bunu Səfəvilərlə SSRİ-nin bir dövlət kimi yaranmasındakı hadisələri uyğunlaşdırmağa çalışır.

1967-ci ildə "Iran: Journal of the British Institute of Persian Studies" jurnalında çap olunan "Şerli əfsanəsi" adlı məqaləsində Səfəvilərin Çaldıran döyüşü zamanı artilleriyadan və əl alətlərindən niyə istifadə etmədikləri məsələsini qoyan R.Seyvori bu suala cavab tapmağa çalışır. O, bir tərəfdən qeyd edir ki, Səfəvilər odlu silahdan istifadə etməklə tanış deyidilər və odlu silah təqribən bir əsr sonra yəni, I Şah Abbasın dövründə Entoni və Robert Şerli qardaşları tərəfindən İran ərazisinə gətirilmişdir. Digər tərəfdən isə məqaləsində o yazır ki, "Səfəvilər odlu silahla gec tanış olmalarına və ya istifadə edə bilmədikləri üçün yox, sadəcə döyüşdə bu alətləri işlətməmək qərarına gəldiklərinə görə ondan istifadə etməmişlər. Çünkü bəzi Avropa və farsdillli mənbələrin verdiyi məlumatlardan da görünür ki, artilleriyadan istifadə etmək, qoşunların odlu silahlarla təchizi və ondan istifadə bacarığı Səfəvilərdə I Şah Abbas vaxtından xeyli əvvəl olmuşdur" [11,XI,74].

R.Seyvorinin 1980-ci ildə Pakistanda "Hamdard Islamicus: Quarterly Journal of the Hamdard National Foundation" jurnalında işıq üzü görən "Çox darıxdırıcı və çətin oxu: Böyük Şah Abbasın İsgəndər bəy Münşi tərəfindən yenidən qiymətləndirilməsi" adlı məqaləsində İsgəndər bəy Münşinin "Tarix-i aləmara-yi Abbasi" əsərini bütünlükdə ingilis dilinə tərcüməsi və bir sıra Qərb tarixçilərinin əsər haqqında qısa icmal xarakterli məlumatı öz əksini tapmışdır [11,XII,19-21].

Məqalələr toplusunda sonuncu bölmə "Səfəvi dövlətində etnik və ideoloji gərginlik" adlanır və müəllifin onunla bağlı dörd məqaləsini əhatə edir.

1965-ci ildə R.Seyvorinin "Journal of the American Oriental Society" jurnalında dərc olunan "Səfəvilərin tabeliyində xilafət əl-xülafə aparatı" adlı məqaləsində xilafət əl-xülafənin erkən Səfəvi dövlətinin yaşaması üçün baza rolunu oynadığını, onun müasir totalitar dövlətdə təkpartiyalı sistemə uyğun gəldiyini qeyd etməklə yanaşı, müxtəlif hökmdarlar dövründə Səfəvi ordeninin nüvəsini təşkil edən xilafət əl-xülafə – abdal, dədə, xədim (lələ) haqqında məlumat verilmişdir [11, XIII,497].

R.Seyvorinin topluda çap olunan növbəti məqaləsi 1971-ci ildə "Iran and Islam: In Memory of the late Vladimir Minorsky" adlı topluda dərc olunan "Səfəvi tarixinin maraqlı epizodu" adlanır. Məqalədə II Şah İsmayılın taxta çıxmasından Şah Məhəmməd Xudabəndənin hakimiyyət illərində, eyni zamanda I Şah Təhmasibin 947/1540-1 və 961/1553-4-cü illərdə Gürcüstana təşkil olunan dörd ekspedisiyada əsir düşən gürcü qadınlardan olan uşaqların dövlət idarəçilik işlərində rolu məsələsi də daxil olmaqla təhlil olunur [11,XIV,461-463].

Müəllifin 1964-cü ildə "Islamic Studies: Journal of the Central Institute of Islamic Research, Karachi" jurnalında dərc olunan "Mirzə Salmanın siyasi qətlinin əhəmiyyəti" adlı məqaləsində 15 iyun 1577-ci ildə şahın təsərrüfat işlərinə nəzarət edən Mirzə Salmanın II Şah İsmayıl tərəfindən Ali divana vəzir və etimad əd-dövlə vəzifəsinə təyin olunması haqqındadır. Nazir-i buyutat vəzirlə sıx əməkdaşlıqda işləyən yüksək rütbəli məmur idi və Şahın bütün məişət işlərinin nəzarətinə məsuliyyət daşıyırdı. 1576-cı ildəI Şah Təhmasibin ölümünə kimi bu vəzifəni tutan Mirzə Salman Şah II İsmayılın hakimiyyətə gəlməsindən sonra bu kabinetdə işlərini davam etdirmişdi. R.M.Seyvori yazır ki, "Bu məqaləni yazmaqda məqsədim 1577-ci ilin noyabrnda II İsmayılın ölümündən təqribən 3 ay sonra onun böyük qardaşı 45 yaşlı və sakit təbiətli Məhəmməd Xudabəndənin (13 fevral 1578-ci ildə) Sultan Məhəmməd şah adı ilə hakimiyyətə gəldiyi gündən etibarən 18 ay müddətinə dövləti idarə edən şahın ambisiyalı, bacarıqlı, qəddar arvadı Mehdi-Ulya və onun qızılbaşlar tərəfindən öldürülməsi (26 iyul 1579) məsələsini yox, vəzir Mirzə Salmanın kariyerasından, eyni zamanda qızılbaşlar tərəfindən 911/1583-cü ildə öldürülməsinin siyasi səbəblərindən bəhs etməkdir" [11,XV,181-182].

R.Seyvori 1975-ci ildə "Turcica" jurnalında çap olunan "Qızılbaş: təhsil və incəsənət" adlı məqaləsində I Şah İsmayılın hakimiyyət illərindən I Şah Abbasın da hakimiyyət illəri daxil olmaqla keçən dövrdə qızılbaşlar və farsları (və ya tacikləri) müqayisə edərək belə nəticəyə gəlir ki, qızılbaşlar dövlətin yarandığı ilk illərdə "qılınc əhli", farslar isə "qələm əhli" olmuşdur [11,XVI,168]. Müəllif həmçinin, II Şah İsmayılın dövründə Sadiq

bəyin, I Şah Abbasın hakimiyyət illərində isə Ustaclı tayfasından olan Salman xanın timsalında daha savadlı və mədəni cəhətdən yüksək qızılbaş əyanlarının yetişdiyini, idarəetmədə əvvəllər ancaq farsların tutduqları vəzifələrə artıq qızılbaşların təyin olunmalarından geniş bəhs etmişdir.

Onun Səfəvilər dövlətinin tarixi ilə bağlı yazdığı məqalələrinin sonuncusu 2004-cü ildə "Islam and Christian-Muslim Relations" jurnalında çap olunan "Səfəvilər dövləti və qeyri-müsəlman azlıqlar arasında münasibətlər" adlanır. Məqalədə "On iki imam" doktrinasından doğan siyasət təhlil olunur, I Şah Abbasın hakimiyyət dövründə bütün ölkədə multukultralizm və tolerantlığın hökm sürdüyünə xüsusi diqqət yetirilir. Məqalədə dövlətin süqutunun əsas səbəblərdən biri kimi I Şah Abbasa qədər və ondan sonrakı dövrdə ölkədə qeyri-müsəlman azlıqlara olan düşmən münasibətə xüsusi diqqət yetirilir [9,435].

R.M.Seyvorinin "İslam Ensiklopediyası", "Amerikana Ensiklopediyası", "Britanika Ensiklopediyası" (15-ci nəşr), "Beynəlxalq Ensiklopediya" (1-ci nəşr), "İranika Ensiklopediyası", "Yaxın Şərqin lakonik Ensiklopediyası", "Orta əsrlərin lüğəti", "İrana dair biblioqrafik kitabça: Yaxın Şərq kitabxanası", "Asiya Tarixinin Ensiklopediyası", "Bəşər tarixi: Elmi və Mədəni İnkişaf" kimi toplularda Səfəvi dövlətinin bütün dövrlərinə və sahələrinə aid məqalələri müxtəlif illərdə dərc olunmuşdur.

Beləliklə, qeyd olunanlardan da aydın olur ki, 1960 və 1970-ci illərdə Səfəvi dövlətinin tarixi ilə bağlı araşdırmaların genişlənməsində R.M.Seyvorinin böyük rolu olmuşdur. Onun tədqiqatları nəticəsində Səfəvi dövlətinin tarixi ilə bağlı tədqiqatlar aparan bir çox araşdırmaçıların baxışlarında xüsusi dəyişikliklər baş vermişdir. Qeyd etmək lazımdır ki, R.M.Seyvorinin əsərləri Səfəvilərlə bağlı tədqiqatlara artan maraqdan xəbər verməklə yanaşı, bu gün də bu sahədə tədqiqat aparan dünya tarixçiləri üçün nadir mənbə rolunu oynamaqdadır.

## ƏDƏBİYYAT


*a) Rus dilində*

*1. Абдуль-Азиз ибн Салих аль-Махмуд. Возвращение Сефевидов. Москва: БадрМедиа, 2012, 46с.*

*2. Эфендиев О.А. Образование Азербайджанского государства сефевидов в начале XVI века. Баку : Акад. наук АзССР, 1961, 206 с.*

*b) Türk dilində*

*3. Küpeli Ö. Batıda Safevi çalışmalarının geldiği aşama ve son yıla dair bir bibliyografya denemesi // Tarih Okulu Dergisi, sayı VIII, İzmir, 2010, s.51-61.*

*c) İngilis dilində*

*4. Canadian Who's Who. ed. by Kieran Simpson, Toronto, Buffalo and London: University of Toronto Press, v.25, 1990*

*5. Monshi Eskandar Beg. History of Shah Abbasthe Great (Tarik-eAlamara-ye Abbasi), in 2 vols, v.1. Translated by Savory R.M., Persian Heritage Series No.28, Boulder, CO: Westview Press, 1980, 544p.*

*6. Monshi Eskandar Beg. History of Shah Abbasthe Great (Tarik-eAlamara-ye Abbasi), in 2 vols, v.2. Translated by Savory R.M., Persian Heritage SeriesNo.28, Boulder, CO: Westview Press, 1980, 848p.*

*7. New Perspectives on Safavid Iran: Empire and Society. ed. by Colin P.Mitchell, London and New York: Routledge, 2011, 256 p.*

*8. Savory R.M. Iran under the Safavids. Cambridge: Cambridge University Press, 1980, 277p.*

*9. Savory R.M. Relations between the Safavid state and its non-Muslim minorities // Islam and Christian-Muslim Relations, 2004, v.14, No.4, pp.435-458*

*10. Savory R. M. Roger M. Savory on Vladimir Fedorovich Minorsky // in Michalos A.C. (ed.), The Best Teacher I Ever Had, London: Althouse Press, 2003, pp.235-238*

*11. Savory R.M. Studies on the History of Safavid Iran. London: Variorum Reprints, 1987, 302p.*

*d) İnternet resursları*

*12. https://en.wikipedia.org/wiki/Roger_Savory*



**Açar sözlər:** *Rocer M.Seyvori, Səfəvi, I Şah İsmayıl, V.F.Minorski, İsgəndər bəy Münşi*

**Ключевые слова:** *Роджер М. Сейвори, Шах Исмаил I, Сефевиды, В.Ф. Ми-норский, Искандер бек Мунши*

**Key words:** *Roger M.Savory, Shah Ismail I, Safavids, V.F.Minorsky, Eskandar beg Monshi*



**РЕЗЮМЕ**

**Об исследовании истории Азербайджанского государства Сефевидов Роджером Сейвори в 1960-1970х годах**

За последние годы изучение истории Сефевидов в Европе и Северной Америке значительно расширилось. Произведения написанные на эту тему растут с каждым днем. К сожалению, в начале XX века в написанных произведениях об истории Сефевидов на Западе, она была представлена в рамках Иранской истории.

С 1930-х годов, несмотря на то, что в академической среде появился интерес к истории Сефевидов до 1970-х годов, это продолжало оставаться в ограниченном кругу. Но с 1980-х годов, благодаря заслугам заслуженного профессора Университета Торонто британского происхожденя, ирановеда и специалиста по Сефевидскому периоду Роджера Сейвори исследование о государстве Сефевидов более расширилось.



**SUMMARY**

**On the research of the history of the Azerbaijan state of the Safavids by Roger Savory in the 1960s-1970s**

In recent years, the study of the Safavid history in Europe and North America has significantly expanded. Works written on this subject grow every day. Unfortunately, at the beginning of the 20th century, in written works about the Safavid history in the West, it was presented within the framework of Iranian history.

Although from the 1930's on the academic level there appeared an interest in the history of the Safavids, until the 1970s it remained in a limited framework. But since the 1980s, thanks to the merits of the honored professor of the University of Toronto of British origin, Iranian expert and specialist on the Safavid period, Roger Savory, the research of the Safavid state has expanded.

# Turizm

## AZƏRBAYCANDA TURİZM KADR EHTİYYATININ ARTIRILMASINDA TƏHSİL VƏ SƏNAYE ƏMƏKDAŞLIĞININ TƏŞKİLİ

İLAHƏ ƏLİYEVA
Azərbaycan Turizm və Menecment Universiteti



**Mövzunun aktuallığı.** Sürətlə inkişaf edən Azərbaycan Respublikasında neft strategiyasının uğurları, özünü artıq qeyri-neft sektorunda göstərir. Turizm sahəsi qeyri-neft sektorunun ən perspektivli sahələrindən biridir. Azərbaycan turizm sahəsinin dövlət büdcəsinin əhəmiyyətli bir hissəsini doldurmaq qabiliyyətində olduğu üçün bu sahənin inkişaf etməsini və onu iqtisadiyyatın ən dayanıqlı, rəqabətə davamlı sahəsinə çevirməyi dövlət qarşısına məqsəd qoymuşdur. Azərbaycan, turizm potensialı olduqca yüksək olan ölkələrdəndir. Ölkəmizin həm təbii-coğrafi, həm də müasir dünyada tutduğu mövqe Azərbaycanı turistlər üçün maraqlı bir məkana çevirib. Ölkəyə gələn turistlərin sayının artırılması üçün isə peşəkar və keyfiyyətli kadr potensialının olması olduqca vacib məsələlərdəndir. Mütəxəssislərin hesablamalarına görə, 2023-cü ilə qədər ölkədə turizm işçilərinə olan tələbat 75 min nəfərdən çox olacaq. Ancaq hazırda peşəkar kadr çatışmazlığı probleminin mövcud olması ölkəmizin böyük perspektivlərə malik turizm sahəsinin inkişafına mane olan səbəblərdəndir.

Bu problemin həlli üçün bu gün Azərbaycanda fəaliyyət göstərən şəbəkə hotelləri öz işçilərinin səviyyəsinin yüksəldilməsinə imkan verən kurslar təşkil etsə də, nəzərə almaq lazımdır ki, bu tədbirlər ölkədə bütün otelləri və turizm sahəsində fəaliyyət göstərən digər obyektləri əhatə etmir. Həm bu səbəb, həm də ölkəmizdə turizm və digər xidmət sahələrində müşahidə olunan sürətli inkişaf kadr hazırlığının daha yüksək səviyyədə təşkil edilməsi zərurətini yaradıb. Turizm sahəsində ayrıca bir təhsil müəssisənin yaradılması bu sahədə mütəxəssis boşluğunu doldurmaq ehtiyacını ödəmək üçün kifayət etmir.

Turizm təhsili bu gün bütün dünya üzrə öz önəmini artırmaqdadır. Belə ki, yüksək sürətlə böyüyən turizm sektoru artıq daha yüksək ixtisaslı və daha peşəkar mütəxəsislər axtarmaqdadır. Bu zaman tələb olunan yüksək standardlara malik turizm təhsilinə malik olmaq, daim kadr hazırlığına önəm yetirməkdir. Turizm təhsilinin önündə yaranmış əsas çağırış isə nəyi öyrətməli və necə öyrətməli sualı ilə bağlıdır. Bu gün əsas problemlərdən biri də budur ki, sənayenin tələblərinə uyğun elmi əsaslara söykənən materiallar öyrədilməlidir. Çox vacibdir ki, tədris edənlər və sənayeçilər arasında "fənn" və "bacarıqların" anlaşılmasında yaranan boşluqlar minimallaşdırılsın. Məhz bu yaxınlığın olması tədrisin optimallaşdırımasına və məzunların iş yerlərində daha yararlı olaraq qəbul edimәsinə yardımcı ola bilər. Bu mənada qeyd etmək lazımdır ki, məqalədə bununla bağlı araşdırmalar aparılmış, yerli turizm mütəxəsislərinə, eyni zamanda turizm təhsili alan tələbələrə müəyyən suallar əsasında nəticələr əldə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyekti kimi mövcud turizm təhsil müəsisələri və sənaye müəsisələri əsas götürülmüşdür. Tədqiqatın predmeti isə sözü gedən müəssisələr arasında əlaqə, təhsil və sənaye əməkdaşlığıdır.

**Tədqiqatın əsas məqsəd və vəzifələri.** Azərbaycanda mövcud turizm təhsilinin vəziyyətinin analizi, bu turizm təhsilinin sənayenin gözləntilərinə nə dərəcədə cavab verməsinin və yüksək potesiallı kadrların hazırlanma metodlarının araşdırılması tədqiqatın əsas məqsədidir. Bu məqsəd çərçivəsində aşağıdakı vəzifələrin yerinə yetirilməsi qarşıya qoyulmuşdur:

- Turizm təhsilinin spesifik xüsusiyyətlərinin öyrənilməsi;
- Turizm təhsilində beynəlxalq təcrübənin araşdırılaraq əldə edilmiş nəticələrin analiz edilməsi;
- Turizm təhsili və sənaye arasında əlaqələrin tədqiq olunaraq bu sahədə boşluqların müəyyənləşdirilməsi;
- Müxtəlif metodlardan istifadə etməklə turizm təhsili alan tələbələr və sənayedə çalışanlar arasında araşdırmalar apararaq, sənaye və təhsil əməkdaşlığının perspektivlərinin öyrənilməsi.

**Tədqiqatın informasiya bazası və işlənməsi metodları.** Əsasən xarici ölkə alimlərinin tədqiqat nəticələri, kitabları, elmi-publisistik məqalələri, eləcədə yerli alimlərin kitablarından, Azərbaycan

Respublikasının Dövlət statistika komitəsinin statistik toplusundan həmçinin digər dövlət və qeyri hökümət təşkilatlarının statistik hesabatları, bir çox ölkə universitetlərinin hesabatları (illik qəbul və məzun, yerləşmə və.s kimi), bir neçə ölkənin turizm təhsili ilə bağlı qanunları, normativ hüquqi sənədləri təşkil edir. Tədqiqat zamanı araşdırma sorğusu, sistemli yanaşma, riyazi-statistik, analiltik metod, deduksiya, induksiya metodlarından istifadə edilmişdir.

**Tədqiqatın elmi praktiki əhəmiyyəti.** Məqalədə araşdırılan mövzu bu gün həm turizm təhsil müəssisələri, həm də sənaye müəssisələri tərəfindən üzərində durulması vacib olan mövzudur. Qeyd edimki, təhsil və sənaye əməkdaşlığı və bu əməkdaşlığın üstünlükləri ilə əlaqədar daha öncə aparılmış bir araşdırma, sistemləşdirilmiş məlumata azərbaycan dilində rast gəlmək mümkün deyil. Bu səbəbdən düşünürəmki, tədqiq etdiyim mövzu gələcəkdə həm təhsil müəssisələri həmçinin sənaye müəsisəsi üçün tədris materialı olaraq kifayət qədər faydalı olacaqdır. Tədqiqatın yekunu olaraq irəli sürdüyüm təkliflərdən isə həm təhsil müəssisələrinin, həm də sənaye müəssisələrinin yararlanacaqlarından və müəyyən istiqamətdə addım atmaqlarına təkan verəcəyindən tədqiqat işimin əhəmiyyət daşıdığını düşünürəm.

**Turizm təhsili və sənaye arasındakı boşluğun araşdırılması, nəticələrin analizi və təhlili**

Turizm sənayesi və təhsili arasında əməkdaşlıq yaratmaq və bu əməkdaşlığın yarada biləcəyi üstünlükləri müəyyənləşdirmək üçün araşdırma aparılmışdır. Araşdırma zamanı sorğu metodundan istifadə olunmuşdur. Sorğu ilkin sosioloji informasiyaların təyin edilmiş prinsiplər əsasında, suallar formatında respondentin cavablarına köklənən tədqiqat metodudur. Tədqiqat hadisəsində bilavasitə iştirakçı olaraq informasiya mənbəyi kimi insan çıxış edir. İnformasiyanın alınması onun maraq və təcrübəsi ilə bağlıdır. Bu informasiyalarda sosial reallıq fərdi şüurda ifadə olunur.

Azərbaycan turizm təhsili və sənayəsi arasındakı boşluğun araşdırılması məqsədi ilə iki formada iki seqmentasiya üçün anket hazırlanmışdır. Sorğunun seqmentasiyasını turizm sənayəsində fəaliyyət göstərənlər və turizm təhsili alan tələbələr təşkil edir. Turizm sənayesi üçün tərtib edilən anketin seqmentasiyasını turizm müəssisələrində çalışan menecerlər, direktorlar, supervayzerlər, hr-lar, marketoloqlar təşkil etmişdir. Turizm təhsili sorğusunun hədəf kütləsi isə tələbələrdən və məzunlardan ibarətdir.

Məlumatların toplanması məqsədi ilə bu araşdırma zamanı elektron anket formasından istifadə edilmişdir. Elektron anket respondentlərə təkcə rahatlıq yaratmır, həmçinin onların könüllük dərəcəsinidə artırmış olur, beləki elektron sorğu zamanı respondent sorğunu tamamlayb tamamlamamaq məsələsində tamamilə azaddır. Araşdırma zamanı elektron anketdən istifadə işin səmərəliliyini artıraraq, daha tez bir zamanda geniş hədəf kütləsinə çatmağa imkan vermişdir. Anketlərin iki növ seqmentasiya üçün hazırlanması, turizm sənayesi ehtiyacları və gözləntiləri ilə turizm təhsili məzunlarının bacarıqları arasında müqayisə məqsədi ilə nəzərdə tutulmuşdur.

Sorğunun nəticələrindən məlum olmuşdurki, turizm təhsili tələblərin əksəriyyətinin (72%) məhz öz seçimidir.

| Turizm təhsilini şəxsi istəyinizləmi alırsınız və ya almısınız? | | | |
|---|---|---|---|
| **Cavablar** | **Göstəricilər** | **%** | **Cəmi** |
| **Bəli öz seçimimdir** | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 72,5 | 29 |
| **xeyr məcbur edilmişəm** | | 0 | 0 |
| **tamamilə təsadüfdür** | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 27,5 | 11 |
| | | Toplam cavablar: | 40 |
| | | İştirak etməyənlər | 0 |

Turizm təhsilinin kurrikulumu hazırlanarkən turizm sənayesi ilə əməkdaşlıq edilməlidirmi? Sualına olan münasibət tələbələr tərəfindən tamamilə bir mənalı qarşılanmamışdır. Beləki 75% tələbə bu fikir ilə razı olduğu halda 10% tələbə neytral mövqe tutmuşdur.

| Aşağıdakı fikir ilə nə dərəcədə razı olduğunuzu qeyd edin | | | |
|---|---|---|---|
| **Cavablar** | **Göstəricilər** | **%** | **Cəmi** |
| **turizm təhsili kurrikulumu hazırlanarkən turizm sənayesi ilə əməkdaşlıq edilməlidir** | | | |
| razıyam | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 50 | 20 |
| razı deyiləm | | 0 | 0 |
| fikrim yoxdur | | 0 | 0 |
| neytral | \|\|\|\|\|\|\|\|\|\| | 10 | 4 |
| tamamilə razıyam | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 35 | 14 |
| tamamilə narazıyam | \|\|\|\|\| | 5 | 2 |

Ünvanladığım növbəti sual turizm sənayesində işləmək üçün turizm təhsili almağın nə dərəcədə vacib olduğuna tələbələrin münasibətini öyrənmək məqsədi daşıyırdı. Nəticədə 35% respondent bu fikir ilə razı olduğu halda 20% razı olmadıqlarını bildirmişlər.

| Turizm sahəsində işləmək üçün peşə təhsili kifayətdir ali təhsilə ehtiyac yoxdur | | | |
|---|---|---|---|
| **Cavablar** | **Göstəricilər** | **%** | **Cəmi** |
| Razıyam | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 32,5 | 13 |
| razı deyiləm | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 37,5 | 15 |
| fikrim yoxdur | \|\|\| | 2,5 | 1 |
| tamamilə razıyam | \|\|\| | 2,5 | 1 |
| tamamilə razı deyiləm | \|\|\|\|\|\|\|\|\|\| | 10 | 4 |
| Neytral | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 15 | 6 |

Turizm təhsili ilə sənaye arasında nə kimi bir əməkdaşlıq yaratmaq olar sualına isə müxtəlif cavablar alınsa da yekun olaraq əməkdaşlığın zəruri olması və tələbələrin bu kimi əməkdaşlıqdan müsbət yararlanacaqları nəticə kimi müəyyən olunur. Aşağıda qeyd edilən cavablardan bir neçəsi ilə tanış olaq:

✓ Turizm sahəsində işləmək üçün turizm sənayəsinin tələbatını bilmək lazımdır;

✓ Turizm sahəsində işləyən istər yerli, istərsə də xarici mutəxəssislərin təcrubəsindən istifadə edərək, onları turizm təhsil müəssisələrində təhsil alan tələbərə ötürmək lazımdır, mütəmadi olaraq tələbələri turizm müəssisələrinə aparmaq lazımdı, çünki öyrəndiklərinin əyani şəkildə icrasını görsünlər, bu əməkdaşlıq mütləqdi dərslərin bu müəssiələrdə keçirilməsi sənaye əməkdaşların təhsildə iştirakı və.s;

✓ Sənayedəki şirkətlər hər təhsil ilinin sonunda neçə nəfər yeni işçi lazım olduğunu planlaşdırmalı və müəllimlər ilə əməkdaşlıq yaradaraq "rezerv" etdiyi tələbələr haqqında məlumat almalıdır (mütəmadi olaraq);

✓ Turizm təhsili və sənaye müəssisələi arasında, əsasən də turizm ilə bağlı olan yerləşdirmə, nəqliyyat, qidalanma müəssisələri arasında daimi əməkdaşlıq olmalıdır.Bu ixtisaslı kadr formalaşdırmağın ən yaxşı yoludur. Səhər dərs, dərsdən sonra isə ixtisasla bağlı müəyyən sahələrdə praktik biliklər əldə etmək düzgün olardı. Turizm bilikləri əldə etməklə yanaşı praktik bilgiləri də öyrənmək daha düzgün olardı. Əks halda turizm ixtisaslı kadr yetişdirilməsindən söhbət gedə bilməz;

✓ Müntəzəm olaraq sənayedə təcrübə keçmək üçün təhsil müəssisəsinin tələbələrinə uyğun şəraitin yaradılması, təcrübə treninqlərninin keçirilməsi, dərslərin daha çox praktiki meylə yönlənməsi;

✓ Praktikaya yer daha cox verilsin. Yalnız sonuncu kursda deyil, hər kursda 2-3 ay... turizm müəssisələri 1-ci kursda tələbələr ilə intervyu kecirsin. Özü üçün kadr yetişdirsin, necə? Hər kursda həmin tələblərə praktika kecmək şansı yaratmaq ilə;

✓ Turizmin nəzəriyyə hissəsi ilə praktika hissəsinin sinerqetikasını yaratmaq. Kurrikulumu turizm müəssisələrinin iştirakı ilə hazırlamaq, çünki hazırlanan kadr sənaye üçün hazırlanır buna görə sənayenin fikri çox önəmlidir.

Cavablardan da göründüyü kimi respondentlər tamamilə əməkdaşlığın tərəfdarıdırlar.

Indi isə turizm sənayesində çalışan respondentlərə ünvanladığımız sualların cavabları ilə tanış olaq.

Turizm müəssisələrində işləyən repondentlərdən turizm təhsiliniz varmı deyə soruşduqda aldığımız cavablardan məlum olmuşdurki onlardan yalnız 33%-nin turizm təhsili vardır.

| Turizm təhsiliniz varmı? | | | |
|---|---|---|---|
| **Cavablar** | **Göstəricilər** | **%** | **Cəmi** |
| bəli | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 33 | 10 |
| xeyr | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 50 | 20 |
| hal hazırda təhsil alıram | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 17 | 12 |
| | | Toplam cavablar | 42 |
| | | İştirak etməyənlər | 0 |

Turizm təhsili alan respondentlərin təhsilin hansı səviyyəsini bitirdiklərini öyrənmək üçün onlara növbəti sualı ünvanladıq. Və nəticə aşağıdakı kimi oldu:

| Təhsilin hansı səviyyəsini bitirdiyinizi qeyd edin: | | | |
|---|---|---|---|
| **Cavablar** | **Göstəricilər** | **%** | **Cəmi** |
| ikinci təhsil | \|\|\|\|\|\|\|\|\|\|\|\| | 43 | 16 |
| sertifikat kurs(turizm) | \|\|\|\|\|\|\|\|\|\|\|\| | 17,33 | 5 |
| sertifikat kurs(başqa) | \|\|\|\|\|\|\|\|\|\|\|\| | 5,5 | 2 |
| peşə təhsili | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 2 | 3 |
| bakalavr(turizm) | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 26,6 | 8 |
| bakalavr(başqa) | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 20 | 6 |
| magistr(turizm) | \|\|\|\|\|\|\|\|\|\|\|\| | 5,5 | 2 |
| magistr(başqa) | \|\|\|\|\| | 0 | 0 |
| PhD(turizm) | \|\|\|\|\| | 0 | 0 |
| PhD(başqa) | \|\|\|\|\| | 0 | 0 |
| | | Toplam cavablar | 42 |
| | | İştirak etməyənlər | 0 |

Neçə ildir turizm sahəsində işləyirsiniz sualına isə verilən cavablardan məlum olmuşdurki 93,33 % respondent 5 ildən az bir müddətdirki turizm sahəsində çalışır.

| Necə ildir turizm sahəsində işləyirsiz? | | | |
|---|---|---|---|
| **Cavablar** | **Göstəricilər** | **%** | **Cəmi** |
| 5 ildən az | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 93,33 | 38 |
| 5-10 il | \|\|\|\|\|\|\|\|\|\|\|\| | 13,33 | 3 |
| 10 ildən çox | \|\|\|\|\| | 6,67 | 1 |
| | | Toplam cavablar | 42 |
| | | İştirak etməyənlər | 0 |

Turizm təhsili alan tələbələrə ünvanladığımız turizm sənayesində işləmək üçün təhsil vacibdirmi sualını eyni ilə turizm müəssisəsində çalışan respondentlərə də ünvanladıq və aldığımız nəticə tamamilə fərqləndi. Beləki, turizm müəssisəsində işləyən respondentlərin əksəriyyəti təhsil alan tələbələrdən fərqli olaraq düşünürki,turizm sahəsində işləmək üçün təhsil vacib deyil.

| Aşağıdakı fikirlər ilə nə dərəcədə razı olduğunuzu qeyd edin | | | |
|---|---|---|---|
| **Cavablar** | **Göstəricilər** | **%** | **Cəmi** |
| **turizm sənayesində işləmək üçün təhsil almaq vacibdir** | | | |
| tamamilə razı deyiləm | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 65,3 | 26 |
| razıyam | \|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\|\| | 21,6 | 6 |
| neytral | \|\|\|\|\| | 5.88 | 1 |
| razı deyiləm | \|\|\|\|\| | 5.88 | 1 |
| fikrim yoxdur | \|\|\|\|\|\|\|\|\|\| | 11.76 | 2 |

Yekun olaraq belə bir nəticəyə gəlmək olarki, Azərbaycanda turizm təhsil müəssisələrində yüksək vəzifədə çalışan əməkdaşların əksəriyyətinin turizm təhsili yoxdur,turizm təhsili məzunlar isə əsasən aşağı vəzifədə çalışanlardır.

## Nəticə və təkliflər

Turizm təhsilinin xüsusiyyətləri araşdırılarkən yekun olaraq turizm sektorunda çalışan işçilərin fundamental təhsilə yiyələnmək, bütün heyətə turizm şüurunu və fəlsəfəsini qazandırmaq, fikir və texnologiyaları qavraya biləcək turizm professionallarını hazırlamağa istiqamətlənmiş təhsil sistemi başa düşülür.

Turizm təhsilinə bağlı problemlər isə belə izah oluna bilər:

✓ Turizm sektoru ilə turizm təhsili verən quruluşlar arasında hüquqi çərçivədə səmərəli bir əməkdaşlıq qurulmamışdır. Qanuni dayağı olmayan, qarşılıqlı fərdi səylərə əsaslanan qeyri-kafi əməkdaşlıq, ortaq məqsədə istiqamətli funksiyaların reallaşmasına, mövcud fiziki və bəşəri qaynaqlardan şüurlu bir şəkildə faydalanılmasına mane olur.

✓ Turizm təhsilində inteqrasiya və koordinasiya təmin edilə bilməmişdir. Bu da təhsil işlərinin makro bir model daxilində bir-birini tamamlayan bir şəkildə icra edilə bilməməsinə səbəb olur.

✓ Turizm peşələri, bu peşələrin müxtəlif addımlarında əmək haqqı, haqsız rəqabət şərtlərində məşğulluq qarşılanmadıqca səmərənin aşağı düşməsi və sektor inkişaf etdikcə ixtisaslı personal daha yüksək ödənişlərlə yeni müəssisələrə axını nəticəsində işgücü stabiliyi pozulur.

✓ Tətbiq olunan dərs proqramları əksərən nəzəri olub, proqramlarda təcrübi dərslərə çox yer verilə bilinməməsi

✓ Turizm təhsilinin tələb etdiyi təhsil vasitələri və laboratoriyalar dörd illik təhsil müəssisələrində yoxdur, verilən məlumatlar tətbiq imkanı olmadığından unudulur

✓ Xarici dil təhsili kafi deyil.

✓ İxtisaslı təhsil işçisi çatışmazlığı. Turizm təhsilində tam ştat təhsil işçiləri ilə bərabər saat hesabı ödənişli sənaye mütəxəssislərinə ehtiyac duyulur

✓ Təhsilin məhsuldar ola bilməsi, təcrübi dərslərin fəaliyyətinin təmin edilməsi üçün təcrübə programları qeyri-kafiliyi

✓ Turizm təhsili müəyyən bir məqsədə yönəldilməli və müəyyən bir proqrama əsaslanmalıdır. Mövcud təhsil müəssisələri nəzəriyyə ilə tətbiqi uyğunlaşdıran bir nəzəri ortaq məxrəcə gəlməlidir. Bakalavr səviyyəsində təhsil verən müəssisələr elmi turizm araşdırma mərkəzləri olaraq düşünülməli və turizm mütəxəssislərinin və idarəçilərinin bu cür məktəblərdən yetişdirilməsi təmin edilməlidir. Ehtiyaclara cavab verən, həqiqətən ixtisaslı kadr hazırlaya biləcək şəkildə mütəşəkkil edilmiş sabit bir turizm təhsil siyasətinə ehtiyac vardır

Araşdırmanın yekunu olaraq ölkəmizdə turizm tədrisi həyata keçirilən müəsisələr və turizm sənayesi arasında əməkdaşlığın inkişafı üçün aşağıdakıları tövsiyyə etmək olar:

- Sənaye nümayəndələri ilə turizm müəssisələrinin münasibətləri konsultativ xarakter daşımalıdır. Bunun üçün mütəmadi forumlar, konfranslar, yığıncaqlar keçirilməlidir. Bu formada arzu olunandır ki, bu müəssisələr müxtəlif assosasiyalar və birliklər halında təşkilatsınlar. Beləcə bu əlaqələr daha effektiv koordinə ola,

standardlaşdırıla bilər. Eyni zamanda bu formada hər hansı birgə şura yaradıla bilər.

- Turizm müəssisələri ilə tədris müəssisələri arasında mübadilə proqramları həyata keçirilsin. Sənaye nümayəndələri bu proqramlar çərçivəsində tədris müəssisələrində müəyyən müddət üçün dərs desinlər, eyni zamanda, tədris müəssisələrində işləyən müəllimlər sənayedə müəyyən müddət üçün müxtəlif işlərə cəlb edilsin. Beləcə hər iki tərəf yuxarıda göstərilmiş model çərçivəsində qarşılıqlı anlaşılmanı artıra və daha effektiv kurrukilumların yaranmasına, həm də tərəflərin iki istiqamətli (nəzəri və praktik) inkişaflarına dəstək ola bilər.

- Tələbələrin davam etdikləri proqramlardan məmnuniyyət səviyyələrinin ölkələr əsasında müqayisə edilməsi yolu ilə tələbə gözləntilərini qarşılamasına istiqamətli addımlar atıla bilər. Proqramlarda iştirak edən dərslərin tələbələrin məqsədinə uyğun olub olmadığı, təhsil işçiləri, təhsil mühiti, ictimai və mədəni fəaliyyətlər və fakültə rəhbərliyi ilə bağlı qiymətləndirmələrin müqayisə edilməsi nəticəsində müsbət qiymətləndirmələr əldə edilə bilər. Beləcə, bir müqayisə etmək (benchmarking) asanlığı təmin edilmiş olacaq.

Tələbələrin gözləntilərinin nə nisbətdə qarşılandığı təsbit ediləcək və bu gözləntilərin təmin edilməsi ilə təhsil keyfiyyəti yüksəldilmiş olacaq. Daha çox tələbə qazanmaq üçün rəqabətin artması təşkilatların dərsləri sektorun ehtiyaclarına görə tənzimləmələrini tələb edəcək.

- Tədris müəssisələri tərəfindən müstəqil turizm mükafatları təsis edilsin. Bu mükafatlar yerli bazarda fəaliyyət göstərən müəssisələrin həvəsləndirilməsinə əməkdaşlığa cəlbində xüsusi rol oynaya bilər. Müxtəlif nominasiyalarda sənaye nümayəndələri mükafatlandırıla bilər, eyni zamanda tələbələrin də mükafatlara cəlb edilməsi də mümkündür.

- Bütün turizm tədrisi müəssisələrində kurrikulumun inkişafına sənaye müəssisələri cəlb edilsin. Burada Kanadanın İNDECORE sisteminin öyrənilməsi arzuolunandır.

- Tədris müəssisələri üçün qəyyumlar şurası yaradılsın. Xüsusi ilə ali məktəblərin maliyyə muxtariyyətinin olması şəraitində bu həm ali məktəb sənaye əlaqələrini inkişaf elətdirə bilər, həm də ali məktəblərin idarə edilməsində şəffaflığı artıra bilər

- Dövlət tərəfindən sənaye müəssisələrinin tədris müəssisələri ilə əlaqələrinin artırılması üçün müəyyən insentivlər təklif edilsin. Beləliklə, dünyanın müasir praktikası sübut edir ki, ali məktəblər üçün sənaye ilə əlaqələr zəruridir. Ələlxüsus, yüksək rəqabətliliyə malik turizm sektoru bunu daha çox tələb edir. Əldə edilən bilik və məlumatların daimi yenilənməsi, qarşılıqlı inkişaf, destinasiyaların rəqabətqabilliyyətliyinin artması, digər sənayelər tərəfindən edilən çağırışlar, bunu hər kəs üçün icbari edir.

## ƏDƏBİYYAT

*1. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin beş illik fəaliyyətinə dair hesabat , 2006-2010. Bakı. "Xatun Plyus" 2011, səh. 104*

*2. Global tourism higher education, past, present and future. Cathy, H.C.Shu., 2011, New York, USA*

*3. Is tourism education meeting the needs of the tourism industry? An Australian case study, Jie Wang, 2008, Canberra, Australia*

*4. Veal, A.J. (2006). Research methods for leisure and tourism: a practical guide. (3rd ed.) UK: Pearson Education Limited, 40, 244, 249-271.*

*5. Kozak, M. A. (2009). Akademik Turizm Eğitimi Üzerine Bir Durum Analizi. Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (İLKE), Bahar, sayı:22*

*6. http://www2.unwto.org/ giriş tarixi 02.10.2017*

*7. http://www.wttc.org/ giriş tarixi 01.10.2017*

*8. http://www.turizmgazetesi.com/ giriş tarixi 24.11.2017*

**Açar sözlər:** *turizm sənayesi, kadr hazırlığı, turizm təhsili, əməkdaşlıq, kadr problemi, təcrübi tədris*

**Key words:** *tourism industry, personnel training, tourism education, cooperation, personnel problem, practical training*

**Ключевые слова:** *индустрия туризма, обучение персонала, туризм, сотрудничество, кадровая проблема, практическое обучение*

## SUMMARY

**Organization of education and industry cooperation for development of tourism personnel in Azerbaijan**

The aim of study to investigate the university industry cooperation influence on further tourism personnel potential development in Azerbaijan. Although tourism in Azerbaijan continues to grow it faces considerable challenges in the field of personnel potential. It has been figured out that the tourism industry has criticised tourism education for not adequately training people for employment in the industry. Unfortunately today its observed that the majority of workforce in tourism industry of Azerbaijan consists of foreigners and it makes clear the fact there is a gap between tourism education and industry in Azerbaijan thats why Azerbaijan tourism industry suffers from national tourism personnel potential. If a gap does exist between the tourism industrys expectations and the tourism educators provision, sustainable development in tourism may not be achieved. In order to understand the reason of existing gap the objective of study is to identify the reasons as to why the tourism industry lacks competent professionals in Azerbaijan, to analyze the existing infrastructure and facilities available for tourism education and training in Azerbaijan and quality of skills provided by these institutions and to offer some suggestions and solutions to improve the quality of skill supplied to the industry and also how to develop tourism personnel potential by making cooperation between industry and education based on the findings of the study.

Inquiring was conducted for both university students, and tourism firms in order to achieve data and comparable analyse. At the survey section, face to face inquiring of quantitative methodology was applied. Representatives of hotels and tourism companies in Azerbaijan and students of Azerbaijan Tourism and Management University were added into the scope of the survey.

## РЕЗЮМЕ

**Организация сотрудничества образования и промышленности для повышения кадрового потенциала в области туризма в Азербайджане**

Азербайджан имеет большой потенциал для развития туризма, который считается одним из самых прибыльных отраслей в мире. Экономически развивающейся в стране Азербайджан, в настоящее время существует большая потребность в туристическом секторе для разработки кадрового потенциала. Тенденции развития были раскрыты и проблемы были проанализированы в этом направлении в моем исследовании.

Хотя туризм в Азербайджане продолжает расти она сталкивается с серьезными проблемами в области кадрового потенциала. Индустрия туризма подверг критике туристского образования для не адекватно обучение людей для работы в промышленности. К сожалению, сегодня наблюдается, что большая часть рабочей силы в туристической отрасли Азербайджана состоит из иностранцев, и это ясно указывает на то, что в Азербайджане существует разрыв между образованием туризма и промышленностью, поэтому индустрия туризма в Азербайджане страдает от национального потенциала кадрового персонала.
Если существует разрыв между ожиданиями индустрии туризма и предоставлением услуг в области туризма, устойчивое развитие в сфере туризма может быть не достигнуто. Чтобы понять причину существующего разрыва, целью исследования является выявление причин того, почему в туристической отрасли не хватает компетентных специалистов в Азербайджане, проанализировать существующую инфраструктуру и возможности, доступные для образования и обучения в области туризма в Азербайджане, и качество предоставляемых навыков этими учреждениями и предложить некоторые предложения и решения для повышения качества навыков, предоставляемых отрасли, а также как развивать потенциал кадрового персонала путем налаживания сотрудничества между промышленностью и образованием на основе результатов исследования.

Запросы были проведены как для студентов университетов, так и для туристических фирм с целью получения данных и сопоставимого анализа. В разделе опроса применялся вопрос о количественной методологии. В объем опроса были включены представители гостиниц и туристических компаний в Азербайджане и студенты Азербайджанского университета туризма и менеджмента.

# Multikulturalizm

## MULTİKULTURALİZM VƏ ETİKA ƏLAQƏSİNİN BƏZİ CƏHƏTLƏRİ

TALEH ƏHMƏDOV
AMEA Fəlsəfə İnstitutu

*"Etikanın təkamülündəki ilk addım digər insanlarla həmrəylik duyğusudur."*

*Albert Şveytser*



Müasir dövrdə hər bir sahədə qlobal və lokal inkişaf nəticəsində müxtəlif mədəniyyətlərin təması öz aktuallığını biruzə verir. Bu mənada multikulturalizm bəşəriyyət üçün yeni imkanlar yaradır, müxtəlif mədəniyyətə malik olan insanların birgəyaşamını təşviq edir. Məhz multikulturalizm üzrə ciddi mütəxəssis sayılan Kənan Malikə görə bu tendensiya universal dəyərlər çərçivəsində insanların dünya görüşlərini genişləndirir və qarşılıqlı tanınmalarına şərait yaradır (9).

Multikulturalizmin ontolojik əsasını "mən" və "başqası" təşkil edir. Fərdi insan şüurundan və dəyərlərindən müxtəlif mədəniyyətlərin "mən" şüuruna və dəyərlərinə varmasına qədər bu proses davam edir. Bu baxımdan bütün mədəniyyətlərdə etik normalar və dəyərlər mövcuddur. Məşhur fransız filosofu Emmanuel Levinas "bəlkəm də sivilizasiyanın mənbəyi başqasıdır" söyləyir. Digər tərəfdən məşhur alman filosofu Hans Qadamerin də ortaya atdığı üfüqlərin qaynaşması (fusion of horizons) nəzəriyyəsi müxtəlif mədəniyyətlərin qarşılıqlı şəkildə öz dəyərlərini təqdim etməsinə imkan yaradır.

Hər hansı bir ölkə daxilində çox mədəniyyətlilik tendensiyası və bu tendensiyanın inteqrativ inkişafının etik tərəfdən dəstəklənməsi üçün demokratik mühitin yaranmasına ehtiyac duyulur (6, s. 25-26). Multikulturalizm və etikanın ən mühüm məqamlarından biri universal dəyərlərin, humanizmin əsas alınmasıdır. Belə ki, multikultural cəmiyyətlərdə müxtəlifliyə ehtiram və tolerantlıq mühümdür ancaq bərabərhüquqluğun önündə durmaz. Məhz etika və demokratiya baxımından etnik kimlik, cinsiyyət və irq birinciliyin yerini tuta bilməz (12, s. 205).

Multikulturalizmin baxış tərzinin ümumi olaraq bir-birlərini tamamlayan üç görüşünün- "insanların mədəniyyətlə iç-içə olduğu, çox mədəniyyətlilik və mədəniyyətlərarası dialoqun" labüd və arzu edilən olduğu görüşlərinin birbaşa etika ilə əlaqəsi mövcuddur. Təsadüfi deyil ki, həm etik, həm də moral məfhumlar insanların xarakter və hərəkətlərini idarə edən tarixi-mədəni ənənələrin bağlı olduğu ictimai qaydalara istinadən istifadə olunur( 5, s.229).



### MULTİKULTURALİZMİN FUNKSİONAL ROLU

Qloballaşma tendensiyasında lokal olanın qlobal olanla qarşılaşması nəticəsində konfliktlər meydana gəlir və etik sahəyə aid olan dəyərlər toqquşması baş verir. Multikulturalizm və etik plüralizm kimi məfhumlar bu kontekstdə məna qazanır. Multikulturalizm tək başına siyasi məsələ olaraq görünür. Çünki multikulturalizm mahiyyətinə müvafiq olaraq müxtəlif etnik qrupların ictimai sahədə dövlət qarşısında bərabərhüquqlu tanınmasını vacib hala gətirir. Ancaq multikulturalizmin anlaşılmasında meydana gələn problemlərin həllində etikanın müdaxiləsi labüddür. Çünki qloballaşma və multikulturalizm tendensiyaları nəticəsində hər bir fərdin və cəmiyyətin dünya görüşündə və əxlaqi dəyər anlayışlarında müxtəlif dəyişmələr baş verir. Bu mənada multikulturalizmin yayıldığı qlobal arenada etikanın diqqətə alınması vacibdir. Bu isə etikanın əsas məfhumu olan dəyər termininin multikulturalizmlə münasibətinin təsvir və təhlil olunmasında özünü göstərir.

Soyuq müharibənin qurtarması nəticəsində Fransis Fukuyama "Tarixin sonu" tezisi ilə modern liberalizmin bütün ideologiyalar üzərində qələbə çaldığını iddia etdi. Samuel Huntiqton isə mədəniyyətlərarası toqquşmanın qlobal siyasət kontekstində izah edir. Ona görə mədəniyyətlərin fərqlilikləri ontolojik olaraq onların əsasını təşkil edir və Qərb bugün digər mədəniyyətlər ilə müqayisədə fövqəladə qüdrətinin zirvəsindədir (1, səh. 22-49). Sovet ittifaqının süqutu mərhələsində, yəni XX əsrin 90-cı illərində Qərbdə mövcud




olan multikulturalizm tendensiyaları 2001-ci il 11 sentyabr tarixindən sonra yerini mədəniyyətlərarası toqquşma (clash of civilizations) düşüncəsinə tərk etdi. Hazırda bir tərəfdən siyasi arenada müxtəlif şəkillərdə konfliktlərin meydana gəlməsi və bəzi regionlarda bunun hərbi yollarla həlli mövzunun aktuallığından xəbər verir.

Multikulturalizm hazırda mədəniyyətlərarası toqquşmanın qarşısını almaq üçün alternativ funksional rola malikdir. Belə ki, Fukuyama və Hantiqtonun mədəniyyətlər arasında mübarizə, toqquşma düşüncələrindən fərqli olaraq multikulturalizmin alternativliyini müdafiə edən Çarlz Taylor, Yurgen Habermas, Biku Parek, Vil Kimlika, Emi Qutman ,Çandra Kukatas və s. filosof və siyasətşünasların düşüncələri daha praqmatikdir.

Dünya ölkələrinin əhali tərkibinə baxdığımızda görürük ki, bunların böyük əksəriyyəti çoxmillətli və ya polietnik tərkibə malikdir. Mədəni pluralizm adlandıra biləcəyimiz milli-etnik və dini müxtəliflik demək olar ki, tarixinin bütün dövrlərində movcud olmuşdur. ABŞ, Kanada, Avstraliya, Avropa və s. ölkələr kimi immiqrantlardan təşkil olunmuş çoxmillətli cəmiyyətlər və ya Böyük Britaniya kimi böyük dövlətlər tərəfindən yerli xalqların yaşadığı ərazilərin birləşdirilməsi, habelə qitələrarası kütləvi immiqrasiya prosesinin yaşanması milli-etnik müxtəlifliyi meydana gətirən obyektiv səbəblərdir. Multikulturalizm siyasəti də məhz bu milli-etnik və dini müxtəlifliyin qorunub saxlanması və inkişaf etdirilməsini təmin edən demokratik bir siyasətdir. Buna görə də, multikulturalizmə milli və etnik azlıqların hüquqlarının tənzimlənmə siyasəti kimi baxmaq olar.

Multikulturalizmin alternativliyi iki aspektdən əhəmiyyət kəsb edir; bunlar "konstitusional" və "multikultural" vətəndaşlıq kateqoriyalarıdır. Dövlət çoxmədəniyyətlilik mühitinin özündə maraqlı olduğu üçün bu mühitə qarşı yarana biləcək potensial təhdidləri milli təhlükəsizlik əleyhinə yönəlik bir məzmunda qəbul edir. Bu səbəbdən də konstitusional vətəndaşlığı ilkin olaraq şərtləndirən prinsip vahid dövlətdə yaşayan müxtəlif etnik, dini, sosial, siyasi, iqtisadi, nəsilllərarası təbəqələşmələrin yaratdığı multikultural situasiyanın qorunub saxlanması və inkişaf etdirilməsidir. Yurgen Habermas, konstitusional vətəndaşlığı və demokratiyanı müxtəliflikləri də əhatə edəcək şəkildə əsaslandırır: "Konstitusional prinsiplərin içində yer aldığı siyasi hakimiyyət daxilində bütün vətəndaşlar eynidir. Məhz multikultural cəmiyyətdə siyasi strategiya, müxtəlif həyat anlayışlarının plüralizmini və inteqrasiyasını şüurlu şəkildə təşviq edən konstitusional vətəndaşlığa istinad etməlidir"(8 ).

"Multikultural vətəndaşlıq" məfhumu Vil Kimlikaya məxsusdur. Bu məfhumunun istinad etdiyi multikultural vətəndaşlıq siyasəti hətta tarixən liberal dəyərlər üzərində

yetərincə inkişaf etmiş cəmiyyətlər üçün də nümunəverici mahiyyətdədir. Multikultural vətəndaşlıq siyasəti ölkədə etnik-dini müxtəlifliyin cəmiyyət həyatına inteqrasiya prosesində iştirakının elə bir ədalətli təminatını yaradır ki, burada ayrı-ayrı etnik-dini qrupların ümumi maraqları dar və məhəlli siyasi məqsədlərlə istifadəyə məruz qalma risklərindən tamamilə sığortalanmış olur. Siyasi partiyaların etnik-dini zəmində fəaliyyətlərinə qanunvericilik məhdudiyyətləri multikulturalizm situasiyasını etniklər və dinlərarası dağıdıcı siyasi rəqabət kataklizmlərindən qorumaq və dövlətin milli təhlükəsizliyini təmin etmək məqsədi güdür.

Tarixi təcrübə göstərir ki, multikultural vətəndaşlığın tətbiq edilən inteqrasiya prinsipi daha doğru bir siyasətə təminat verir. Bu mənada konstitusional və multikultural vətəndaşlıq məfhumları mədəniyyətlərarası toqquşmanın qarşısını almaq üçün multikulturalizmin alternativ modelin tətbiqini labüd edir. Bu mənada multikulturalizm bir həyatı məkan daxilində çoxlu sayda mədəniyyət qruplarının münaqişəssiz yanaşması nəzəriyyəsi, praktikası və siyasəti deməkdir.

## ETİK ÜNSİYYƏT VƏ MƏDƏNİ MÜXTƏLİFLİK

Etika baxımından modern liberal əxlaqi təbiətə malik fərd anlayışı zəminində fərdiyyətçiliyi itirmədən fərqli kimliklərərin tanınma tələblərinin diqqətə alınması vacibdir. Məhz plüralistik siyasəti təsis edən modern əxlaq və siyasət fəlsəfəsi bu şəkildə formalaşır. Çarlz Taylorun ortaya atdığı tanınma nəzəriyyəsi (theory of recognition) liberal multikultural cəmiyyətin inşası üçün fərqli kollektiv kimliklərin tanınmasına dair multikulturalizm siyasətini inkişaf etdirmə hədəfini güdür. Burada dialoq məfhumu da xüsusi rola malikdir. Belə ki, Taylora görə tanınma eyni zamanda dialoqla olur və kimlik ``dilaoq yolu ilə, başqaları ilə qismən açıq, qismən də içimdən etdiyim sohbətlərlə formalaşır``(13, s.49).

İlham Məmmədzadə etika və multikulturalizm əlaqəsini analitik şəkildə belə təsvir və təhlil edir: " Bizə elə gəlir ki, milli mədəniyyətlərin mövcud fərqlərinin dərki ümumi məzmunlu, mahiyyəti əxlaq və mənəviyyatın, sərhədləri ləğv etməyən lakin ünsiyyət və mədəniyyətlərin müxtəlifliyi üçün şərait yaradan qlobal etikanın yaradılması zərurətini şərtləndirir"(9, s.35 ). Təsadüfi deyil ki, professor İlham Məmmədzadənin işarə etdiyi qlobal etika məfhumu ilə əlaqədar 1993-cü ildə Dünya Dinləri Parlamenti tərəfindən təşkil olunan konfrans keçirilmişdir. Bu konfransda bütün dünya dinləri təmsilçiləri tərəfindən imzalanan "Universal Əxlaqa Doğru Bəyannaməsi", fərd və cəmiyyətlərin inkişaf edərək sülh içində yaşamalarında dini dəyərlərlə etik dəyərlərin müştərək funksionallığa malik olacağı vurğulanmışdır. Məhz son zamanlarda aktuallıq kəsb edən "Qlobal Etika" məfhumunun dini-etik dəyərlərin mədəniyyətlərarası dialoq çərçivəsindəki yeri və rolu çox böyük əhəmiyyət kəsb edir. Belə ki, məşhur teoloq Hans Künqun "Qlobal Məsuliyyət:Yeni Dünya Əxlaqı Axtarışında"( Global Responsibility: In Search of A New World Ethic-1990 ) adlı kitabında müəyyən etdiyi kimi bütün dinlərdə öyrəniləsi çox şey var. Ona görə bütün etiqadların əsasında insanların bərabərliyinə, fərdin və cəmiyyətin dəyərli olmasına, "yaxşı"nın axırda qalib gələcəyinə olan inam mövcuddur. Hans Künq almanca "Projekt Weltethos" adlı kitabında müxtəlif yerlərdə verdiyi mövzu ilə bağlı konfrans məqalələrini toplayıb. Alman dilində dünya mənasına gələn "Welt" sözü yunanca əxlaq mənasında işlədilən "ethos" sözüylə birləşərək "Weltethos" məfhumunu yaradır. Bu da ingilis dilində "Dünya Etikası" mənasına gəlir. Künqun qlobal etika məfhumu Samuel P. Hantiqtonun "Mədəniyyətlərarası münaqişə" tezisinə qarşı "Mədəniyyətlərin uzlaşması" tezisini təməlləndirir. Çünki ona görə mədəniyyətlərin yaranmasında dinlər qlobal uzlaşmanın da əsasını təşkil edir. Nəticədə multikulturalizm və etika əlaqəsi qlobal etika aspektindən də ciddi inteqrasiyanə ehtiva edir.

Multikulturalizmin əsas məfhumlarından biri olan "tanıma" (recognition) birlikdə yaşayan müxtəlif etnosların qarşılıqlı bir-birlərini anlama və dəyərləndirmə prosesinin əsasını təşkil edir. Müasir dövrdə bütün cəmiyyətlərin multikultural məzmun və mahiyyət daşıdığı getdikcə artır. Məhz Çarlz Taylora görə inkluziv cəmiyyətlərdə müxtəlif etnoslar öz mövcudiyyətlərini davam etdirməklə multikultural mühitin yaranmasına səbəb olurlar (13, səh. 37-38). Mədəniyyətlərarası toqquşmanın əksinə multikultural nəzəriyyəyə görə hər hansı bir cəmiyyət daxilində müxtəlif etnik kimliklərin və mədəni toplulluqların olması onların inteqrativ münasibətlər qurmasının da başlıca amillərindəndir. Məhz mədəni müxtəliflik insan azadlığının ən mühüm şərtlərindən biridir və özündən başqa mədəniyyətlərlə insanın əlaqə qurması bu azadlığın üfqünü daha da genişləndirir (3,səh. 167). Bu mənada mədəni fərqlilik toqquşmanın deyil, qarşılıqlı anlamanın əsasını təşkil edir. Vil Kimlikaya görə universal əxlaq ilə mədəni müxtəlifliyin uzlaştırılması və bütövlüklərini davam etdirmələri üçün mədəni qrupların cəmiyyətdən gələcək xarici müdaxilələrdən qorunması lazımdır. Məhz bu kontekstdə Brayn Berriyə görə bərabərhüquqlu liberalizmin prinsipləri ilə universal keçərliliyə malikdir və bütün cəmiyyətlər liberal standartlarla qiymətləndirilməlidir. Bu tendensiya olmadan tolerantlıqdan və etik ünsiyyətdən danışmaq olmaz. Dövlət isə lazım olduğunda liberal standartlara riayət olunmasını təmin etmək üçün müəyyən mənada ictimai sferaya müdaxilələr edə bilər (1).

Bəzi filosoflar universal etik prinsiplər fikrini qəbul etmir və bunun universal standart olmayıb cəmiyyətin məhsulu olduğunu iddia edirlər. Multikulturalizm üzrə ciddi yazıları ilə tanınan Çandran Kukatas da bu kontekstdə kosmopolit cəhətdən düşünənlərə cavab olaraq bildirir ki, heç kimsənin rədd edəbilməyəcəyi etik standart içində qalmaq şərtilə müxtəliflik xoş görülən bir tendensiyadır. Bu mənada tolerantlıq hər zaman ədalət kimi başqa əsas prinsiplərdən biri kimi qəbul olunmalıdır.

Müasir dövrdə insan hüquqlarının universal məzmun və mahiyyət daşıması ilə birlikdə insan şərəfinin bütün insanlarda müştərək olduğu düşüncəsi aktuallıq kəsb edir. Bu özlüyündə insanların bərabərhüquqlu olma fikrini də ehtiva edir. Məhz demokratik sistemlərin özləri də mədəniyyət tərkibi olaraq etik prinsipləri əhatə edir. Bu səbəblədir ki, liberal demokratiya öz siyasət sistemində hüquq və əxlaq uzalaşmasına böyük önəm verir. Məhz demokratik sistem daxilində hər hansı bir etnosa

malik vətəndaş etik şüurla tolerant düşüncənin daşıyıcısı olaraq hərəkət edir. O hər hansı bir mədəniyyətin mütləq olmadığını və plüralistik düşüncə tərzinə malik olaraq hüquq və etik bütnlüyü qorumalıdır. Məhz liberal demokratik baxış tərzi müxtəlifliyə universal insan hüquqları və azadlıqları çərçivəsində baxır. Digər tərəfdən müasir siyasət fəlsəfəsinin də əsas müddəalarından biri universal əxlaq prinsiplərinin mədəni müxtəlifliklə necə uzlaşmasının təmin edilməsi məsələsidir (5, s.28).

Məlum olduğu kimi etika yaxşı-pis və dəyərlər sahəsini ehtiva edir. Bu kontekstdə qeyd olunmalıdır ki, Ziqmunt Bauman müxtəlifliyin və azadlığın təminatının güclü bir birlik olduğunu qeyd edir. Ona görə postmodern etikanın əsasını da bu təşkil edir. Tək səsliyin yerini çoxmədəniyyətlilik daxilində plüralizm alır (2, s. 56).

Məşhur amerikan filosofu Con  Rouls etik normların anlaşılması olmadan çox mədəniyyətlilik konsepsiyasında ədalətin anlaşılabilməyəcəyini vurğulayır. Məhz sosial sahədə olduğu kimi əxlaqi bir məfhum olan ədalət çox mədəniyyətlilik münasibətlərinin yaranmasında açar məfhumlardan biridir(11, s.131).

Multikulturalizm insan hüquqları, azadlıq kimi universal prinsiplərə istinad etməklə fərqliliyi vurğulayan və onları tanıyaraq aktual hala gətirən postmodern situasiyaya da istinad edir. Bu səbəblə də qloballaşma ilə postmodern situasiyanın motivə etdiyi multikulturalizm üçün ən əsaslı problem universal olduğu iddia edilən dəyər və prinsiplərlə fərqli kimlik və mədəniyyətlərin tələblərinin eyni anda necə birlikdə mühafizə ediləcəyi məsələsidir.

Dünyanın müxtəlif mədəniyyətlərə ayırma və beynəlxalq münasibətləri mədəniyyət konsepsiyasından istifadə edərək anlamamağa çalışma metodu 1950-ci illərdən sonra modernizm və inkişaf nəzəriyyələrilə müştərək şəkildə hərəkət etdi. Daha sonrakı illərdə Samuel Hantiqton və Bernard Levis sivilizasiyalararası konflikt iddiasını ortaya atıb dəstəklədilər. Ancaq Riçard Balliet ``The Case for İslamo-Christian Civilization`` adlı kitabıyla Levis və Hantiqtonu tənqid edərək onların tezisinə qarşı anti-tezisini ortaya atdı. Ona görə islam və xristianlıq sivilizasiyalararası konfliktdə qarşıdurma tərəfləri olaraq istifadə oluna bilməz. Əksinə islam və xrsitianlığın təcrübələri tarix boyunca bir-birindən ayrılmaz şəkildədir. Hətta bunlar tək bir sivilizasiya olaraq görülə bilər(4).

## ƏDƏBİYYAT


1. *Barry Brain, Culture and Equality: An Egalitarian Critique of Multiculturalism, Oxford, Polity Press, 2001.*
2. *Bauman Zigmunt Bauman, Modernity and Ambivalence, Cornell University Press, 1991.*
3. *Benhabib S, The Claims of Culture: Equality and Diversity in the Global Era, Princeton University Press.*
4. *Bulliet Richard, The Case for İslamo-Christian Civilization, New York Columbia University Press, 2004.*
5. *Bunnin Nicholas, Yu Jiyuan, Ethics``, The Blacküell Dictionary of Western Philosophy, Blacküell Publishing, 2004.*
6. *Kymlicka Will, Multicultural Citizenship: A Liberal Theory of Minority Rights (Oxford: Oxford University Press, 1995,.s. 25-26.*
7. *Huntiqton Samuel, "The Clash of Civilizations", Foreign Affairs, Summer 1993, s. 25-29.*
8. *Habermas Jurgen, Citizenship and National Identity, The Condition of Citizenship, ed. Bart van Steenbergen, 1995.*
9. *Malik Kenan,(2002). Against Multiculturalism. New Humanist Online,  http://www.kenanmalik.com/essays/against_mc.html*
10. *Мамедзаде И. , О философии мультикультурализма, Вопросы философии. 2016. № 10. http://vphil.ru/index.php?option=com_content&task=view&id=1504&Itemid=52*
11. *Rawls John, A Theory of Justice, Cambridge, Massachusetts: Belknap Press of Harvard University Press, 1971. s.131.*
12. *Rockfeller Steven C, Spirit and Nature -- Why the Environment Is a Religious Issue: An Interfaith Dialogue. Edited by Steven C. Rockefeller and John C. Elder. Beacon Press, s. 205.*
13. *Taylor Charles, Multiculturalism and "The Politics of Recognition", Princeton University Press, 1992. s.15-23.*


**Açar sözlər:** *multikulturalizm, etika, demokratiya, mədəniyyət, universal, identiklik.*

**Key words:** *multiculturalism, ethics, democracy, culture, universal, identity.*

**Ключевые слова:** *этика, демократия, культура, универсальная идентификация*

**РЕЗЮМЕ**

**Некоторые этические аспекты мультикультурализма и этики**

В статье анализируются философские основы мультикультурализма и этики. Универсально-этнические принципы, такие как справедливость, религия, расовая принадлежность и гендерные аспекты, вытекают из этических принципов культурного разнообразия.
В этом смысле в статье подчеркивается важность постмодернистской этики.

**RESUME**

**Some ethical aspects of multiculturalism and ethics**

The article analyzes the philosophical foundations of multiculturalism and ethics. Universal ethical principles derive the relationships of cultural diversity with ethics. In this sense, the importance of postmodern ethics is highlighted in the article.

# Tarix

## ERMƏNİSTAN-AZƏRBAYCAN, DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNDƏ "HALQA" ƏMƏLİYYATININ ROLU VƏ MAHİYYƏTİ

ƏDALƏT MUSTAFAYEV
AMEA A.A. Bakıxanov adına Tarix İnstitutu



XX əsrin sonlarında hakimiyyətə gələn M.S.Qorbaçovun səriştəsiz siyasəti nəticəsində əsassız ərazi iddiaları ilə bərabər SSRİ-də kütləvi informasiya vasitələrində antiazərbaycan, antimüsəlman fikirlərin yer alması mütəmadi hal almağa başladı. İqor Belyayevin 1987-ci ildə "Literturnaya Qazeta"da "İslam" adı altında nəşr olunan məqaləsində xoşagəlməz fikirləri ilə diqqət çəkir: "Bizim ölkə üçün islam düşmən mövqedədir, təhlükə mənbəyidir...". [22, 103] Dövlətin rəsmi jurnalına antimüsəlman əhval-ruhiyyəli və qərəzliliyi ilə seçilən məqalələrin yer alması təsadüfi sayıla bilməzdi. Bildiyimiz kimi, M.S.Qorbaçovun razılığı əsasında onun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyanın məsuliyyətsiz çıxışından sonra Ermənistandan Azərbaycana qarşı əsasız ərazi iddialarının yeni mərhələsi başlamışdır.

SSRİ Ali Sovetinin Rəyasət heyəti DQMV Xalq Deputatları Sovetinin xahişi ilə əlaqədar Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə keçməsi haqqında Ermənistan SSR Ali Sovetinin 1988-ci il 15 iyun tarixli "xahişi"ni və Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR tərkibinə verilməsinin qeyri-mümkünlüyü haqqında Azərbaycan SSR Ali Sovetinin 1988-ci il 17 iyun tarixli qərarını müzakirə edərək Azərbaycan SSR-in və Ermənistan SSR-in sərhədlərinin konstitusiya əsasında müəyyənləşdirilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsini qəbuledilməz hesab etsə də, bu heç nəyi dəyişmədi. [5] Qısa müddətdən sonra SSRİ Ali Soveti Rəyasət Heyətinin 28 iyul 1988-ci ildə verdiyi qərarlarda, insanların sərbəst toplaşma, mitinqlərin, küçə yürüşlərininin və nümayişlərinin təşkili və keçirilməsi qaydası haqqında fərmanın müddəalarının yer alması, ermənilərin separatçı çıxışlarına imkan yaratdı. [11] SSRİ Ali Soveti DQMV-də və ətraf ərazilərdə "vəziyyəti sabitləşdirmək" adı altında qəbul etdiyi qərarda Dağlıq Qarabağ Muxtar Vilayəti ilə bərabərlik əsasında Respublika Təşkilat Komitəsi yaradılması və 20-ci çağırış DQMV Xalq Deputatları Sovetinin və onun İcraiyyə Komitəsinin SSRİ Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 12 yanvar tarixli fərmanı ilə dayandırılmış fəaliyyəti bərpa edilməsi göstərilmişdir. Qərarın

başqa bir maddəsində DQMV-də vəziyyəti normallaşdırmaq üçün İttifaq Nəzarət Müşahidə Komissiyasının (İNMK) yaradılması və SSRİ Ali Sovetinə tabe edilməsi, Muxtar Vilayətin hakimiyyət və idarə orqanlarının bərpası şəraitində DQMV-nin Xüsusi İdarə Komitəsinin bundan sonra saxlanmasının məqsədəuyğun sayılmaması göstərilirdi. Həmin sənəddə deyilirdi: "Dağlıq Qarabağ Muxtar Vilayətində asayişin qorunması üçün SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının müvafiq kontingenti İttifaq Nəzarət Müşahidə Komissiyasına (İNMK) tabe edilməklə Dağlıq Qarabağ Muxtar Vilayətində saxlanılsın". [4] Araşdırmadan da göründüyü kimi, Mərkəzi hökumətin istənilən aspektdən fərqli qərarlar qəbul etməsi separatizmin qarşısının alınması deyil Ermənistanın açıq şəkildə dəstəklədiyi terrorçu qruplara şərait yaratmaq imkanı verirdi.

SSRİ Daxili İşlər Nazirliyinin və SSRİ Prokurorluğunun nümayəndələrinin və Sovet ordusunun ayrı-ayrı batalyonlarının münaqişə bölgəsində olmasına baxmayaraq, sabitliyi pozan erməni terrorçu qrupların təşkilatçılarından heç kim həbs edilib cəzalandırılmamışdır. [7] Ermənistanın terrorçu qrupları dəstəkləməsi nəticəsində Dağlıq Qarabağdan kənar ərazilərdə də separatizm dəstəklənir və himayə olunurdu. Azərbaycan KP MK-də, DQMV idarə və struktur rəhbərlərinin separatçılıq hərəkətləri nəzərə alınaraq, eyni mövqedən çıxış edən Şaumyan Rayon Komitəsinin təşkilati-siyasi işində çox kobud nöqsanların üzə çıxarılması ilə Azərbaycan KP Şaumyan Rayon Komitəsi bürosunun və plenumunun fəaliyyətinə xitam verilir və onların tərkibi buraxılır. Açıq-aşkar millətçilik və separatizm mövqelərinə keçdiyinə görə Vladimir Levonoviç Ağacanyan Şaumyan Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad edilir və Sov. İKP sıralarından xaric olunur. [3]

Ermənistandan Azərbaycan ərazilərinə göndərilən terrorçu qrupların fəaliyyəti haqqında SSRİ-də rəsmi dairələr tam məlumatlı olub, hətta onların müdafiəsinə qalxmışdılar. Buna misal olaraq Ermənistan Daxili İşlər Nazirliyinin podpolkovniki olan Yegiyan Şəmkirə məhz, diversiya məqsədilə göndərilməsi, Ermənistan vətəndaşı olan bu şəxsin Şəmkirdə sovxoz direktoru seçilməsi də təsadüfi hal deyildir. M.S.Qorbaçov Şəmkirin Çardaxlı kəndində Suren Yegiyan kimi bir anarxistin taleyi ilə maraqlanaraq, "siz marşalların kəndini köçürürsünüz" [10], - deyə Azərbaycan rəhbərliyini  tənbeh etmişdir.

1990-cı il yanvarın 15-də DQMV və onunla sərhəd olan rayonlarda, o cümlədən Şaumyankənddə "fövqəladə vəziyyət" elan olundu. [23] Qasım İsmayılov (indiki Goranboy rayonu) ərazisində bir neçə erməni kəndini əhatə edən, süni şəkildə yaradılmış Şaumyankənd rayonunun (Goranboy rayonunun dağlıq hissəsi - Ə.M.) erməni əhalisi 1989-cu ilin iyulunda DQMV-ə birləşməyi tələb edəndən  sonra bu ərazidə də vəziyyət gərginləşmişdi. [24]

